Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 102 (7829) BAZAR, 6 may 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik



## Azərbaycanın özü qədər əbədi

# Ali mənəviyyat sahibi



*Bismillahir-rəhmanir-rəhim!*

**Bu, bir həqiqətdir ki, Azərbaycan Respublikasının və xalqının həyatın bütün sahələrində yüksəliş və intibahının memarı olan Heydər Əliyev həzrətləri kimi dahi şəxsiyyətlər hər bir xalq və məmləkət üçün yüzilliklər ərzində tək-tək yetişir. Müstəqil Azərbaycan dövlətçiliyinin qurucusu, xilaskarı olan ulu öndərimizin həyatı boyu Azərbaycan naminə xidmətləri misilsizdir.**

Dahi şəxsiyyət olaraq mədəni-mənəvi dəyərlərin xalqın tərəqqi və rifaha qovuşmasında əhəmiyyətini gözəl dərk edən ulu öndər hər zaman ümumxalq mənafeyi, dövlətçilik maraqları naminə bu dəyərli xəzinədən bəhrələnir, ona qayğı ilə yanaşırdı. Ölkəmizin yaşadığı çətin zamanlarda ulu öndər dövlət quruculuğu və müstəqilliyimizin möhkəmləndirilməsi kimi ümdə məsələlərlə yanaşı, milli-mənəvi həyatın inkişafına xüsusi diqqət yetirirdi.

Heydər Əliyev ümummilli lider missiyasında ölkəmizi etnik separatçılıq, dini zəmində parçalamaq, mənəvi cəhətdən zəiflətmək, məzhəb ayri-seçkiliyi salmaq istəyənlərin niyyətlərini puç edərək dövlətçiliyimizi xilas etdi. Milli və dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlarımızı azərbaycançılıq məfkurəsi ətrafında səfərbər etməklə ulu öndər Azərbaycan dövlətçiliyinin sarsılmaz əsasını yaratmış oldu.

Bu görkəmli şəxsiyyətin onilliklər ərzində Vətənə, millətə xidmətinin cövhərində böyük mənəviyyat sahibi olması durur. Heydər Əliyevin dövlətçilik, siyasi rəhbərlik qabiliyyətləri dünya miqyasında hamıya məlumdur. Lakin zənnimcə, bu görkəmli şəxsiyyətin, ilk növbədə böyük mənəviyyat sahibi olması xüsusi əhəmiyyətə malikdir. Bu mənəviyyat illərlə, onilliklərlə onun Vətənə, millətə xidmətinin cövhərində olub. Və mən bunun şəxsən şahidi olmuşam.

Mənim həyatım boyu yaddaşımdan silinməyəcək xatirətım Heydər Əliyev həzrətlərinin Məkkə ziyarəti ilə bağlıdır. Dünyanın ən müqəddəs yerində, yalnız seçmə insanların ayaq basdığı Kəbə evinin daxilində Azərbaycan Prezidenti bir Böyük Ata kimi Allahdan millətimizi hifz etməsini, xalqının bəlalardan qurtulmasını diləyir, dövlətimizin müstəqillyinin əbədi, yaşayışımızın firavan və xeyir-bərəkətli olmasını arzulayırdı. O, bu müqəddəs səfəri ömrü boyu arzuladığını dilə gətirmişdi.

Heydər Əliyev qəlbən hər zaman imanlı insan olmuşdur - mən bunu Heydər Əliyevin oğlu İlhamın müsəlman qaydası üzrə kəbinini kəsərkən də, mərhumə Zərifə xanımın vəfatı zamanı ateizm rejiminin qadağalarına baxmayaraq dini duanı oxumağım üçün xüsusi şərait yaradılmasında sonra israrına şahid olduğum zamanlarda da hiss etmişəm.

Vətənə qayıtdıqdan sonra ömür-gün yoldaşının Bakıda müsəlman dininin qaydalarına uyğun dəfn edilməsi yönündə səylərini, bir din xadimi kimi mənimlə məsləhətləşmələrini xatırlayıram. Onun Allah sevgisi, dinimizin qaydalarına ehtiramla yanaşması, ilk növbədə, təbii ki, ailəsindən, mömin valideynlərindən qaynaqlanmışdı. O, bu sevgini həyatın bütün keşməkeşli dövrlərində hifz edərək, daha da dərinləşdirməyə, kamilləşdirməyə nail olmuşdu.

Sonralar Heydər Əliyevin səy və iradəsi hesabına müqəddəs dəyərlərin dirçəldilməsi, dini məbədlərin bərpası, dövlət rəhbərimizin mərasimlərdə fəal iştirakını gördükcə bir daha hamıya bəlli olurdu ki, illər uzunu hökm sürən ateist təbliğatı onun qəlbinin dərinliklərində kök salmış Allah sevgisinə zərrə qədər xələl gətirməmişdir, bu sevgi övladlarına da sirayət etmiş, onlar da öz müqəddəs dinlərinə ehtiram ruhunda tərbiyə olunmuşlar.

Bilirsiniz, "Heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacaq və bu mənəvi mənbələrdən istifadə edərək gələcəyimizi quracağıq" - sözləri Heydər Əliyev həzrətlərinin dünyalar qədər sevdiyi Azərbaycanın gələcək səadətinin təməlində müqəddəs dinimizin oynayacağı rolu uzun illər əvvəldən düşündüyünü göstərir, islam dəyərlərinə sədaqətindən xəbər verir.

Əlbəttə, dininmizin dirçəldilməsi, dini dəyərlərə qayıdış sahəsində baş verən dəyişikliklər müstəqilliyimizin uğurları ilə əlaqədardır. Lakin bu da şəksizdir ki, demokratik prinsiplərə arxalanan dini etiqad azadlığı və müqəddəs islami dəyərlərin təşəkkülü məhz Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, müstəqillik qazandıqdan sonra Azərbaycanda islama heç də birmənalı münasibət bəslənmirdi. Məhz Heydər Əliyevin prezidentliyi dövründə islam xalqımızın həyatında layiqi yerini tutdu, onun inkişafı üçün bütün imkanlar və münbit şərait yaradıldı. Heydər Əliyev müdrik dövlət başçısı kimi islamın əsl mahiyyətini dərindən duyur, onun millətin inkişafında, mənəvi intibahında, yüksək məqsəd və amallar uğrunda sıx birləşməsində əvəzsiz rolunu dərk edirdi.

Təsadüfi deyil ki, Heydər Əliyev hakimiyyətə qayıdışından sonra ilk addımlarından birini məhz ibadət məkanına atdı - Təzəpir məscidini ziyarətə gələrək dindarlar qarşısında çıxış etdi, bu gün tariximizin şüarına dönmüş: "Allahın yolunda hamımız bir olaq!" sözlərini dedi. İlk sərəncamlarından biri nisgilli Bibiheybət məscidinin bərpası haqqında oldu. Sonralar növbəti ziyarətlərindən biri Aşura mərasimi gününə təsadüf etdi. Müstəqil Azərbaycanda hakimiyyətə qayıdışından sonra ilk dəfə Peyğəmbər Salavatullahın Mövludu günündə, Aşura mərasimində Təzəpirə təşrif buyurması ilə dinimizə ehtiramını və xalqımızın həyatında dini dəyərlərə verdiyi önəmi əyani şəkildə nümayiş etdirdi.

*Ardı 2-ci səh.*

## Ulu öndər xalqın, vətənin taleyini öz taleyinə çevirmişdi

**1969-cu il iyulun 14-də Azərbaycanda siyasi hakimiyyətə irəli çəkilən ulu öndər Heydər Əliyev ilk gündən hər cür ideoloji-siyasi baryerlərə sinə gərərək xalqın milli özünüdərki üçün zəruri tədbirlər həyata keçirməyə başladı, cəmiyyəti bütün sahələr üzrə mənəvi yüksəlişlərə ruhlandırdı, hər bir kəsdə milli heysiyyatı gücləndirmək, onu şanlı keçmişinə, soy-kökünə qaytarmaq, habelə zəngin mədəni irsini yaşatmaq naminə bir sıra tədbirlər reallaşdırdı.**

Bugünkü müstəqil Azərbaycan dövlətinin iqtisadi-siyasi əsaslarının, milli kadr potensialının formalaşması, respublikada strateji əhəmiyyətli sənaye və istehsal müəssisələrinin açılması da məhz ötən əsrin 70-80-ci illərinə təsadüf edir. Ümummilli lider Heydər Əliyevin qətiyyəti, iradəsi və təşəbbüskarlığı ilə keçmiş SSRİ-nin bir sıra strateji əhəmiyyətli müəssisələri məhz Azərbaycanda inşa olundu, bununla da respublikamızın gələcək müstəqilliyinin iqtisadi əsası formalaşdırıldı. Böyük strateqin təkidi ilə keçmiş İttifaq rəhbərliyi respublikamızda bir sıra iri müasir maşınqayırma, kimya, neft-kimyası, elektron sənayesi, əlvan və qara metallurgiya, toxuculuq, yeyinti, emal müəssisələrinin tikintisinə razılıq verdi, paralel olaraq energetika və nəqliyyat kompleksi inkişaf etdirildi. Həmin illərdə Bakıda, Sumqayıtda, Gəncədə və digər şəhərlərdə inşa olunan iri müəssisələr bu günün özündə də iqtisadiyyatın güclü sənaye kompleksinin formalaşmasına zəmin yaradan möhkəm təməldir. Bütün bunlar bir daha təsdiqləyir ki, Heydər Əliyev o dövrün ağır şərtləri, məhdudiyyətləri çərçivəsində də xalqımızın gələcək rifahı üçün əlindən gələni əsirgəməmiş, bəzən mümkün görünməyəni reallığa çevirmişdir. Çox sonralar nitqlərinin birində "Biz sovet rejimində yaşayırdıq. Məgər biz bu rejimi dəyişə bilərdik? Amma iş ondadır ki, bu rejim altında olsa da, sən xalqın, millətin üçün nə edirsən? Əgər bu rejimi dəyişdirə bilmirsənsə, onda onun imkanlarından istifadə edib xalqına kömək göstər. Mən bunu etdim. Azərbaycan o illərdə çox yüksəklərə qalxdı" - deyən Heydər Əliyev həmin dövrü Azərbaycanın inkişafında mühüm mərhələ kimi səciyyələndirmişdir.

*Ardı 3-cü səh.*

## Heydər Əliyev yolu

**Ümummilli lider Heydər Əliyev Azərbaycan tarixində özünəməxsus yer tutan nadir tarixi şəxsiyyətlərdəndir. Onun zəngin irsi hələ uzun müddət siyasətşünasların, filosofların, tarixçi və araşdırmaçıların tədqiqat mənbəyi olacaq.**



Ümummilli lider 15 ildir aramızda olmasa da, onun ideyaları, siyasi irsi, yaratdığı dövlətçilik məktəbi, bizə ərməğan etdiyi müstəqil və demokratik Azərbaycan möhtərəm Prezidentimiz cənab İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasəti, gerçəkləşdirdiyi dəyərli islahatları ilə dinamik inkişaf edir, yeni-yeni uğurlar qazanır.

Ötən əsrin 70-80-ci illərində Azərbaycanı keçmiş İttifaq məkanında bütün sahələrdə inkişafına görə qabaqcıl respublikalar sırasına çıxaran görkəmli dövlət xadimi Heydər Əliyev həmin vaxtlarda bu diyarın müstəqil gələcəyi üçün hərtərəfli potensialın yaradılmasını təmin etmişdir. 1993-cü ildə xalqın iradəsi ilə respublika rəhbərliyinə qayıtdıqdan sonra da ulu öndər müstəqil Azərbaycan dövlətinin qurulması və inkişaf etidirilməsi kimi mühüm və şərəfli tarixi vəzifəni yüksək səviyyədə həyata keçirmişdir.

Dahi şəxsiyyət Azərbaycana rəhbərliyi illərində respublikamızın inkişaf tempinin, genişmiqyaslı quruculuq işlərinin ardıcıl xarakter alması üçün genişmiqyaslı islahatları reallaşdırmışdır. Onun həyata keçirdiyi iri layihələrin icrası sayəsində iqtisadiyyatın bütün sahələri əhəmiyyətli dərəcədə inkişaf etməyə başlamışdır.

Respublikamızda dəmir yolunun inkişaf tarixinin böyük bir hissəsi də dahi şəxsiyyətin adı ilə sıx bağlıdır. Məhz ümummilli liderin diqqət və qayğısı sayəsində ötən əsrin sonlarında dəmir yolu infrastrukturu öz tərəqqisinin zirvəsinə çatmışdır. Ulu öndər istər Azərbaycan Respublikasında, istərsə də keçmiş SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışarkən dəmir yolu infrastrukturunu daim diqqət mərkəzində saxlamış və onun inkişafına xüsusi önəm vermişdir.

Azərbaycanın nəhəng təsərrüfat kompleksinin - dəmir yolu sisteminin inkişafındakı mühüm xidmətləri barədə danışmazdan əvvəl ulu öndərin keçdiyi ömür yoluna qısaca nəzər salaq. Bununla bağlı əvvəlcə bir həqiqəti xatırlatmaq yerinə düşərdi. Belə ki, böyük şəxsiyyətləri fərqləndirən ali xüsusiyyətlərdən biri onların yalnız bu günlə bərabər, gələcək barədə də düşünmələri, götür-qoy etmələri, insanların həyatında mühüm rol oynayan strateji qərarlar qəbul etmələridir.

*Ardı 2-ci səh.*

## Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü və 27-ci bəndlərini rəhbər tutaraq, "Kredit büroları haqqında" Azərbaycan Respublikasının 2016-cı il 28 oktyabr tarixli 384-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikası Mülki Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, I kitab, maddə 250, № 5, maddə 323; 2002, № 12, maddə 709; 2003, № 8, maddə 420; 2004, № 3, maddə 123, № 5, maddə 318, № 6, maddə 415, № 10, maddə 761, № 11, maddə 901; 2005, № 2, maddə 61, № 6, maddə 466, № 8, maddələr 684, 692, 693, № 11, maddə 996, № 12, maddə 1085; 2006, № 2, maddə 68, № 3, maddə 225, № 5, maddə 387, № 6, maddə 478, № 8, maddə 657, № 12, maddə 1005; 2007, № 2, maddə 80, № 6, maddə 560, № 8, maddə 745, № 10, maddə 937, № 11, maddə 1053, № 12, maddələr 1215, 1219; 2008, № 3, maddə 145, № 6, maddə 456, № 7, maddə 602, № 12, maddə 1049; 2009, № 2, maddə 47, № 5, maddə 295, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 2, maddə 75, № 3, maddə 171, № 4, maddələr 265, 266, 276; 2011, № 2, maddə 71, № 7, maddə 586, № 8, maddə 750, № 12, maddələr 1073, 1102; 2012, № 1, maddə 5, № 5, maddə 403, № 6, maddə 498; 2013, № 1, maddə 15, № 6, maddə 620, № 11, maddə 1280, № 12, maddələr 1469, 1478; 2014, № 2, maddə 96, № 7, maddə 768; 2015, № 3, maddə 254, № 5, maddə 512, № 7, maddə 814, № 10, maddə 1093; 2016, № 1, maddə 26, № 2, I kitab, maddələr 186, 204, № 3, maddə 401, № 4, maddələr 640, 646, № 6, maddə 1005, № 7, maddə 1248, № 12, maddələr 1998, 2018; 2017, № 2, maddələr 151, 153, № 4, maddə 524, № 5, maddələr 703, 735, № 6, maddə 1035, № 11, maddə 1953, № 12, I kitab, maddələr 2210, 2234, 2239; Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 918-VQD nömrəli Qanunu) 967.2-ci maddəsinin ikinci cümləsinə "şəxslərinə" sözündən sonra ", habelə kredit bürolarına" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 aprel 2018-ci il*

## "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1053-VQD nömrəli Qanununun tətbiqi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1053-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 may 2018-ci il*

## Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, I kitab, maddə 250, № 5, maddə 323; 2002, № 12, maddə 709; 2003, № 8, maddə 420; 2004, № 3, maddə 123, № 5, maddə 318, № 6, maddə 415, № 10, maddə 761, № 11, maddə 901; 2005, № 2, maddə 61, № 6, maddə 466, № 8, maddələr 684, 692, 693, № 11, maddə 996, № 12, maddə 1085; 2006, № 2, maddə 68, № 3, maddə 225, № 5, maddə 387, № 6, maddə 478, № 8, maddə 657, № 12, maddə 1005; 2007, № 2, maddə 80, № 6, maddə 560, № 8, maddə 745, № 10, maddə 937, № 11, maddə 1053, № 12, maddələr 1215, 1219; 2008, № 3, maddə 145, № 6, maddə 456, № 7, maddə 602, № 12, maddə 1049; 2009, № 2, maddə 47, № 5, maddə 295, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 2, maddə 75, № 3, maddə 171, № 4, maddələr 265, 266, 276; 2011, № 2, maddə 71, № 7, maddə 586, № 8, maddə 750, № 12, maddələr 1073, 1102; 2012, № 1, maddə 5, № 5, maddə 403, № 6, maddə 498; 2013, № 1, maddə 15, № 6, maddə 620, № 11, maddə 1280, № 12, maddələr 1469, 1478; 2014, № 2, maddə 96, № 7, maddə 768; 2015, № 3, maddə 254, № 5, maddə 512, № 7, maddə 814, № 10, maddə 1093; 2016, № 1, maddə 26, № 2, I kitab, maddələr 186, 204, № 3, maddə 401, № 4, maddələr 640, 646, № 6, maddə 1005, № 7, maddə 1248, № 12, maddələr 1998, 2018; 2017, № 2, maddələr 151, 153, № 4, maddə 524, № 5, maddələr 703, 735, № 6, maddə 1035, № 11, maddə 1953, № 12, I kitab, maddələr 2210, 2234, 2239; Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 918-VQD nömrəli Qanunu) 139-1.1.10.2-ci maddəsində "yaşayış evləri" sözləri "tikinti obyektləri" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 aprel 2018-ci il*

## "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1060-VQD nömrəli Qanununun tətbiqi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1060-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 may 2018-ci il*

1923 *Azərbaycanın özü qədər əbədi* 2018



# Ali mənəviyyat sahibi

*Əvvəli 1-ci səh.*

Qismət belə gətirdi ki, Heydər Əliyevin nəşi məhz Təzəpir məscidindən islami qaydalara uyğun şəkildə qaldırıldı, Ər-Rəhman surəsinin sədaları altında dünyada hər şeydən artıq sevdiyi doğma Vətən torpağına tapşırıldı.

Bibiheybət məscidi ilə bağlı Heydər Əliyev həzrətlərinin göstərdiyi həssasiyyət xüsusi önəm kəsb edir. 1994-cü ildə bu məscid ziyarətgahın əvvəlki tarixi məkanda bərpa edilməsi barədə sərəncam verən Prezident Heydər Əliyev mütəmadi şəkildə buraya baş çəkərək, işlərin layihələndirilməsindən başlayaraq tikintinin gedişinədək bütün məsələləri xüsusi diqqətdə saxladı. 1996-cı ildə təməlqoymada şəxsən iştirak edən Heydər Əliyev həzrətləri 1998-ci ilin 12 iyulunda məscidin ilk minarəsinin açılışında iştirak etdi. Həmin an onun sevincinin həddi-hüdudu yox idi desəm, yanılmaram. Qədirbilən xalqımız bu minarəni "Heydər minarəsi" adlandırır. Sonradan da bu məkanda böyük quruculuq, bəzək işləri, kompleksin genişləndirilməsi işləri dövlət başçısının diqqət və qayğısı sayəsində davam etdirildi. Heydər Əliyev məktəbinin layiqli davamçısı İlham Əliyev həzrətlərinin iştirakı ilə 2008-ci ilin 14 iyulunda Bibiheybət məscid ziyarətgahının artıq tam kompleks olaraq açılışı oldu.

Bu, xalqının tarixi mənəvi irsinə, müqəddəs dininə ehtiram bəsləyən müdrik liderin əsrlərə yadigar töhfəsi oldu.

Bibiheybət məscidinin Heydər minarəsindən səslənən azan səsi Azərbaycanda dini-mənəvi dəyərlərə sədaqət və ehtiramın carçısına çevrilib. Ölkə həyatının bütün sahələrində təməli Heydər Əliyev tərəfindən qoyulmuş nəhəng işlərin bəhrələri bu gün Azərbaycan dövlətçiliyinə, Azərbaycan xalqına xidmət edir. Ulu öndərin ruhu şad olsun! Azərbaycan dövləti, milli mənəviyyatımız mövcud olduqca, Bibiheybət ziyarətgahı yaşadıqca Heydər Əliyev Azərbaycan xalqı ilə ruhən birgə yaşayacaqdır.

Ən maraqlı məqamlardan biri Azərbaycan Prezidentinin andiçmə mərasimində Ana Qanun olan Konstitusiyamızla yanaşı, müqəddəs Kitabımız Qurani-Kərimin yanaşı, qoyulması oldu. Bəli, bu dəyərli ənənənin də əsasını qoyan müdrik Heydər Əliyev oldu. O zaman - 1993-cü ildə mən çətinliklə əldə etdiyim və uzun illər boyunca qoruyub saxladığım, vaxtilə Nadir şaha məxsus olmuş nadir və nəfis Quran kitabını məhz təntənəli andiçmə mərasimi üçün təqdim etdim. Ulu öndərin həmin gün öpüb and içdiyi həmin Quran kitabı uzun illər boyu Prezident Heydər Əliyevin iş otağında oldu, hal-hazırda da dövlətçilik tarixi muzeyində dəyərli eksponat olaraq qorunub saxlanılır. Bu, Heydər Əliyev şəxsiyyətinin dinə, dini dəyər və atributlara yüksək ehtiramının dəyərli göstəricisidir.

Şükürlər olsun ki, Azərbaycanda hər il Ramazan ayını onun müqəddəsliyi və mübarəkliyinə layiqli şəkildə yaşamaq, onu dünya müsəlmanları ilə birgə bayram etmək imkanına malikik. Bu bayramda dövlət başçısı ilə birgə olmaq, iftar süfrəsi ətrafında bir araya gələrək Ramazan sevincini paylaşmaq bir töhfədir və bu gözəl ənənənin əsasını da məhz Heydər Əliyev həzrətləri qoymuşdur və həmin ənənə bugünkü dövlət başçımız İlham Əliyev tərəfindən yaşadılır.

Heydər Əliyev həzrətləri islami dəyərlərin dirçəldilməsi məsələsinə əsaslı şəkildə yanaşırdı və bu məqsədlə "İslam sivilizasiyası Qafqazda" mövzusunda beynəlxalq simpoziumun keçirilməsi barədə olduqca əhəmiyyətli və məqamında sərəncam vermişdi. Bu, islam sivilizasiyasının Qafqazda yayılması tarixinə dair məsələlərin elmi şəkildə öyrənilməsinə böyük təkan verdi.

Təzəpir məscidində Həzrəti Peyğəmbər Salavatullahın mövludu günündə etdiyi çıxışında Heydər Əliyev: "Müsəlmanlarla yanaşı, başqa dinlərə mənsub olan vətəndaşların da yaşadığı çoxmillətli Azərbaycan Respublikası müstəqil, demokratiya prinsiplərinə mənsub olan bir dövlət kimi bütün millətlərə dinindən, dilindən, irqindən, siyasi mənsubiyyətindən asılı olmayaraq azadlıq, hürriyyət imkanları verir" deyə bəyan etmişdi. Dinindən, dilindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşlarına doğma münasibət bəsləyən Heydər Əliyev həzrətləri illərin sınağından çıxmış adət və ənənələrə ehtiramla yanaşırdı, müxtəlif icmaların dini və milli bayramlarında həmvətənləri ilə birgə olur, onları təbrik edirdi. Məhz onun hakimiyyəti illərində - 1998-ci ildə Rus Pravoslav Kilsəsinin Bakı yeparxiyası yenidən bərpa olundu. Bu, ölkəmizdə yaşayan pravoslav icmasının dini ehtiyaclarının qarşılanması yönündə böyük addım oldu. Jen-Mironosits kilsəsi bərpa olundu. Dünyanın nüfuzlu din xadimlərindən olan Moskva və bütün Rusiya Patriarxı II Aleksi, Ümumgürcüstan Patriarxı II İliya Azərbaycana təşrif buyurdu

2001-ci ildə məhz Heydər Əliyevin dəvəti ilə Roma Katolik kilsəsinin başçısı papa II İohan Pavel Azərbaycanı ziyarət etdi, azsaylı katolik icması üçün kilsə inşa edildi. Yeri gəlmişkən, bu günlərdə həmin ziyarətin 10 illiyi ilə bağlı Azərbaycanda olan Vatikan nümayəndə heyəti üzvləri ilə keçirdiyim görüşdə Heydər Əliyevin adı və xidmətləri böyük ehtiramla yad olundu. Azərbaycanda yaşayan yəhudi icması üçün yeni sinaqoq binası inşa etdirildi.

Qafqaz Müsəlmanları İdarəsi olaraq 1997-ci ildə "Allahın Lütfü, xalqın xilaskarı" mövzusunda keçirdiyimiz konfransda Azərbaycan vətəndaşları olan müxtəlif dini konfessiyaların nümayəndələri milyonlarla dindarın adından ölkədə dini etiqad azadlığının bərqərar olmasına görə Heydər Əliyev həzrətlərinə xüsusi minnətdarlıqlarını bildirdilər. Xoş haldır ki, Azərbaycandakı müxtəlif dini konfessiyalara münasibətdə bu ənənəvi münasibət dövlət başçımız İlham Əliyev həzrətləri tərəfindən bu gün də davam etdirilir.

Tale elə gətirib ki, mən Heydər Əliyevlə dəfələrlə xarici ölkələrdə səfərdə olmaq şərəfinə nail olmuşam. İstər İslam Konfransı Təşkilatı xəttilə keçirilən tədbirlərdə, istər beynəlxalq konfrans və zirvə görüşlərində, istərsə də rəsmi nümayəndə heyəti tərkibində etdiyim səfərlər zamanı, yol boyunca Heydər Əliyev şəxsiyyətinin hər zaman yeni, maraqlı cəhətlərini özüm üçün kəşf edirdim. Təbii ki, müxtəlif ölkələrdə Azərbaycanın dövlət başçısı Heydər Əliyevə bəslənən böyük hörmət və etimad hissi bizi çox qürurlandırırdı. Yalnız ona xas ardıcıllıq, comərdlik, güclü və davamlı iradə, fəhm, zəka, uzaqgörənlik, əsl dost olmaq bacarığı, düşmənə münasibətdə ötkəmlik, Vətən və millət təəssübünü hər şeydən üstün tutması kimi xüsusiyyətlər Heydər Əliyev şəxsiyyətini səciyyələndirən cəhətlər idi. Onun həyatını riskə ataraq 1990-cı ildə 20 Yanvar hadisələrinə öz kəskin reaksiyasını bildirməsi, Gəncə hadisələri zamanı göstərdiyi cəsarət və onlarca belə faktları misal çəkmək olar.

Tam səmimiyyətlə deməliyəm ki, fəaliyyətimdə əldə etdiyim uğurlar, o cümlədən milli-mənəvi dəyərlərin bərqərarı və inkişafı, din-dövlət münasibətlərinin təkmilləşdirilməsə, dinlərarası əlaqələrin tolerantlıq müstəvisində gerçəkləşməsi sahəsində əldə etdiyimiz müsbət nəticələr bilavasitə ulu öndər Heydər Əliyevin ənənələri ilə bağlıdır. Heydər Əliyev həzrətlərinin Azərbaycanda "dostum", "qardaşım" deyə müraciət etdiyi yeganə şəxs kimi mən hər zaman böyük qürur duymuşam.

Əminəm ki, müstəqil Azərbaycanda dini-mənəvi dəyərlərə ehtiramlı münasibətin əsasını qoymuş ulu öndər Heydər Əliyevin ruhu şaddır. Onun Vətənimizin xoşbəxt gələcəyi naminə başlatdığı bütün işlər kimi müqəddəs dinimizə sonsuz ehtiramı da bu gün layiqli şəkildə davam edir. Ailə ocağında bu ənənələr yaşadılır, inkişaf etdirilir, müqəddəs iman işığı bu gün də çıraq kimi yanır. İstər möhtərəm İlham Əliyev həzrətlərinin, istərsə Mehriban xanım Əliyevanın fəaliyyətlərində biz bunun şahidi oluruq. Heydər Əliyevin başlatdığı ali mənəviyyat yolu nəinki davam edir, hətta yeni zirvələrə ucalır.

Bu gün biz ulu öndərimiz Heydər Əliyevin xatirəsini böyük məhəbbət, ehtiram və minnətdarlıqla yad edir, ruhuna dualar edirik! Allah onu Öz rəhmət və mərhəmətinə qovuşdursun, məkanı cənnət olsun!

*Vəssalamu əleykum və rəhmətullahi və bərəkatuh.*

**Şeyxülislam**
**Allahşükür PAŞAZADƏ,**
***Qafqaz Müsəlmanları İdarəsinin sədri, tarix elmləri doktoru, professor***

# Heydər Əliyev yolu



*Əvvəli 1-ci səh.*

Başlanğıcda bəlkə də təbii qanunauyğunluq kimi nəzərdən keçirilən bu qərarların sonradan ümumilikdə xalqın, dövlətin tərəqqisi, inkişafı baxımından necə əlahiddə önəm daşıdığı daha aydın görünür. Bu mənada ümummilli lider, dünya şöhrətli siyasətçi Heydər Əliyevin dövlət və xalq naminə qəbul etdiyi qərarların strateji əhəmiyyətini bugünün özündə də duyur, gündəlik həyatımızda, taleyimizdə hiss edirik.

Bu dahi şəxsiyyətin 1969-cu ildən etibarən gördüyü işlərin miqyasını xəyalən təsəvvür edəndə ilk qənaətim belə olur: ulu öndər müdrik rəhbərlik istedadı sayəsində Azərbaycanda milli ruhun və azərbaycançılığın kommunizm ideologiyası çərçivəsində sıxışdırılmasının qarşısını alaraq onun dirçəldilməsi istiqamətində mövcud imkanlardan maksimum dərəcədə yararlanıb. Gənc nəslin ideoloji sistemin zəncirlərindən xilas olması, xalqın tarixi yaddaşının özünə qaytarılması kimi ideoloji təməl prinsipləri əsasında milli ruhun yüksəlişini təmin edib, millətin qəlbində illərdən bəri sıxışdırılıb qalan milli dövlətçilik ideyasının gələcəkdə böyük hərəkətverici qüvvəyə çevrilməsi üçün münbit zəmin formalaşdırıb.

Heydər Əliyev ötən əsrin 70-80-ci illərində və daha sonrakı dönəmdə Azərbaycanın gələcək sosial-iqtisadi inkişafının əsas istiqamətləri üzrə kompleks məsələləri müdrikliklə müəyyənləşdirib. Bununla da ölkəmizin iqtisadi müstəqilliyinin, onun xarici iqtisadi əlaqələrinin sistemli olaraq genişlənməsinin və dünya iqtisadiyyatına daha dərin şəkildə inteqrasiya prosesinin əsasını qoyub.

Bunu Azərbaycanda dəmir yolu infrastrukturunun inkişaf yoluna nəzər salmaqla da aydın təsəvvür edə bilərik. Xatırladaq ki, ölkəmizdə dəmir yolu nəqliyyatının yaranması tarixi XIX əsrin sonlarına təsadüf edir. Həmin dövrdə Bakıda neft sənayesinin inkişafı istehsal olunan məhsulun daşınma zərurətini meydana çıxarmışdı. Odur ki, Azərbaycanda polad magistral yolların çəkilişi də o vaxta - 1878-ci ilə təsadüf edir. Buna görə də Azərbaycanda dəmir yolunun tikintisinin başlanması və onun sonrakı inkişafı neftin çıxarılması və emalı ilə sıx bağlı olmuşdur. Neftin daşınması uzun illər primitiv şəkildə dəvə karvanı və arabalarda yerləşdirilmiş taxta çəlləklərlə yerinə yetirilirdi. Bu üsulla neftin nəqli həm əziyyətli idi, həm də baha başa gəlirdi. Bunun üçün də neft istehsalçıları yüksək gəlir əldə etmək məqsədilə dəmir yolu xətlərinin çəkilişinə böyük maraq göstərməyə başladılar.

Beləliklə, istehsal olunan neftin nəqli məsələsinin aktuallaşması, əvvəl Bakıda, sonra isə bütün Azərbaycanda dəmir yolunun yaranmasına təsir göstərmişdir. Azərbaycanda 1878-ci ildə salınan 20 kilometr uzunluğunda ilk dəmir yolu Bakı-Suraxanı-Sabunçu yaşayış məntəqələrini əhatə etmişdir. Bununla da dünyada ilk dəfə neftin sisternlərlə daşınmasına başlanmış, eyni zamanda, Azərbaycanda dəmir yolunun əsası qoyulmuşdur.

Sonrakı 20 il dəmir yolu tikintisinin yüksək inkişafı ilə müşahidə edilmişdir. 1883-cü ildə neftin Qara dəniz limanlarına çatdırılması üçün Bakı-Tbilisi-Batumi, 1890-cı ildə Biləcəri-Dərbənd magistral xətləri çəkilmişdir. 1900-cü ildə Dərbənd-Tixoretskaya xəttinin tikintisi başa çatdırılandan sonra isə Bakı şimal istiqamətində ümumrusiya dəmir yolları şəbəkəsi ilə birləşdirilmişdir. Bu da Bakı neftinin dəmir yolu ilə Rusiyanın mərkəzi və qərb rayonlarına çatdırılmasına imkan yaratmışdır.

İkinci Dünya müharibəsindən sonrakı illərdə, xüsusən də ötən əsrin 60-70-ci illərində SSRİ-nin digər təsərrüfat sahələrində inkişafın sürətləndirilməsi ilə əlaqədar başqa növ yüklərin daşınmasının həcmi də artmışdır. Dəmir yolu ilə yük daşınmasının maksimum həcmi 1987-ci ilə təsadüf edir. Həmin vaxt 44,5 milyon ton yük, o cümlədən 12,9 milyon ton neft və neft məhsulları daşınmışdır. Neft və neft məhsullarının ən yüksək daşınma həcmi isə 1970-ci ildə yerinə yetirilmişdir. Ötən əsrin 80-ci illərinin sonunda Azərbaycan dəmir yolunda yük dövriyyəsi 43 milyard ton-kilometrə çatmışdır.

Qeyd etmək lazımdır ki, keçmiş SSRİ-də dəmir yollarının elektrikləşdirilməsi 1926-cı ildə ilk dəfə olaraq Azərbaycanda başlanmış və Bakı-Sabunçu xəttində həyata keçirilmişdir.

Ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərliyə başladığı vaxtdan dəmir yoluna diqqət daha da artırılmış, bu sahədə mühüm işlər görülmüşdür. Ümumiyyətlə, respublikamızda dəmir yolunun inkişaf tarixinin böyük bir hissəsi Heydər Əliyevin adı ilə bağlıdır. Məhz ümummilli liderin qayğısı sayəsində ötən əsrin sonlarında dəmir yolu infrastrukturu öz tərəqqi zirvəsinə çatmışdır. Ulu öndər istər Azərbaycan Respublikasında, istərsə də keçmiş Sovet İttifaqında rəhbər vəzifədə çalışarkən dəmir yolunun fəaliyyətini daim diqqət mərkəzində saxlamış, onun inkişafına xüsusi önəm vermişdir. Bununla bağlı bəzi faktlara nəzər salaq: Ümummilli liderin təşəbbüsü və rəhbərliyi ilə keçmiş SSRİ-nin ən böyük çeşidləyici stansiyalarından olan Şirvan stansiyası, Yevlax-Balakən, Güzdək-Qaradağ dəmir yolu xətləri, Azərbaycan Dövlət Dəmir Yolunun öz fəaliyyətini həyata keçirməsində çox mühüm əhəmiyyət daşıyan digər dəmir yolu stansiyaları inşa edilərək istismara verilmişdir. Görülən işlərin nəticəsində dəmir yolu vasitəsilə daşınan yüklərin həcmi həmin dövrdə 80-90 milyon tona çatdırılmışdır.

Bir faktı da xatırlatmaq istərdik. Konteynerlərin təmiri üzrə Keşlə vaqon deposu Zaqafqaziyada bu sahədə ixtisaslaşdırılmış yeganə müəssisədir. 1975-ci ildə ümummilli lider Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə yaradılmış bu depo hazırda dəmir yolunun fəaliyyətində aparıcı rol oynayaraq bütün konteyner parkının əsaslı və planlı cari təmirini həyata keçirir.

Yuxarıda sadalananlarla yanaşı, 1975-79-cu illərdə Bakı elektrik dairəsində yoldəyişdirici və siqnalların mərkəzləşdirilməsi sahəsində böyük işlər görülmüş, Gəncə şəhərində texnikanın son nailiyyətlərinə uyğun müasir texnologiyalı yük vaqonlarının təmiri və istisması, habelə sutka ərzində 60 ədəd elektrovoza texniki baxış keçirmək gücündə olan Şirvan dövriyyə depoları tikilib istifadəyə verilmişdir.

Heydər Əliyev keçmiş SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində olarkən, Uzaq Sibir torpaqlarında inşa edilən Baykal-Amur Magistralı (BAM), eləcə də Azərbaycan BAM-ı adlandırılan 160 kilometr uzunluğunda və ən çətin sahədən keçən Yevlax-Balakən dəmir yolu ulu öndərin birbaşa diqqət və qayğısı ilə çəkilmişdir. Həmin xəttin tikintisi zamanı burada yeni stansiyalar, yaşayış evləri, uşaq bağçaları, məktəblər inşa edilmiş və 1985-ci ildə istifadəyə verilmişdir.

Ulu öndər ikinci dəfə respublika rəhbərliyinə gələndə Azərbaycanda təhlükəli şərait hökm sürürdü. AXC-Müsavat cütlüyünün naşı və yarıtmaz fəaliyyəti nəticəsində ölkədə vəziyyət mürəkkəbləşmişdi. Erməni faşizmi tərəfindən torpaqlarımızın işğalı şiddətlənmişdi. Hüquq-mühafizə orqanlarının üzərlərinə düşən vəzifələri həyata keçirə bilməmələri ictimai həyatın müxtəlif sahələrində hərc-mərcliyin baş alıb getməsinə, cinayətkar ünsürlərin mütəşəkkil fəaliyyətinə, silahlı qruplaşmaların cövlan etməsinə şərait formalaşdırmış, daxildə qeyri-sabit və təhlükəli vəziyyətin yaranmasına səbəb olmuşdu.

Belə bir böhranlı və ağır vəziyyətdə xalqın çıxış yolunu yenə də ulu öndər Heydər Əliyevin hakimiyyət sükanı arxasına keçməsində görməsi bu obyektiv reallıqlarla şərtlənirdi. Xalq başa düşürdü ki, yaranmış ekstremal şəraitdə ölkədə ictimai-siyasi gərginliyi aradan qaldırmaq, qanunsuz silahlı qüvvələri zərərsizləşdirmək, dövlət təsisatlarının normal fəaliyyətini təmin etmək bacarığına malik yeganə, alternativsiz lider məhz Heydər Əliyevdir!

Beləliklə, ümummilli liderin 1993-cü il iyunun 9-da xalqın təkidli tələbinə səs verərək Bakıya qayıtması onun nə qədər qətiyyətli, prinsipial, heç bir riskdən çəkinməyən, xalqının taleyinə biganə qalmayan fenomen şəxsiyyət olduğunu bir daha təsdiqləyir. Respublikada hərc-mərcliyin, xaos və anarxiyanın hökm sürdüyü, qanunsuz silahlı dəstələrin geniş fəaliyyəti, düşmənlə mübarizə apara biləcək nizami ordunun olmadığı, ərazilərimizin işğalının gündən-günə genişləndiyi, bir çox xarici dövlətlərin Azərbaycanın süqutunu arzuladığı, beynəlxalq aləmdə ölkəmizin təkləndiyi, Azərbaycanın dövlət müstəqilliyinin real təhlükə qarşısında olduğu bir vaxtda hakimiyyətə gəlib hadisələrin gedişini qısa zamanda dəyişərək normal məcraya salmaq böyük siyasi bacarıq və müdriklik tələb edirdi. Ulu öndər müstəqilliyi kövrək, mövcudluğu real təhlükə qarşısında olan Azərbaycan dövlətini bir çox daxili və xarici qəsdlərdən qorudu. Bir sıra xarici dövlətlərin maliyyə dəstəyi, diktəsi, habelə planlaşdırması ilə hazırlanıb həyata keçirilən qəsdlərin qarşısı qətiyyətlə alındı.

XX əsrin 90-cı illərinin əvvəllərində dəmir yolu sahəsi də tənəzzülə uğramışdı. Lakin ümummilli lider Heydər Əliyev iqtisadiyyatın bütün sahələrinin, eləcə də respublikanın polad şəbəkəsinin dirçəlməsini diqqət mərkəzində saxladı. Belə ki, qısa zaman ərzində dəmir yolunun idarəetmə strukturları dəyişdirildi, xidmət və şöbələrin bazasında müstəqil fəaliyyət göstərən istehsalat birlikləri, müəssisə və təşkilatlar yaradıldı. Respublikadaxili, qonşu ölkələrə sərnişin daşınmasının yüksək səviyyədə təşkili üçün yeni vaqonlar alındı, qonşu dövlətlərin dəmir yolları ilə iqtisadi əlaqələr bərpa edildi. Dəmir yolu vasitəsi ilə tranzit yüklərin daşınmasına böyük əhəmiyyət verildi.

1998-ci il yanvar ayının 4-də Dübəndi terminalının və stansiyasının açılış mərasimində ümummilli lider Heydər Əliyev iştirak etmiş, burada görülən işləri, dəmir yolunun fəaliyyətini yüksək qiymətləndirərək demişdir: "Mən bu gün burada verilən məlumatları çox məmnuniyyət hissi ilə qəbul edirəm ki, Azərbaycan Dövlət Dəmir Yolu İdarəsi buraxılmış səhvləri artıq aradan qaldırır və öz işinin keyfiyyətini yaxşılaşdırır, yaxşı iqtisadi nəticələr əldə edir. Bu, çox vacib məsələdir. Çünki dəmir yolu Azərbaycan iqtisadiyyatının böyük bir hissəsidir. Azərbaycan dəmir yolunu on illərlə yaratmışıq, onun maddi texniki bazasını qurmuşuq. Təəssüflər olsun ki,1990-cı ildən başlayaraq Azərbaycan Dövlət Dəmir Yolunda da çox şeylər dağılıbdır, itirilibdir. Yaxşı ki, indi bunların qarşısı alınır. Mən indi Azərbaycan Dövlət Dəmir Yolunda inkişafı hiss edirəm".

Burada bir həqiqəti də xatırlatmaq yerinə düşər. Hər bir ölkənin geosiyasi və geoiqtisadi mövqelərinin gücü həm də onun nəqliyyat sisteminin inkişafından asılıdır. Bu mənada dəmir yolu nəqliyyatının rolu mühüm önəm daşıyır. Başqa sözlə, milli iqtisadiyyatların qarşılıqlı asılılığının getdikcə artdığı, regionlararası və qitələrarası mal dövriyyəsi səviyyəsinin tədricən yüksəldiyi bir dövrdə dəmir yolu nəqliyyatı dövlətlərin inkişafının təkanverici elementinə çevrilməklə xüsusi əhəmiyyət kəsb edir. Buna görə də Azərbaycanda dəmir yolu sisteminin tərəqqisinin daim diqqət mərkəzində saxlanılması təsadüfi deyil, bu, prioritet istiqamətlərdən biridir.

Ulu öndərin siyasi xəttinin layiqli davamçısı, dövlət başçısı möhtərəm İlham Əliyev 2003-cü ildə Prezident seçildikdən sonra dəmir yolu sistemində də tədbirlərin həyata keçirilməsi davam etdirildi. "Azərbaycan Dəmir Yolları"nın beynəlxalq standartlara uyğun qurulması istiqamətində reallaşdırılan bir sıra mühüm islahatlar dəmir yolu infrastrukturunun inkişafını sürətləndirdi. Azərbaycanın dəmir yolu işçilərinin ölkə iqtisadiyyatının inkişafında və sosial həyatında mühüm rolu nəzərə alınaraq dövlət başçısının 2005-ci il 7 oktyabr tarixli sərəncamı ilə hər il oktyabrın 13-ü dəmir yolu işçilərinin peşə bayramı günü kimi təsis edildi.

Respublikada dəmir yolunun hərtərəfli inkişafını, iqtisadiyyatın və əhalinin daşımalara olan tələbatının daha dolğun ödənilməsini, idarəetmənin təkmilləşdirilməsini və görülən işlərin səmərəliliyinin daha da artırılmasını təmin etmək məqsədilə cənab İlham Əliyevin 2009-cu il 20 iyul tarixli sərəncamı ilə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti yaradıldı.

Bu gün inamla deyə bilərik ki, cənab İlham Əliyev tərəfindən göstərilən xüsusi diqqət və qayğı dəmir yolu sektorunun dinamik inkişafı üçün böyük imkanlar yaradıb. Dövlət başçısının respublikamıza rəhbərlik etdiyi ötən 15 il ərzində bu sahədə müsbət dəyişikliklər, mühüm uğurlar əldə olunub. Lokomotiv parkının yenilənməsi istiqamətində önəmli addımlar atılıb. Beynəlxalq maliyyə qurumları ilə "Azərbaycan Dəmir Yolları" arasında əlaqələr intensivləşib. Yük daşımalarına olan tələbatın ödənilməsi, xidmətin səviyyəsinin daha da yüksəldilməsi, əlavə yüklərin cəlb olunması və daşınan yüklərin mənzil başına təhlükəsiz çatdırılması üçün texniki vasitələrin yeniləşdirilməsi diqqət mərkəzində saxlanılıb. Bütün bunlar əlavə valyuta resurslarının Azərbaycan iqtisadiyyatına yönəldilməsi ilə nəticələnib.

Azərbaycan dəmir yolunun infrastrukturunun yeniləşdirilməsi, xidmətin səviyyəsinin daha da yüksəldilməsi istiqamətində bütün qüvvələr səfərbər edilib. Bakı Dəmir Yolu Vağzalında əsaslı yenidənqurma tədbirləri görülüb. Bakı-Sumqayıt sərnişin dəmir yolu yenidən istifadəyə verilib. İran ilə Azərbaycanın gələcək iqtisadi inkişafına böyük təkan verəcək Astara (Azərbaycan)-Astara (İran) dəmir yolu xəttinin inşası müştərək şəkildə uğurla davam etdirilib. Bölgədə Avrasiyada nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində ən önəmli layihənin- Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi tarixi hadisə kimi yaddaşlara yazılıb.

Azərbaycanın mühüm geosiyasi və geoiqtisadi üstünlüklərindən biri də onun Avropa ilə Asiyanı birləşdirən unikal nəqliyyat-kommunikasiya imkanlarına malik olmasındadır. Son dövrlərdə respublikamızın mühüm tranzit və loqistika mərkəzinə çevrilməsini təmin edəcək nəhəng layihələr həyata keçirilir. Bu, Azərbaycanın beynəlxalq ticarətdə rolunun əhəmiyyətli dərəcədə artmasını və beynəlxalq aləmdə mövqelərinin daha da möhkəmlənməsini şərtləndirir. Bununla bağlı mühüm bir məqamı da xüsusi vurğulamaq istərdik. Dövlət başçısı cənab İlham Əliyevin ölkədə bütün sahələrdə ən yüksək inkişafın təmin olunmasına xüsusi diqqət yetirməsi dəmir yolu sistemində də uğurlu perspektivlərdən xəbər verir. QSC-nin rəhbərliyində həyata keçirilən dəyişiklik bir daha göstərdi ki, cənab İlham Əliyev tərəfindən qarşıya qoyulan əsas vəzifələrdən biri dəmir yolu sistemini ölkə iqtisadiyyatının inkişafının lokomotivinə çevirməkdir.

Bir sözlə, respublika iqtisadiyyatının inkişafında çox mühüm rol oynayan Azərbaycan dəmir yolu beynəlxalq və regional layihələrdə iştirak etməklə öz infrastrukturunu qoruyub saxlayır, əhalinin, dövlət strukturlarının daşımalara olan tələbatının ödənilməsi istiqamətində fəaliyyətini uğurla davam etdirir. Ümumiyyətlə, regiona sabitlik, əmin-amanlıq və iqtisadi səmərə gətirə biləcək hər hansı layihənin reallaşmasında Azərbaycanın iştirak etməsi istənilən prizmadan yanaşanda çox gərəklidir.

**Cavid QURBANOV,**
***"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri***

1923 *Azərbaycanın özü qədər əbədi* 2018

# Ulu öndər xalqın, vətənin taleyini öz taleyinə çevirmişdi

*Əvvəli 1-ci səh.*



Mən özümü xoşbəxt insanlardan sayıram ki, Heydər Əliyevi tələbəlik illərindən tanıyıram və onun gənclərə göstərdiyi qayğının şahidiyəm. Yadımdadır, 1969-cu ildə Bakı Dövlət Universitetinin 50 illik yubileyi keçirilirdi. O zaman mən universitetin kimya fakültəsinin üçüncü kurs tələbəsi idim. Mərasimə əlaçı tələbələr də dəvət edilmişdi. İndiki Şəhriyar klubunda keçirilən tədbirdə unudulmaz Heydər Əliyev Azərbaycan dilində çox dərin məzmunlu nitqlə çıxış etdi. Bu, bizi çox heyrətləndirdi. Çünki həmin vaxtlarda ən kiçik iclaslar belə, rus dilində aparılırdı. Məhz Heydər Əliyevin o tədbirdəki çıxışı, mən deyərdim ki, tarixi bir məqam, tarixi bir nitq oldu. Biz ilk dəfə idi ki, ölkə rəhbərinin dilindən Bəhmənyar, Nəsrəddin Tusi, Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli kimi klassiklərin adını eşidirdik. Heydər Əliyev onların hər biri haqqında maraqlı fikir söyləyirdi. Açığı, Heydər Əliyevin doğma dilimizə, klassiklərimizə bu cür ehtiramla yanaşması bizə çox təsir etdi. Bəlkə də bizdə milli hisslərin, vətəndaş təəssübkeşliyinin oyanıb inkişaf etməsində məhz həmin tarixi görüşün öz yeri var. İndinin özündə də ulu öndər haqqında düşünəndə gözlərim önündə məhz həmin görüş canlanır. Qadağaların hökm sürdüyü bir dövrdə Heydər Əliyevin bu cəsarətli addımı biz gənclərin düzgün istiqamətlənməsində böyük rol oynadı.

Həmin dövrdə cəmiyyətin ən müxtəlif sahələrində nizam-intizamın, haqq-ədalətin təminatına çalışan, bunu məmurluğun formuluna çevirən ulu öndər bu yolla dövlətlə xalq arasında möhkəm mənəvi, siyasi və hüquqi bağlantıya, qarşılıqlı etimada nail olmağa çalışmışdır. Ümummilli lider qanunçuluğun, hüquq qaydalarının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirmiş, xalqın hüquqlarının əzmkar və cəfakeş müdafiəçisinə çevrilməklə, milli ruh, iradə və özünüdərk meyillərinin ictimai şüurda möhkəmlənməsinə nail olmuşdur.

Ulu öndər milli kadrların yetişdirilməsi işinə də xüsusi qayğı ilə yanaşmış, bu məqsədlə təhsilin səviyyəsinin yüksəldilməsini önə çəkmişdir. O dövrdə milli mütərəqqi fikrin və ictimai düşüncənin başlıca mərkəzi kimi çıxış etməklə flaqman ali məktəb statusunu qoruyub saxlayan, milli kadr hazırlığında əsas yükü üzərinə götürən Azərbaycan Dövlət Universitetinə diqqət və qayğının artırılması, bu təhsil ocağının fəaliyyətinin gücləndirilməsi də daim Heydər Əliyevin diqqət mərkəzində olmuşdur. Heydər Əliyev yaxşı bilirdi ki, universitet auditoriyalarında, kafedralarında işləyən, dərs deyən müəllimlər Azərbaycan xalqının mənliyinin, milli şüurunun, milli ruhunun inkişaf etdirilməsi prosesində müstəsna rol oynayırlar. O zaman azərbaycanlı gənclərin keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərində oxumağa göndərilməsi də məhz Heydər Əliyevin təşəbbüsü sayəsində baş tutdu. Bu qayğıdan bəhrələnənlərdən biri də mən oldum. Ulu öndərin köməyi ilə mən Lomonosov adına Moskva Dövlət Universitetinin kimya fakültəsinin aspiranturasına daxil oldum. Həmişə arzusunda olduğum, lakin reallaşmasına inana bilmədiyim bu hadisə mənim həyatımda çox böyük rol oynadı. Yaxşı xatırlayıram ki, Moskvada təhsil aldığımız illərdə ulu öndər bir neçə dəfə bizimlə görüşdü, qayğılarımızla maraqlandı və hər dəfə də vətən üçün ləyaqətli kadrlar olmağı tövsiyə etdi. Heydər Əliyevin bizə göstərdiyi diqqət Rusiyada təhsil alan tələbələr üçün çox önəmli oldu. Biz hər bir addımımızda məhz ümummilli liderin məsləhətlərinə əməl etməyi, onun dediyi kimi öyrənməyi, oxumağı, vətənə yüksək ixtisaslı kadr kimi qayıtmağı qarşımıza məqsəd qoymuşduq. Həyat göstərdi ki, Heydər Əliyev necə uzaqgörən və müdrik imiş. Məhz ulu öndərin təşəbbüsü sayəsində xarici ölkələrin ali məktəblərində təhsil alanlar sonralar Azərbaycana qayıdaraq xalqa, millətə ləyaqətlə xidmət etdi. Bu xidmətin isə yüksək səviyyədə olması məhz Heydər Əliyevin adı ilə bağlıdır. Çünki ulu öndər hər birimizin həm insan, həm də ixtisaslı kadr kimi formalaşmasında mühüm rol oynadı.

Ulu öndər Azərbaycan Dövlət Universitetinin 60 illik yubileyinin təşkilinin də əsas təşəbbüskarı olmuş, 1980-ci ildə keçirilmiş həmin mərasimdə iştirak edərək təbrik nitqi söyləmişdir. Sovetlər birliyi dövründə universitetin beynəlxalq əlaqələrinin genişlənməsi də məhz Heydər Əliyevin respublikada rəhbərliyə gəlişindən sonra mümkün olmuşdur. Universitet bir sıra dövlətlərin analoji ali təhsil müəssisələri ilə əməkdaşlığa başlamış, beynəlxalq əlaqələri keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Ümumiyyətlə, 1969-1982-ci illərdə Azərbaycanda humanitar və ictimai elm sahələrində böyük irəliləyişlər əldə edilmiş, dilimizin, tariximizin, folklorumuzun tədqiqi sahəsində uğurlu nəticələr qazanılmışdır. Sovet rejiminin sərt qanunlarına baxmayaraq, respublikada böyük iqtisadi, elmi və ədəbi-mədəni potensialın yaradılması da məhz bu uzaqgörən siyasətin nəticəsidir. Heydər Əliyevin yaratdığı siyasi məktəbdən dərs alan, yetişən insanlardan biri də mən oldum. Bu gün iftixar hissi keçirirəm ki, ulu öndərin mənim taleyimdə dərin izləri var.

Xalqın azadlıq idealları, XX əsrin əvvəllərindəki azərbaycançılıq, dövlətçilik dəyərləri ictimai şüurda geniş meydan tapmışdır. Milli-mənəvi şüura qayıdış çağdaş milli varlığın təsdiqi kimi reallaşmış, zəruri tarixi-mənəvi prosesə çevrilmişdir. Ötən əsrin 80-ci illərinin sonunda Azərbaycan xalqının milli "Mən"ini qorumaq üçün ayağa qalxıb ermənilərin ərazi iddialarına sərt reaksiya verməsi, ölkədə milli-azadlıq hərəkatının genişlənməsi də məhz bu möhkəm ideoloji-siyasi təmələ əsaslanmışdır.

Ümummilli liderin dövlətçilik fəlsəfəsinə görə elmə, təhsilə göstərdiyi qayğı xalqın xoşbəxt gələcəyinə qoyulan təminatlı sərmayədir. Ötən əsrin 60-cı illərində SSRİ-nin müxtəlif yerlərində oxumaq istəyənlər üçün yalnız 50 yer ayrıldığı halda, 80-ci illərin əvvəllərində bu göstərici 1000 nəfəri ötmüşdü. Bu illərdə ulu öndərin qayğı və diqqəti ilə 10 minədək azərbaycanlı gənc respublikamızdan kənarda - keçmiş İttifaqın ən nüfuzlu ali məktəblərinə təhsil almağa göndərilmişdir. Məhz həmin dövrdə prioritet istiqamətli ixtisaslara yiyələnmiş yüksək səviyyəli kadrlar bu gün Azərbaycanda hüquqi dövlət quruculuğu prosesində yaxından iştirak edirlər. Xüsusi vurğulamaq lazımdır ki, elmin, təhsilin inkişafı, milli-mənəvi dəyərlərə həssas münasibət məsələləri müstəqil Azərbaycan Respublikasına rəhbərliyi dövründə də ulu öndər Heydər Əliyevin fəaliyyətinin əsas qayəsini təşkil etmişdir.

1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gələn Heydər Əliyev təhsil sistemində baş verən boşluqları, deformasiyaları düzəltmək üçün böyük qüvvə sərf etdi. Mən çox fərəhlə qeyd edirəm ki, ulu öndər həmişə Bakı Dövlət Universitetinə xüsusi diqqətlə yanaşıb. Ölkənin problemlər içində çaxnaşmasına baxmayaraq məhz Heydər Əliyevin qayğısı sayəsində 1994-cü ildə Bakı Dövlət Universitetinin 75 illik yubileyinin yüksək səviyyədə keçirilməsi baş tutdu. Biz bu görüşə böyük ehtiram və ümidlə gəlmişdik. Həmişəki kimi Heydər Əliyev özünəməxsus müdrikliklə elmin və təhsilin qarşısında dayanan problemlər haqqında fikirlərini söylədi, çıxış yolunu göstərdi. Bir vaxt tələbəlik illərində ümummilli liderin Azərbaycan dilində necə rəvan, təmiz, səlis danışmasına təəccüblənmişdim. İndi də ulu öndərin fenomen yaddaşı, universiteti yaxından tanıması, orada çalışan professor-müəllim heyətinin potensialından xəbərdar olması məni bir daha heyrətləndirdi. Heydər Əliyevlə hər görüş bir universitet təhsilinə bərabər idi. Bu, mübaliğə deyil, həqiqətdir.

1998-ci ilin 31 avqustunda 1970-1987-ci illərdə Azərbaycandan kənarda təhsil almış mütəxəssislərin ümumrespublika toplantısındakı nitqində həmin dövrü xarakterizə edən Heydər Əliyev bir çox məqamlara toxunaraq demişdi: "Mən 1969-cu il iyulun 14-də Azərbaycana rəhbər seçiləndən sonra dərhal birinci növbədə təhsil məsələləri ilə məşğul olmağa başladım. Araşdırmalar apararkən mənə aydın oldu ki, Azərbaycandan kənarda respublikamızın özündə hazırlana bilməyən ixtisaslar üzrə ali təhsil almaq üçün respublikaya 50 nəfərlik limit verilibdir. Mən dərhal maraqlandım ki, bəs siz kimləri seçmisiniz, kimləri oxumağa göndərirsiniz? Siyahını aldım, çox təəssüfləndim. Onların əksəriyyəti azərbaycanlı deyildi. Sonrakı illərdə də bu məsələ bir az çətin idi. Bilirsiniz ki, Azərbaycanda bir çox millətlərin nümayəndələri vardır. O vaxt mən iki-üç ildən sonra hər il respublikadan kənarda oxumağa göndərilənlərin 97-98 faizinin azərbaycanlılardan ibarət olmasına nail oldum". Ümummilli lider 1982-ci ildən sonra da milli maraqlarla bağlı məsələlərdə daim əzmkarlıq göstərmiş, yüksək siyasi iradə ortaya qoymuş, mərkəzin yeritdiyi siyasətin ayrı-ayrı çalarları ilə bağlı tənqidi fikirlərini, mülahizələrini söyləmişdir. Heydər Əliyev SSRİ rəhbərliyində yüksək vəzifə tutan zamanlar da doğma vətənini, xalqını unutmamış, hər zaman Azərbaycanın mənafeyini müdafiə etmişdir.

1999-cu ilin yanvarında Heydər Əliyevin sərəncamı ilə mən Bakı Dövlət Universitetinə rektor təyin edildim. Sərəncamdan öncə ulu öndərin qəbulunda oldum və bir saata yaxın söhbət etdik. Bu ünsiyyət zamanı ümummilli liderin universiteti yaxından tanıması, burada baş verən proseslərdən ətraflı xəbərdar olması istər-istəməz adamda o təsəvvürü yaradırdı ki, ulu öndərin elə özü də universitetdə çalışır. Çünki universitetlə bağlı hər bir detalı xırdalığına qədər dərindən bilirdi. Məni universitetə rektor təyin edərkən təhsil ocağının gələcək inkişaf strategiyası haqqında elə tövsiyələr verdi ki, bu, bir elmi institutun görə biləcəyi işlərdən də çox idi.

Böyük rəhbərin dəfələrlə qeyd etdiyi kimi, universitetin başlıca məqsədi gələcəyin vətəndaşını, yüksək səviyyəli mütəxəssini yetişdirməkdən ibarətdir. "Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam" - deyən ulu öndər Heydər Əliyev BDU-ya olan rəğbətini daim büruzə verməklə yanaşı, bu ali təhsil ocağının qarşısında bir sıra məsul vəzifələr müəyyənləşdirmişdir. BDU daim dünya şöhrətli məzununun xüsusi qayğısını hiss etmiş, onun qarşıya qoyduğu ali ideyalar universitetin tələbə və professor-müəllim heyətinin əsas fəaliyyət stimulvericisinə çevrilmişdir. Bakı Dövlət Universitetinin ən zəngin, məzmunlu tarixinin şərəfli səhifələri məhz Heydər Əliyevin böyük diqqət və qayğısı sayəsində yazılmışdır. Bir faktı xüsusi vurğulamaq lazımdır ki, universitetin 1999-cu ildə 80 illik yubiley mərasiminin keçirilməsi yenə də ümummilli liderin adı ilə bağlıdır. Ümumiyyətlə, BDU-nun indiyədək keçirilmiş beş yubiley mərasiminin dördü məhz Heydər Əliyevin hakimiyyəti illərinə təsadüf edir. Bu mənada Heydər Əliyevlə Bakı Dövlət Universitetini bir-birindən ayrı təsəvvür etmək qətiyyən mümkün deyildir. Ən azı bu səbəbdən ki, universitet təhsildə də, elmin inkişafında da, maddi bazanın möhkəmləndirilməsi, yeni ixtisasların açılması sahəsində də ən möhtəşəm nailiyyətlərini məhz Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə qazanmışdır. Təsadüfi deyil ki, universitetin Böyük Elmi Şurası elmin və təhsilin inkişafında göstərdiyi qayğıya, bu təhsil ocağının şöhrətini yüksəkliklərə qaldırdığına görə, Bakı Dövlət Universitetinin 80 illik yubileyi ərəfəsində ulu öndər Heydər Əliyevə BDU-nun Fəxri doktoru diplomunu təqdim etmişdir. Böyük strateq Heydər Əliyevin Bakı Dövlət Universiteti ilə bağlı ən mühüm və unudulmaz addımlarından biri də 13 iyun 2000-ci ildə bu ali təhsil ocağına özünüidarəetmə - muxtariyyət statusunun verilməsidir. Müəyyən prinsiplər əsasında ali məktəbə belə bir statusun verilməsi onun inkişafında yeni bir mərhələnin əsasını qoymuş, təhsilin məzmun və formaca təkmilləşdirilməsini, dünya təhsil sisteminə sürətli inteqrasiyasını, eyni zamanda, beynəlxalq əlaqələrinin genişlənməsini təmin etmişdir. Xarici ölkələrin mütərəqqi təcrübəsinin universitetdə tətbiqi, tədris-tərbiyə prosesinin müasir standartlara uyğun qurulması üçün məqsədyönlü addımlar atılmışdır.

Universitetimizin 80 illik yubileyi ilə bağlı xarici ölkələrdən qonaqlar gəlmişdi. 2000-ci ilin fevral ayında ümummilli lider həmin qonaqları və BDU-nun bir qrup ziyalısını qəbul etdi. Bir daha ulu öndərin elmə, təhsilə olan böyük marağı hətta qonaqlarımızın çalışdığı universitetlər haqqında ətraflı məlumatı beynəlxalq aləmdə, elm və təhsil inteqrasiyaları haqqındakı geniş təsəvvürləri hamını heyrətləndirdi. Görüşdə Avropa, Rusiya, Ukrayna, Qırğızıstan və Türkiyənin aparıcı universitetlərinin rektorları iştirak edirdilər. Mən bir daha qürur duyuram ki, təhsil aldığım bütün ali məktəblərdən öncə Heydər Əliyev məktəbinin məzunuyam. Doğrudan da, onunla hər görüş bir elmi tapıntıya sahib olmaq qədər qiymətli idi. Tarix belə şəxsiyyətləri min ildən bir yaradır. Biz xoşbəxt nəsilik ki, taleyimizə Heydər Əliyevin adı yazılıb.

Ulu öndərin rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibində xarici ölkələrə birgə səfərdə olmuşam. 2001-ci ildə EKO-nun İranda keçirilən toplantısında iştirak edirdik. Ulu öndər Heydər Əliyevin beynəlxalq aləmdəki nüfuzunun, geniş intellektual dünyagörüşünün, insanlara qayğıkeşliyinin, diqqətinin şahidi oldum. Ulu öndərlə birlikdə belə səfərlərimiz çox olub. Hər dəfə də Heydər Əliyevin yaddaşına, hadisələri əvvəlcədən hiss etmək fəhminə, insanların daxili aləmini duymaq hissinə, bununla yanaşı, yüksək mədəniyyətinə, nüfuzlu siyasi xadim üçün tələb olunan məziyyətlərinə, həmçinin sadə adamlarla ünsiyyət qurmaq məharətinə, diqqət və qayğıkeşliyinə analoq tapa bilməmişəm. O, böyük bir dərya idi. Əgər biz bu ümmandan bir damla götürə bilmişiksə, nə qədər xoşbəxtik. O, bizə çox inanırdı. İndi elmi, ictimai və siyasi fəaliyyətimlə bu inamı doğrultmağa çalışıram. Ölkəmizdə ali məktəblər çoxdur. Amma Bakı Dövlət Universitetinin bu təhsil ocaqları sırasında xüsusi yeri var. Çünki onun məzunları arasında dünya şöhrətli bir şəxsiyyətin, siyasi xadimin, müasir Azərbaycanın memarı olan ulu öndər Heydər Əliyevin adı var!

Heydər Əliyevin qayğısını hiss edən bir insan kimi ürəyimdən keçənləri söyləməliyəm. Doğrudur, ali təhsil almaq üçün Bakı Dövlət Universitetinin kimya fakültəsini özüm seçmişdim. Dərslərimi də əla oxuyurdum. Amma mənim elmə bağlanmağımda, bu sahədə daha da inamlı addımlar atmağımda, böyük uğurlar qazanmağımda məhz ulu öndərin danılmaz xidməti var. Əgər ümummilli liderin təşəbbüsü ilə 1973-cü ildə Moskvaya aspiranturada təhsil almağa göndərilməsəydim, elmin dərin qatlarına yiyələnməsəydim, kim bilir, bəlkə də sıradan bir ziyalı idim. Amma indi adımın yanına yazılan titulları, elmi dərəcələri görəndə yalnız o böyük şəxsiyyətə - Heydər Əliyevə minnətdaram! Bu görkəmli, qayğıkeş rəhbərin diqqətini görənlər isə yüzlərlədir

Ulu öndər canlı məktəb, canlı klassika, tarixin canlı örnəyi idi. Dəmir məntiqi, parlaq zəkası, iti mühakimə qabiliyyəti, fitri istedad sayılacaq fenomenal yaddaşı, möhkəm xarakteri, ən çıxılmaz vəziyyətlərdən, mürəkkəb situasiyalardan çıxmaq bacarığı onu hamıdan fərqləndirirdi. O, anadangəlmə lider, misilsiz təşkilatçı, mükəmməl və universal şəxsiyyət idi. İctimai həyatın elə aparıcı sahəsi yox idi ki, Heydər Əliyev ona dair ən zəruri biliklərə malik olmasın. Böyük iqtisadçı kimi ölkənin sosial-iqtisadi həyatının bütün sahələri məhz onun kursu əsasında inkişaf edirdi... Hüquq nəzəriyyəçisi kimi dövlət quruculuğunun əsas yükü onun çiyinlərində idi... Usta diplomat kimi ölkəmizin dünya birliyində layiqli yer tutması onun xidmətləri idi... Böyük sərkərdə kimi müstəqil Azərbaycanın Milli Ordusunu o qurmuşdu... Milli mədəniyyətimizin, milli-mənəvi dəyərlərimizin, dilimizin, dinimizin ən böyük bilicisi kimi bu dəyərlərin həm də ən böyük hamisi o idi. Bəzən təəccüblənməmək olmur: o, bütün bunları, bunca azman fəaliyyəti balaca bir insan ömrünə necə sığışdıra bilirdi? Amma bu suala cavab var. Ulu öndərin "Xalqın, vətənin taleyi hər bir insanın öz taleyinə çevrilməlidir" kəlamında gizlənir bu cavab. Heydər Əliyev heç vaxt öz şəxsi həyatını yaşamadı. Azərbaycanın taleyini öz taleyinə çevirdi, həyatını bu xalqın, bu ölkənin yolunda şam kimi əritdi.

Heydər Əliyev Vətəni, milləti, dövləti sevməyin, ona təmənnasız xidmət etməyin canlı nümunəsi idi. Elə buna görə də hər bir azərbaycanlının qəlbini, düşüncəsini fəth edə bildi. Onun milli qürur, fəxr-fəxarət ünvanına çevrildi.

Ulu öndər Azərbaycan xalqının son bir əsrdə qurduğu üç respublika quruluşunun ikisində - XX və XXI əsrlərin ikisində də öz möhürü, silinməz izi, müstəsna xidmətləri olmuş böyük dövlət adamı idi. Məsələyə sırf tarixi-xronoloji kontekstdə baxsaq, Heydər Əliyevin həyatı və fəaliyyəti 1923-1991 (sovet dövrü) və 1991-ci ildən sonrakı (müstəqillik dövrü) illəri olmaqla iki mərhələyə bölünür. Amma bəri başdan bir vacib məsələni qeyd etməliyik: o, həyatı və fəaliyyəti boyunca hər cür siyasi-ideoloji sistem və nəzəriyyələrin fövqündə durdu. Siyasi şəraitdən asılı olmayaraq onun yalnız bir amalı vardı - azərbaycançılıq, doğma xalqına və vətəninə xidmət.

...O, Azərbaycanın simvolu idi. Azərbaycanı əksər hallarda ona görə tanıyırdılar. "Heydər Əliyev" və "Azərbaycan" - bu iki məfhum bir çox hallarda sinonim kimi işlədilirdi. Siz heç SSRİ dövrünə aid tarixi xronikaya baxmısınızmı?! O xronikada 71 illik sovet epoxasının tarixindən qırmızı xətt kimi keçən çox mühüm bir detal var: cəmi 11 nəfərdən ibarət sovet Siyasi Bürosundakı yeganə türk-müsəlman siyasət və dövlət adamının olması. Bu adam Heydər Əliyev idi...

Ulu öndərin fəaliyyətinə sovet dövrü və müstəqillik illəri kimi iki fərqli tarixi şərait nöqteyi-nəzərindən yanaşanda çox mühüm bir tarixi gerçəyi qətiyyən unutmaq və ya gözardı etmək olmaz. O da budur: Heydər Əliyev "Azərbaycan" və "azərbaycanlı" məfhumlarının sosial-siyasi statusunu dəyişdirdi. Bu məfhumların bəlli siyasi şərtlər üzündən çox vaxt alt qatlarda gizli qalan, təhrif edilən gerçək mahiyyətini üst qata çıxara, onları olduğu kimi təqdim, təmsil və tərənnüm edə bildi. Sübut kimi danılmaz bir tarixi həqiqətə nəzər salaq.

SSRİ dönəmində Azərbaycana İttifaq miqyasında ögey münasibət vardı. Bu ayrı-seçkilik ustalıqla gizlədilsə də hər halda sezilirdi. O da bu idi ki, SSRİ-nin ali dövlət mükafatlarına Azərbaycandan bir qayda olaraq sadə peşə adamlarını - pambıqçıları, baramaçıları, sağıcıları, çobanları, fəhlələri layiq görür, onları deputat seçirdilər. Bunun alt mənası vardı. Mərkəzi hakimiyyət bununla göstərmək istəyirdi ki, azərbaycanlılar elə sadəcə, təsərrüfat işlərində uğur qazanmaq gücünə malikdirlər, bundan artığına qadir deyillər.

Haqlı olaraq deyirlər ki, Heydər Əliyev Azərbaycanı yenidən qurub. O, ayağını hara basıbsa, orada torpaq çiçək açıb. Bakıda, Sumqayıtda, Gəncədə, Naxçıvanda yeni ali məktəblər, muzeylər, zavod və fabriklər, teatrlar, kitabxanalar, heykəllər... ölkəmizdəki bütün mədəni sərvətlər onun adı ilə sıx bağlıdır. Heydər Əliyev bütün həyatı boyu Azərbaycanı yeniləşdirdi, təzələdi, onun hər bir sahəsində mədəni inqilab yaratdı. Üçrəngli bayrağımız Naxçıvanda ilk dəfə salona onun səyi ilə gətirildi. Müstəqillik dövrünün yeni konstitusiyası qəbul edildi, özəlləşdirmə böyük uğurla həyata keçirildi, torpaq sahibkarlara verildi, ilkin olaraq onlara yardımlar göstərildi, neft sənayesi milliləşdirildi, Azərbaycan ədəbi dili inkişaf etdirildi, milli kadrların yetişməsi üçün münbit şərait yaradıldı və onlar dövlət qulluğuna cəlb edildi.

Ümummilli lider bütün sahələrdə dərin bir irs qoyub getmişdir. Onun siyasətinin istər ölkədə, istərsə də dünya müstəvisində öz ədəbi, öz əxlaqı vardır. Onun nitqi, insanpərvərliyi, hərəkət və davranışları unikal idi, bütün siyasətçilərə nümunə idi. O, jurnalistlərlə, şairlərlə, alimlərlə, sadə adamlarla, uşaqlarla və dövlət xadimləri ilə öz dilində danışırdı. Heydər Əliyev iqtisadi və siyasi inkişafın köklərini gözəl bilirdi. Bu biliyi Azərbaycan siyasətçilərindən əsirgəmirdi. Ulu öndər xalqın ədəbiyyatına yüksək qiymət verirdi. Heydər Əliyev və ədəbiyyat dedikdə, göz önünə XX əsrin 50-ci illərindən sonrakı dövrdə və XXI əsrin əvvəllərində ölkəmizdə baş verən ədəbi-bədii, ictimai-siyasi hadisələr gəlir. Bu hadisələrin ilk yaradıcısı və iştirakçısı ulu öndər idi.

Heydər Əliyev bütün təhsil sahələrini, o cümlədən dövlət və dövlətçiliyimizin böyük qan dövranı olan Bakı Dövlət Universitetini çox istəyirdi, orda təhsil almışdı. Universitet onun qayğısı nəticəsində dünyanın ən məşhur universitetlərindən birinə çevrilmişdi. Heydər Əliyev təhsilin və elmin potensiallığını artırmaq, dünyəvi elmlərdən, dünyəvi təhsil sistemindən bəhrələnmək siyasətini həmişə önə çəkirdi. İdmanın inkişafına göstərilən dövlət qayğısı ulu öndərin birbaşa siyasətinə daxil idi və bu gün Azərbaycanın dünya idman arenasında qazandığı uğurlarda onun müstəsna xidmətləri vardı. Ulu öndər Azərbaycanda bütün sahələri öz diqqətində saxlayırdı, veteran neftçiləri, müharibə və əmək qəhrəmanlarını daim yoxlayırdı, onları kənarda qalmağa qoymurdu, cəmiyyətin ön sıralarına çəkirdi. O, heç vaxt ordu quruculuğunu yaddan çıxarmırdı, bu sahə daim onun diqqət mərkəzində dayanırdı. Həmin qayğının nəticəsidir ki, bu gün Azərbaycanın bütün sərhədlərini qoruya biləcək milli ordumuz yaranmışdır.

Heydər Əliyevin formalaşdırdığı və inkişaf etdirdiyi azərbaycançılıq fəlsəfəsi Azərbaycanın müasir dünyada yerini və mövqeyini müəyyən etmiş, milli dövlətçiliyimizin ideya əsasını təşkil edərək, dünya azərbaycanlılarının həmrəyliyi üçün möhkəm zəmin yaratmışdır. Bu gün doğma Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, beynəlxalq nüfuzunun sürətlə artması ulu öndərin səmərəli fəaliyyəti sayəsində mümkün olmuşdur. Heydər Əliyev öz uğurlu siyasəti, qətiyyəti və əzmkarlığı ilə zəmanəmizin görkəmli siyasi xadimi kimi tanınmış, daim öz cəsarət və şücaəti ilə seçilən Azərbaycan xalqının qəlbində əvəzolunmaz bir lider kimi kök salmışdır.

Bu dahi insan Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, milli lider və xalq məhəbbətini qazanan öndər kimi qalmışdır. Xalqımızın tarixi taleyində, mənəvi, siyasi və ictimai həyatında, dövlət quruculuğunda onun qədər misilsiz xidmətlər göstərən ikinci dövlət adamı tapmaq mümkün deyildir. Bu mənada o, xalqımızın milli iftixarı, ürəklərimizdə özünə yer tapan milli liderimiz, güvənc yerimiz, qürur duyduğumuz və arxa bildiyimiz böyük azərbaycanlı idi.

Heydər Əliyev dünyanın nadir, unikal, seçilən siyasət adamı idi. O, dünya siyasətinə təsir etmək gücündə olan lider idi. Liderlər var ki, siyasi fəaliyyət, dövlət idarəetməsi sahəsində uzun illər çalışıb püxtələşdikdən sonra tanınırlar. Elə adamlar da var ki, bu, onlarda fitrən mövcuddur, genlərində kodlaşdırılıb, bir sözlə, İlahi vergidir. Buna Allahdan lider deyirlər. Heydər Əliyev məhz ikincilərdəndir. Digər vacib məqam səlahiyyət məsələsidir. Heydər Əliyev tək Azərbaycan səviyyəsində deyil, keçmiş İttifaq səviyyəsində, hətta Qərb miqyasında sözünün keçəri, urvatı olan lider idi. O, beynəlxalq səviyyədə düşünməyi və təhlillər aparmağı bacarırdı. Bu iki məqam onu həmkarlarından əhəmiyyətli dərəcədə fərqləndirən professional cizgilərdəndir.

Bu dahi insan tarixi yazan və yaradan, onu yönəltməyi və fövqündə durmağı bacaran, dövlət idarəçiliyi və siyasi təlimlər elminin müntəxəbatını öz fəaliyyəti ilə diktə edən nadir şəxsiyyətlərdən biri idi. O, təkcə güclü təsərrüfatçı deyil, həm də sözlərinin çəkisi və sanbalı olan, kütləni arxasınca aparmağı, auditoriyanı inandırmağı bacaran bir siyasi xadim idi. Heydər Əliyev mahir psixoloq, insan qəlbinin dərin bilicisi idi. Buna görə də onun gələcəyi görmək qabiliyyəti başqalarına, həmkarlarına nisbətən daha güclü idi.

Tarixi bəsirət, irəlini görmək nadir bir hissdir. Siyasi xadimlərin heç də hamısında bu hiss olmur. Təbiət bu keyfiyyəti yalnız seçilmiş adamlara - zəmanəsini çox-çox qabaqlayan görkəmli mütəfəkkirlərə verir. Nəhəng siyasətçi Heydər Əliyev kimi. O, analitik düşüncə tərzi ilə, çətin vəziyyətlərdə soyuqqanlılığını saxlamaq məharəti ilə, yüksək intellekti, dünya mədəniyyətinə bələdliyi ilə ətrafdakıları heyrətləndirirdi.

Ulu öndəri xarizmatik lider, fenomenal şəxsiyyət adlandırırlar. Müasir siyasi texnologiyalarda lider üçün xarizma məsələsi çox vacib şərt hesab edilir. Heydər Əliyev məhz güclü xarizmatik şəxsiyyət, fenomenal siyasətçi və dövlət xadimi idi. Onun ən böyük gücü dərin, həm də universal biliyində, qətiyyətində, işgüzarlığında, hökmündə, qeyri-adi yaddaşında, tükənməz səbrində, müsahibini təmkinlə dinləmək bacarığında, uzaqgörənliyində, qarşısına qoyduğu məsələni həyata keçirmək qabiliyyətində, müdrikliyində, ən böyük siyasətçi keyfiyyətlərində, mahir diplomatlığında, həmsöhbətinə təsir etmək gücünə malik olmasında idi. Xeyirxahlıq və alicənablıq, inam və etibar, təmkin və səmimiyyət, zəka, səbat, diqqət və başqa cəhətlər Heydər Əliyevin fərdi naturasının özgün çalarları idi.

Ulu öndər Heydər Əliyevin irəli sürdüyü ideyalar ötən illərdə xalqımızın inkişaf və tərəqqisində lokomotiv rolunu oynamış, onun firavan gələcəyi üçün uğurlu təməl hazırlamışdır. Bu mənada, müstəqil Azərbaycan qarşısında duran ümummilli məqsədləri dəqiq müəyyən edərək, onların gerçəkləşdirilməsi istiqamətində ardıcıl, sistemli fəaliyyət göstərən ölkə kimi dünyanın yeni iqtisadi fenomeninə çevrilmişdir. Ümumi şəkildə ifadə etsək, bu gün ölkədə həyata keçirilən siyasətin ən başlıca məqsədi modernləşmə mərhələsini də sürətlə başa vuraraq Azərbaycanı inkişaf etmiş ölkələr səviyyəsinə yüksəltmək, demokratik idealların cəmiyyətdə tam möhkəmlənməsinə nail olmaq, yeni düşüncəli vətəndaş yetişdirməkdir. Ölkənin elm və təhsil adamları, o cümlədən Bakı Dövlət Universitetinin çoxsaylı professor-müəllim heyəti ulu öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən cənab İlham Əliyevin rəhbərliyi altında daha böyük uğurlar qazanacağına, daha qüdrətli ölkəyə çevriləcəyinə ürəkdən inanırlar.

***Abel MƏHƏRRƏMOV,***
***YAP İdarə Heyətinin üzvü,***
***BDU-nun rektoru***

# Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 10, maddə 762, № 12, maddə 973; 2010, № 7, maddə 587; 2011, № 6, maddə 485, № 7, maddə 593; 2012, № 5, maddə 410; 2013, № 1, maddə 16, № 11, maddə 1267; 2016, № 1, maddə 12; 2017, № 4, maddə 522, № 5, maddə 752, № 11, maddə 1976) aşağıdakı məzmunda 38.3-cü maddə əlavə edilsin:

"38.3. İnzibati aktla (inzibati aktın qəbul edilməsindən imtina ilə) bağlı şikayət "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 73.1-ci və ya 73.2-ci maddələrində nəzərdə tutulmuş müddətlərdə müvafiq icra hakimiyyəti orqanının yaratdığı quruma verildiyi halda bu Məcəllənin 38.1-ci və 38.2-ci maddələrində nəzərdə tutulmuş iddia müddətlərinin axımı aşağıdakı vaxtadək dayandırılır:

38.3.1. müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun şikayət üzrə qəbul etdiyi qərardan (verdiyi yazılı cavabdan) şikayət verilməsi üçün "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 73.1-ci və ya 73.2-ci maddələrində nəzərdə tutulmuş müddətlər bitənədək (müvafiq icra hakimiyyəti orqanının yaratdığı quruma şikayət verilmədiyi halda);

38.3.2. müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun qərarından (yazılı cavabından) müvafiq icra hakimiyyəti orqanının yaratdığı quruma şikayət verildiyi halda isə həmin qurumun şikayət üzrə qəbul etdiyi qərar (verdiyi yazılı cavabı) şikayətçiyə təqdim edilənədək.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 aprel 2018-ci il*

# "Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1065-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 30 oktyabr tarixli 177 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1065-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. "Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 30 oktyabr tarixli 177 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 10, maddə 790) aşağıdakı məzmunda 2.1-1-ci, 2.1-2-ci və 2.1-3-cü bəndlər əlavə edilsin:

"2.1-1. həmin məcəllənin 38.3-cü maddəsinin birinci abzasında, 38.3.1-ci (hər iki halda) və 38.3.2-ci (hər iki halda) maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.1-2. həmin məcəllənin 38.3-cü maddəsinin birinci abzasında, 38.3.1-ci (birinci halda) və 38.3.2-ci (birinci halda) maddələrində "qurum" dedikdə Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarının apelyasiya şuraları nəzərdə tutulur;

2.1-3. həmin məcəllənin 38.3.1-ci (ikinci halda) və 38.3.2-ci (ikinci və üçüncü halda) maddələrində "qurum" dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Apelyasiya Şurası nəzərdə tutulur;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 may 2018-ci il*

# Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişikliklər edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 13-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 838; 2014, № 7, maddələr 766, 787, № 10, maddə 1165; 2015, № 5, maddə 503; 2016, № 11, maddə 1773, № 12, maddə 2010; 2017, № 5, maddə 755, № 6, maddə 1019, № 6, maddə 1043; Azərbaycan Respublikasının 2018-ci il 1 fevral tarixli 982-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 48.1-ci maddənin birinci cümləsində "yaşayış evlərinin" sözləri "tikinti obyektlərinin" sözləri ilə əvəz edilsin.

2. 75.10-cu maddədə "10 gün" sözləri "3 iş günü" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 aprel 2018-ci il*

# "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1059-VQD nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1059-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 may 2018-ci il*

# "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 27-ci bəndlərini rəhbər tutaraq, "Kredit büroları haqqında" Azərbaycan Respublikasının 2016-cı il 28 oktyabr tarixli 384-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

"Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 2, maddə 72; 2013, № 7, maddə 789; 2014, № 10, maddə 1160; 2016, № 3, maddə 407, № 4, maddə 641; 2017, № 12, I kitab, maddə 2228) 22-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

**"Maddə 22. Mərkəzləşdirilmiş kredit reyestri və kredit büroları ilə BOKT arasında məlumat mübadiləsi**

22.1. BOKT hər bir borcalan haqqında məlumatı maliyyə bazarlarına nəzarət orqanının müəyyən etdiyi qaydada maliyyə bazarlarına nəzarət orqanında yaradılan Mərkəzləşdirilmiş kredit reyestrinə verməlidir.

22.2. BOKT tərəfindən borcalanları barədə məlumatın kredit bürosuna təqdim edilməsi və kredit bürosundan alınması qaydası "Kredit büroları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 aprel 2018-ci il*

# "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1052-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1052-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikası Qanununun 22.1-ci maddəsinə uyğun olaraq, bank olmayan kredit təşkilatlarının borcalanları haqqında məlumatın mərkəzləşdirilmiş kredit reyestrinə verilməsi qaydasını iki ay müddətində müəyyən etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 may 2018-ci il*

# "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin 1-ci hissəsinin 27-ci bəndini rəhbər tutaraq, "Kredit büroları haqqında" Azərbaycan Respublikasının 2016-cı il 28 oktyabr tarixli 384-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

"Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 3, maddə 130; 2005, № 4, maddə 276; 2007, № 5, maddə 401, № 6, maddə 562, № 11, maddə 1070; 2008, № 11, maddə 960; 2009, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 4, maddə 276, № 10, maddə 839; 2011, № 7, maddə 590; 2013, № 7, maddə 790; 2014, № 7, maddə 772, № 12, maddə 1517; 2015, № 11, maddə 1262; 2016, № 3, maddə 406, № 6, maddə 975; 2017, № 4, maddə 521, № 11, maddə 1956, № 12, maddə 2227; 2018, № 1, maddə 33) aşağıdakı dəyişikliklər edilsin:

1. 3.3-cü maddədə "maddələri, 35.4-cü maddənin üçüncü abzası və 42-ci maddəsi" sözləri ", 35.4-cü və 42-ci maddələri" sözləri ilə əvəz edilsin.

2. 35.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"35.4. Banklar hər bir borcalan haqqında məlumatı maliyyə bazarlarına nəzarət orqanının müəyyən etdiyi qaydada maliyyə bazarlarına nəzarət orqanında yaradılan mərkəzləşdirilmiş kredit reyestrinə verməlidir. Mərkəzləşdirilmiş kredit reyestrində toplanan məlumatlara bank sirrinin bu qanunla müəyyən olunmuş qorunması qaydaları şamil olunur.

Banklar tərəfindən borcalanları barədə məlumatın kredit bürosuna təqdim edilməsi və kredit bürosundan alınması qaydası "Kredit büroları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.".

3. 36.1-ci maddəyə "normativ" sözündən sonra "xarakterli" sözü əlavə edilsin.

4. 41.2-ci maddənin birinci abzasına aşağıdakı məzmunda beşinci cümlə əlavə edilsin:

"Borcalanlar barədə məlumat kredit bürolarına "Kredit büroları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada verilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 aprel 2018-ci il*

# "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1050-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1050-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 35.4-cü maddəsinin birinci bəndinə uyğun olaraq, bankların borcalanları haqqında məlumatın mərkəzləşdirilmiş kredit reyestrinə verilməsi qaydasını iki ay müddətində müəyyən etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 may 2018-ci il*

# "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 603; 2006, № 6, maddə 482; 2007, № 8, maddə 745; 2008, № 3, maddə 154; 2009, № 12, maddə 948; 2011, № 11, maddə 983; 2012, № 6, maddə 509, № 7, maddə 668, № 11, maddə 1053; 2013, № 6, maddələr 607, 623, № 7, maddə 791, № 12, maddə 1484; 2014, № 1, maddə 7, № 2, maddə 97, № 6, maddələr 597, 604; 2015, № 3, maddə 255; 2016, № 4, maddə 645, № 6, maddə 990, № 7, maddə 1244, № 11, maddələr 1770, 1775; 2017, № 5, maddə 738, № 6, maddə 1037, № 10, maddə 1772, № 11, maddə 1954, № 12, I kitab, maddə 2235; Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 999-VQD və 1000-VQD nömrəli qanunları) 8.0.10.2-ci maddəsində "yaşayış evləri" sözləri "tikinti obyektləri" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 aprel 2018-ci il*

# "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1061-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1061-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 may 2018-ci il*

# "Kredit büroları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin 1-ci hissəsinin 10-cu və 27-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Kredit büroları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 1997) aşağıdakı dəyişikliklər edilsin:

1. 6.3-cü maddənin birinci cümləsinə "12.3-cü maddəsində nəzərdə tutulmuş" sözlərindən sonra "neqativ məlumatları təqdim edən" sözləri əlavə edilsin.

2. 12-ci maddə üzrə:

2.1. 12.4.1-ci maddədə "12.3-cü maddəsində nəzərdə tutulmuş məlumat təchizatçıları tərəfindən və bu qanunun 23.2-ci maddəsində nəzərdə tutulmuş halda" sözləri "12.2.5-ci maddəsində nəzərdə tutulmuş məlumat təchizatçıları tərəfindən və bu qanunun 23.2-ci maddəsində nəzərdə tutulmuş halda məlumatların, 12.3-cü maddəsində nəzərdə tutulmuş məlumat təchizatçıları tərəfindən" sözləri ilə əvəz edilsin;

2.2. 12.5-ci maddənin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Bu qanunun 12.1-ci və 12.2-ci (12.2.5-ci maddəsi istisna olmaqla) maddələrində nəzərdə tutulmuş məlumat təchizatçıları kredit tarixçəsinin subyekti barədə neqativ və pozitiv məlumatları onun razılığını almaqla (bu qanunun 23.2-ci maddəsində nəzərdə tutulmuş halda istisna olmaqla) kredit bürosuna təqdim edirlər.".

3. 13-cü maddə üzrə:

3.1. 13.3.1-ci maddədə "alınmasına" sözü "alınması və bu qanunun 23.3-1-ci maddəsində nəzərdə tutulmuş halda" sözləri ilə əvəz edilsin;

3.2. 13.2.3-cü maddədə "müvafiq qanunla müəyyən edilmiş hallarda və qaydada" sözləri "icraatlarında olan işlərlə əlaqədar" sözləri ilə, "müqavilələrin" sözü "müqavilələrinin" sözü ilə əvəz edilsin.

4. 14-cü maddə üzrə:

4.1. 14.0.1-ci maddədə "12.3-cü maddəsində nəzərdə tutulmuş məlumat təchizatçıları tərəfindən və bu qanunun 23.2-ci maddəsində nəzərdə tutulmuş halda" sözləri "12.2.5-ci maddəsində nəzərdə tutulmuş məlumat təchizatçıları tərəfindən və bu qanunun 23.2-ci maddəsində nəzərdə tutulmuş halda məlumatların, 12.3-cü maddəsində nəzərdə tutulmuş məlumat təchizatçıları tərəfindən" sözləri ilə əvəz edilsin;

4.2. 14.0.2-ci maddəyə ikinci halda "alınmasına" sözündən sonra "və bu qanunun 23.3-1-ci maddəsində nəzərdə tutulmuş halda" sözləri əlavə edilsin.

5. 15-ci maddə üzrə:

5.1. 15.5-ci maddədə "maddələrinə" sözü "maddələrində" sözü ilə əvəz edilsin;

5.2. 15.7-ci maddədən "(o cümlədən bu qanunun 23.2-ci maddəsində nəzərdə tutulmuş halda)" sözləri çıxarılsın.

6. 16.1-ci maddə üzrə:

6.1. 16.1.5-ci maddədə "gündən" sözü "günündən" sözü ilə əvəz edilsin;

6.2. 16.1.10-cu maddədə "müqavilələrdən" sözü "müqavilələrindən" sözü ilə əvəz edilsin.

7. 21-ci maddə üzrə:

7.1. 21.1-ci maddənin ikinci cümləsi çıxarılsın;

7.2. 21.4-cü maddəyə "nəzarət orqanı" sözlərindən sonra ", notariuslar" sözü əlavə edilsin.

8. 22.5-ci maddədə "düzgün olmayan məlumatı kredit bürosuna təqdim etdikdə və ya həmin məlumatı vaxtında yeniləmədikdə" sözləri "aidiyyəti məlumatı vaxtında yeniləmədikdə və ya düzgün olmayan məlumatı kredit bürosuna təqdim etdikdə" sözləri ilə əvəz edilsin.

9. 23-cü maddə üzrə:

9.1. 23.1-ci maddədə "iki" sözü "üç" sözü ilə əvəz edilsin;

9.2. 23.2-ci maddədən "neqativ" sözü çıxarılsın;

9.3. 23.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"23.3. Mərkəzləşdirilmiş kredit reyestrindən məlumatın verilməsi aşağıdakı qaydada dayandırılır:

23.3.1. məlumat istifadəçilərinə - 2018-ci il aprelin 1-dən;

23.3.2. kredit bürolarına - bu qanunun 23.1-ci maddəsində göstərilmiş müddət bitdiyi gündən (müvafiq icra hakimiyyəti orqanının qərarı ilə kredit bürolarına məlumatın verilməsi bərpa edilir və yenidən dayandırılır).";

9.4. aşağıdakı məzmunda 23.3-1-ci maddə əlavə edilsin:

"23.3-1. Kredit təşkilatları aralarında hüquq münasibətləri 2018-ci il aprelin 1-dək yaranmış cari borcalanlar olan kredit tarixçəsi subyektlərinin kredit hesabatını onların razılığı alınmadan əldə edə bilərlər.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 aprel 2018-ci il*

# "Kredit büroları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1051-VQD nömrəli Qanununun tətbiqi və "Kredit büroları haqqında" Azərbaycan Respublikasının 2016-cı il 28 oktyabr tarixli 384-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 7 dekabr tarixli 1145 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Kredit büroları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1051-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Kredit büroları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Kredit büroları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. "Kredit büroları haqqında" Azərbaycan Respublikasının 2016-cı il 28 oktyabr tarixli 384-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 7 dekabr tarixli 1145 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2063) 2.1-ci bəndində "maddələrində və 23.3-cü maddəsinin ikinci cümləsində" sözləri "və 23.3.2-ci maddələrində" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 may 2018-ci il*

# "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 480; 2014, № 7, maddə 773) 13.2-1-ci maddəsində "Azərbaycan Respublikası ilə digər dövlətlər arasında bağlanmış" sözləri "Vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan Azərbaycan Respublikasının tərəfdar çıxdığı" sözləri ilə əvəz edilsin və həmin maddədən "birbaşa və ya" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 aprel 2018-ci il*

# "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1066-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1066-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 may 2018-ci il*

# "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 2; 2007, № 5, maddə 436; 2008, № 5, maddə 348; 2009, № 10, maddə 768; 2010, № 5, maddə 374; 2011, № 4, maddə 263; 2012, № 6, maddə 505; 2014, № 6, maddə 617; 2016, № 12, maddə 1992) 56-cı maddəsinin 1-ci hissəsinin ikinci abzasında "müraciəti alan gündən bir ay müddətində" sözləri "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 75-ci maddəsi ilə müəyyən edilmiş qaydada" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 aprel 2018-ci il*

# "Azərbaycan Respublikasından Avropa İttifaqı ölkələrinə yeyinti məhsullarının ixracının tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 aprel tarixli 218 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasından Avropa İttifaqı ölkələrinə yeyinti məhsullarının ixracının tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 aprel tarixli 218 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 293; 2006, № 5, maddə 401; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci hissə aşağıdakı redaksiyada verilsin:

"1. Müəyyən edilsin ki, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi Avropa İttifaqı ölkələrinə ixrac edilən qida məhsullarının təhlükəsizlik meyarları üzrə ekspertizasının keçirilməsi, həmin ekspertizanın nəticələrinə uyğun olaraq onlara təsdiqedici kod nömrələrinin və ixracatçılara ekspertizanın nəticələrini təsdiq edən sənədlərin verilməsi, qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlərin qeydiyyatı və dövlət reyestrinin aparılması fəaliyyətini həyata keçirən, habelə Avropa İttifaqının bu sahədə müvafiq tələblərinin icrasını təmin edən vahid səlahiyyətli orqandır.";

1.2. 3-cü hissədə "İqtisadiyyat Nazirliyinin" sözləri "Qida Təhlükəsizliyi Agentliyinin" sözləri ilə əvəz edilsin.

2. Bu fərman 2018-ci il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 may 2018-ci il*

# "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1063-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1063-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 may 2018-ci il*

# İlham Əliyevin prezidentliyi dövrünün ilk 10 ilinə işıq salan fundamental nəşr

*Əsrə bərabər on il. "Prezident İlham Əliyev: dinamik inkişafın 10 ili" ikicildliyinin naşirləri 2003-2013-cü illəri belə səciyyələndirirlər*




Nəfis tərtibatla nəşr olunmuş "Prezident İlham Əliyev: dinamik inkişafın 10 ili" ikicildliyi oxucuların ixtiyarına verilib. AZƏRTAC xəbər verir ki, monumental nəşrdə müstəqil Azərbaycanın memarı və qurucusu ulu öndər Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin xalqa sədaqəti, dövlətin müdafiə qüdrətinin yüksəlməsi və dövlətçiliyin möhkəmlənməsi, milli müstəqilliyin əbədiyaşarlığı uğrunda apardığı mübarizənin unudulmaz səhifələri öz əksini tapıb.

Layihənin ideya rəhbəri Azərbaycan Respublikası Ağsaqqallar Şurasının sədri Fəttah Heydərovdur. Professor Teymur Əhmədovun tərtib etdiyi, tədqiqatçı alim İradə Ələsgərovanın redaktoru olduğu kitabda Azərbaycan Prezidenti İlham Əliyevin 2003-2013-cü illərdə həyata keçirdiyi daxili və xarici siyasət, xarici ölkələrə rəsmi səfərləri, dövlət başçıları, beynəlxalq təşkilatların rəhbərləri və nümayəndə heyətləri ilə çoxsaylı görüşləri, kütləvi informasiya vasitələrinə müsahibələri, nitqləri, çıxış və bəyanatları xronoloji ardıcıllıqla əks olunub.

Kitabın həmin dövrə həsr edilməsi təsadüfi deyil. Azərbaycanın bugünkü inkişaf və yüksəlişinin təməli məhz həmin illərdə qoyulub. Bu tarixi uğurları dəyərləndirən dövlət başçısı İlham Əliyev nitq və çıxışlarında dəfələrlə vurğulayıb ki, bizim iqtisadi göstəricilərimizin, inkişafımızın dünya miqyasında bənzəri yoxdur: "10 ilin yekunlarına baxmaq kifayətdir. Azərbaycanda yaşanan inkişaf dünyada çox nadir hallarda müşahidə edilir, həm siyasi-iqtisadi, həm energetika, mədəniyyət sahələrində...".

Yeri gəlmişkən qeyd edək ki, Prezident İlham Əliyevin 2003-2013-cü illərdəki fəaliyyəti AZƏRTAC-ın materiallarına və Prezident Kitabxanasına istinadla "Respublika" qəzetində xronoloji ardıcıllıqla on il mütəmadi işıqlandırılıb. Yəqin ki, ikicildliyin sanballı alınmasını şərtləndirən əsas amillərdən biri də budur.

İkicildliyi vərəqlədikcə 10 il ərzində ölkəmizdə qazanılan uğurların, reallaşdırılan layihələrin miqyası heyrət doğurur. 2003-2013-cü illərdə Azərbaycan dünyada ən sürətli templərlə inkişaf edən ölkə olub. İqtisadiyyat 3,4 dəfə artıb. Həmin müddətdə heç bir digər ölkə, hətta inkişaf etmiş ölkələr belə bu qədər iqtisadi artıma nail olmayıb. Uğurların başlıca səbəbi aparılan islahatlar, ölkədə hökm sürən sabitlik, ictimai asayişin təmin edilməsidir. Digər tərəfdən, iqtisadi islahatlar siyasi islahatlarla tamamlanıb. Bütün bunları nəşrdə toplanan materiallardan tam və aydın şəkildə görmək mümkündür.

Bu gün Azərbaycan təkcə regionda deyil, həm də dünyada söz və nüfuz sahibidir. Ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artmasında iqtisadi potensialın güclənməsi ilə bərabər, Prezident İlham Əliyevin məntiqli praqmatik siyasəti və lider kimi şəxsi keyfiyyətləri böyük rol oynayır. Bu uzaqgörən siyasi kursun nəticəsidir ki, regionda Azərbaycanın iştirakı olmadan hər hansı bir layihəni həyata keçirmək, iqtisadi proqramı reallaşdırmaq qeyri-mümkündür. Cənubi Qafqaz iqtisadiyyatında dörddəüç paya malik olan Azərbaycan hazırda regional lider, mühüm geosiyasi oyunçu və beynəlxalq nüfuzu daim artan ölkədir. Təhlilçilərin də qeyd etdiyi kimi, bu böyük uğurların arxasında ulu öndərin əsasını qoyduğu inkişaf strategiyasının müasir dövrümüzdə dövlət başçısı tərəfindən davamlı inkişaf etdirilməsi və qlobal siyasətin tələbinə əsasən yeni çalarlarla zənginləşdirilməsi dayanır.

Bütün bunlar haqqında "Prezident İlham Əliyev: dinamik inkişafın 10 ili" ikicildliyindəki ayrı-ayrı bölmələrdən geniş məlumatlar əldə etmək olar.

"CBS Poliqrafik production" nəşriyyatında çap edilən ikicildlik zəngin kitab mədəniyyəti ənənələrini özündə birləşdirir və yüksəksəviyyəli poliqrafik icrası ilə diqqət çəkir. Kitab oxucuda bu 10 ildə görülmüş işlərin həqiqi miqyası, dövlət başçısının yürütdüyü uzaqgörən siyasət barədə aydın təsəvvür yaradır. İkicildliyin hazırlanmasında başlıca məqsəd də elə budur.

2003-2013-cü illərin xronikasını nəfis tərtibatla oxucunun diqqətinə çatdıran bu yeni nəşr bir daha təsdiqləyir ki, əsrə bərabər bu 10 il milli inkişaf strategiyasının reallaşmasına, əhalinin sosial rifahının yüksəldilməsinə, ölkəmizin beynəlxalq nüfuzunun artmasına, iqtisadi təhlükəsizliyin, milli maraqların və sabitliyin təmin olunması istiqamətində tədbirlərin gələcək illərdə də uğurla həyata keçirilməsinə, müstəqilliyimizin əbədiyaşarlığına etibarlı təməl olub.

Azərbaycan Prezidenti İlham Əliyevin ictimai-siyasi fəaliyyətinə həsr olunmuş bu ikicildlik ölkənin sosial-iqtisadi inkişafı, daxili və xarici siyasəti ilə maraqlanan geniş oxucu auditoriyası, politoloq və tədqiqatçılar üçün son dərəcə dəyərli məlumat mənbəyidir.

Bu fundamental nəşri, eyni zamanda, xalqın iradəsi ilə növbəti müddətə Prezident seçilməsi münasibətilə dövlət başçısı İlham Əliyevə mətbuat işçilərinin özünəməxsus təbriki kimi də səciyyələndirmək olar.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə səmimi təbriklərimi çatdırır və ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

Alman Kiçik və Orta Müəssisələr Assosiasiyası zati-alinizin rəhbərliyi ilə Azərbaycanda siyasi sabitlik, rifah və iqtisadiyyatın bütün sahələrində daha dinamik inkişaf görür.

İcazə verin, prezident seçkilərində qazandığınız qələbə münasibətilə Sizi bir daha təbrik edim. Bu xoş fürsətdən istifadə edərək ölkənizin davamlı inkişafı, xalqınızın xoşbəxtliyi və rifahı üçün ən xoş arzularımı zati-alinizə çatdırmaq istərdim.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Markus JERGER,***
***Alman Kiçik və Orta Müəssisələr Assosiasiyasının baş direktoru***

# "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 noyabr tarixli 1691 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 noyabr tarixli 1691 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, N 11, maddə 2030, N 12 (I kitab), maddə 2330) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin fərmanla təsdiq edilmiş "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası" üzrə:

1.1.1. 2.1.6-cı yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.1.6. faiz subsidiyası - bu Qaydaya uyğun olaraq yalnız sahibkarların müvəkkil banklardan manatla aldıqları kreditlərə Fondun zəmanət verdiyi təqdirdə həmin kreditlər üzrə hesablanmış faizlərin bir hissəsinin ödənilməsi üçün dövlətin əvəzsiz verdiyi maliyyə vəsaiti;";

1.1.2. 3.2.5-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.2.5. borcalanın bank hesabları üzərində məhkəmənin qərarı ilə, habelə qanunla müəyyənləşdirilmiş və ya bankla borcalan arasında müqavilədə nəzərdə tutulmuş hallarda pul vəsaitinin silinməsinə dair müvafiq sərəncam olduqda;";

1.1.3. 4.1.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"4.1.2. bir borcalanın bütün müvəkkil banklar üzrə zəmanət verilən cəmi kreditlərinin məbləği 5 000 000 (beş milyon) manatdan, bir-biri ilə əlaqədar borcalanlar qrupunun bütün müvəkkil banklar üzrə zəmanət verilən cəmi kreditlərinin məbləği isə 10 000 000 (on milyon) manatdan çox olmamalı;";

1.1.4. 4.2.1-ci yarımbənddə "500 000 (beş yüz min)" sözləri "3 000 000 (üç milyon)" sözləri ilə əvəz edilsin;

1.1.5. 4.2.2-ci yarımbənddə "750 000 (yeddi yüz əlli min)" sözləri "6 000 000 (altı milyon)" sözləri ilə əvəz edilsin;

1.1.6. 5.1.1-ci yarımbənddən "bankın faiz subsidiyası həcmində ödənişləri həmin borcalana ödəmək və ya" sözləri çıxarılsın;

1.1.7. 5.1.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"5.1.2. zəmanət üzrə öhdəliyin icra edilməsi üçün borcalana qarşı tələb hüququnu Fondun əldə etməsi.";

1.1.8. 5.2.1-ci yarımbənddə "borcalan" sözündən sonra "zəmanət tələb olunan" sözləri əlavə edilsin, "yazılı" sözü "Elektron hökumət" portalında olan "Elektron ipoteka və kredit zəmanət" sistemi (bundan sonra - elektron sistem) vasitəsilə" sözləri ilə əvəz edilsin;

1.1.9. 5.2.2-ci yarımbəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu qərar müvəkkil bank tərəfindən elektron sistemdə yerləşdirilir;";

1.1.10. 5.2.3-cü yarımbənddə və 5.5-ci bənddə "yazılı" sözü "elektron sistem vasitəsilə" sözləri ilə əvəz edilsin;

1.1.11. 5.2.4-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"5.2.4. müvəkkil bank zəmanət üçün müraciət etdikdə, müvafiq sənədləri elektron sistem vasitəsilə Fonda təqdim edir. Hər hansı sənəd üzrə məlumatların elektron sistem vasitəsilə alınması mümkün olmadıqda, borcalan həmin sənədi müvəkkil banka təqdim etməlidir. Müvəkkil bank təqdim olunmuş sənədin surətini elektron sistemdə həmin gün yerləşdirməlidir. Təqdim olunan sənədlər aşağıdakılardır:";

1.1.12. 5.2.4-cü yarımbəndin on üçüncü abzasının sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və 5.2.5-ci yarımbənd ləğv edilsin;

1.1.13. 5.3-cü bənddə "səlahiyyətli orqanı" sözləri "İdarə Heyəti" sözləri ilə əvəz edilsin;

1.1.14. 5.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"5.4. Fond zəmanətin verilməsi üzrə müvəkkil bankın müraciəti ilə bağlı 10 (on) iş günü müddətində qərar qəbul edir və bu qərar elektron sistemdə yerləşdirilir.";

1.1.15. 5.6-cı bənddə ikinci halda "və" sözü "və ya" sözləri ilə, "yazılı" sözü "elektron sistem vasitəsilə" sözləri ilə əvəz edilsin;

1.1.16. 5.7-ci bəndin birinci və ikinci cümlələri aşağıdakı redaksiyada verilsin:

"5.7. Fondun qərarı müsbət olduqda, 3 (üç) iş günü müddətində müvəkkil banka zəmanətlə bağlı yazılı məlumat təqdim edilir və bu qərar elektron sistemdə yerləşdirilir. Zəmanətlə bağlı məlumat müvəkkil bank və müştəri arasında bağlanan kredit müqaviləsində qeyd olunur və zəmanət kredit müqaviləsinin imzalandığı tarixdən qüvvəyə minir.";

1.1.17. 5.8-ci bəndə "təqdim edilir" sözlərindən sonra "və elektron sistemdə yerləşdirilir" sözləri əlavə edilsin;

1.1.18. 8.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"8.2. Hər bir müraciət üçün müvəkkil bank tərəfindən zəmanət məbləğinin 0.1%-i (maksimum 50 (əlli) manat) həcmində xidmət haqqı ödənilir.";

1.1.19. 8.5-ci bənd aşağıdakı redaksiyada verilsin:

"8.5. Birdəfəlik komissiya zəmanətin qüvvəyə mindiyi tarixə olan məbləği üzrə hesablanır. İllik komissiya isə zəmanətin qüvvədə olduğu müddətdə gündəlik əsasda zəmanətin qalıq məbləğinə hesablanır və aylıq qaydada ödənilir. Birdəfəlik və illik komissiyaların, habelə xidmət haqqının ödənilməsi qaydası müvəkkil bank və Fond arasında bağlanmış çərçivə müqaviləsi ilə tənzimlənir.";

1.1.20. 8.6-cı bəndin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"8.6. Müvəkkil bank hər ay üzrə birdəfəlik və illik komissiya, habelə xidmət haqqı barədə hesabatını həmin aydan sonrakı 5 (beş) iş günü müddətində elektron sistem vasitəsilə Fonda təqdim edir.";

1.1.21. 8.7-ci bənd ləğv edilsin;

1.1.22. 9.5-ci bənd aşağıdakı redaksiyada verilsin:

"9.5. Fond, bu Qaydanın 9-cu və 10-cu hissələrində göstərilənləri nəzərə almaqla, tələbin daxil olduğu tarixdən etibarən 5 (beş) iş günündən gec olmayaraq zəmanətin ödənilməsi ilə bağlı qərar verir və müvəkkil banka bu barədə yazılı bildiriş göndərir. Bildiriş əsasında müvəkkil bank 3 (üç) iş günü müddətində borcalana münasibətdə zəmanət verilmiş kredit üzrə tələb hüquqlarını tam həcmdə tələbin güzəşti müqaviləsi və ya adlı qiymətli kağız üzrə indossament yolu ilə Fonda güzəşt edir.";

1.1.23. 9.6-cı bəndə aşağıdakı məzmunda birinci cümlə əlavə edilsin:

"Tələb hüquqları Fonda güzəşt edildikdən sonra Fond 3 (üç) iş günü müddətində zəmanət üzrə ödənişi müvəkkil bankın hesabına köçürür.";

1.1.24. 9.9-cu bənddə "çərçivə müqaviləsi" sözlərindən sonra "qanunla müəyyən edilmiş hallarda" sözləri əlavə edilsin və bənddən "müvəkkil banka" sözləri çıxarılsın;

1.1.25. 9.10-cu bənddə "tələb hüququ müvəkkil banka keçir" sözləri "zəmanət verilmiş kredit üzrə tələb hüququnu müvəkkil banka geri qaytarır" sözləri ilə əvəz edilsin;

1.1.26. 10.1-ci və 10.2-ci bəndlərdə "yığımlar" sözü "Fonda daxil olan vəsaitlər" sözləri ilə əvəz edilsin;

1.1.27. 10.5-ci bənd aşağıdakı redaksiyada verilsin:

"10.5. Müvəkkil banka yeni zəmanət verilməsi bu Qaydanın 10.3.1-10.3.3-cü yarımbəndlərində nəzərdə tutulmuş hallar aradan qalxdıqda, 10.3.4-cü yarımbənddə qeyd edilən halın baş verməsindən isə 3 (üç) ay keçdikdə yenidən bərpa olunur.";

1.1.28. 10.6.1-ci yarımbəndin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"10.6.1. müvəkkil bankın həmin kredit üzrə zəmanətin ləğv edilməsi barədə elektron sistem vasitəsilə müraciəti olduqda və ya zəmanət verilməsinə görə ödəmə vaxtı çatmış xidmət haqları və komissiyaların ödənişi 1 (bir) aydan çox gecikdirildikdə.";

1.1.29. 10.6.3-cü yarımbənddə "şərtləri" sözündən sonra "Fondun müəyyən etdiyi formaya uyğun olmadıqda və ya" sözləri əlavə edilsin;

1.1.30. 10.6.4-cü yarımbəndə "müvəkkil bank" sözlərindən sonra "kredit müqaviləsinə uyğun olaraq" sözləri əlavə edilsin;

1.1.31. 10.6.5-ci yarımbənddə "aşkarlandıqda" sözü "və ya zəmanət verilmiş kreditin təyinatı üzrə istifadə edilməməsinə şərait yaratdığı aşkarlandıqda və bu, məhkəmə qərarı ilə təsdiq edildikdə" sözləri ilə əvəz edilsin;

1.1.32. 10.7-ci bənd aşağıdakı redaksiyada verilsin:

"10.7. Müvəkkil bankla bağlanmış çərçivə müqaviləsi həmin müqavilədə nəzərdə tutulmuş hallarda yalnız qarşılıqlı öhdəliklər tam icra edildikdən sonra ləğv edilə bilər.";

1.1.33. 10.9-cu bənddən "rüblük əsaslarla" sözləri çıxarılsın;

1.1.34. 10.10-cu bənd ləğv edilsin;

1.1.35. 11.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"11.1. Fondun Himayəçilik Şurası hər bir müvəkkil bank üzrə zəmanətin maksimum limitinin (bundan sonra - limit) müəyyənləşdirilməsi qaydasını təsdiq edir.";

1.1.36. 11.2-ci bənddə "sifarişlərini" sözü "müraciətlərini" sözü ilə əvəz edilsin;

1.1.37. 11.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

"11.3. Fondun İdarə Heyəti hər bir müvəkkil bank üzrə limiti aşağıdakılar nəzərə alınmaqla Fondun Himayəçilik Şurası tərəfindən təsdiq olunmuş daxili təsnifləşdirmə modelinə əsasən müəyyən edir:";

1.1.38. 11.11-ci bənd aşağıdakı redaksiyada verilsin:

"11.11. Çərçivə müqaviləsi ləğv edildikdə həmin bank üzrə ayrılmış limitin istifadə olunmamış hissəsi bu Qaydanın 11.7-ci bəndinə müvafiq olaraq digər müvəkkil banklar arasında bölüşdürülür.";

1.1.39. 12.1-ci bənddə "Cəmiyyətin" sözü "Fondun" sözü ilə, "Cəmiyyət" sözü isə "Fond" sözü ilə əvəz edilsin;

1.1.40. 13-cü hissənin adı aşağıdakı redaksiyada verilsin:

**"13. Zəmanətə görə ödəniş edilmiş kredit üzrə daxil olan vəsaitlərin bölüşdürülməsi";**

1.1.41. 13.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"13.1. Zəmanətə görə ödəniş edilmiş kredit üzrə daxil olan vəsaitlər həmin kredit üzrə zəmanətin kreditə olan faiz nisbətinə müvafiq olaraq Fonda, bu vəsaitlərin qalan hissəsi isə müvəkkil banka ödənilir.";

1.1.42. 13.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

"13.3. Zəmanət verilmiş krediti olan borcalanın müvəkkil bankda bir neçə krediti olduqda, bu kreditlər üzrə daxil olan vəsaitlər aşağıdakı hallarda müvəkkil bank tərəfindən zəmanət verilmiş kredit üzrə ödənişlərin həyata keçirilməsinə yönəldilir:

13.3.1. zəmanət verilmiş kredit gecikmədə olduqda həmin kredit gecikmədən çıxanadək;

13.3.2. zəmanət verilmiş kredit üzrə zəmanət ödənişi həyata keçirildikdə, həmin kredit tam ödənilənədək.";

1.1.43. 13.4-cü bənd ləğv edilsin;

1.1.44. 13.5-ci bənddə "13.4-cü" sözləri "13.3-cü" sözləri ilə əvəz edilsin;

1.1.45. 13.7-ci bənddə "Müvəkkil bank tərəfindən" sözləri "Fondun" sözü ilə əvəz edilsin;

1.1.46. aşağıdakı məzmunda 14-cü hissə əlavə edilsin:

**"14. Keçid müddəa**

Elektron sistem fəaliyyətə başlayanadək bu Qaydanın 5.4-5.8-ci və 8.6-cı bəndlərində və 5.2.1-5.2.4-cü və 10.6.1-ci yarımbəndlərində elektron sistem vasitəsilə edilməsi nəzərdə tutulmuş əməliyyatlar yazılı formada həyata keçirilməlidir.";

1.2. həmin fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunda kredit reytinqi sisteminin və digər risk menecmenti alətlərinin tətbiqi Qaydası" üzrə:

1.2.1. 5.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"5.1. Risklərin idarə edilməsi Fondun İdarə Heyəti, İdarə Heyətinin sədri tərəfindən yaradılan risklərin idarə edilməsi üzrə daxili komitə və digər məsul struktur bölmələr tərəfindən həyata keçirilir.";

1.2.2. 6.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"6.1. Borcalanın kredit reytinqi Fondun kredit reytinqi modeli əsasında müəyyən olunur.";

1.2.3. 7-ci hissə aşağıdakı redaksiyada verilsin:

**"7. Zəmanətin kreditə nisbəti və illik komissiyanın müəyyən edilməsi**

7.1. Zəmanətin kreditə nisbəti (örtülmə əmsalı) müəyyən edilərkən bu Qaydanın 6.2-ci bəndinə əsasən müəyyən olunmuş risk kateqoriyası nəzərə alınmaqla, aşağıdakı cədvəldə göstərilən təminatın kreditə nisbəti (aşağı, orta və yuxarı) əsas götürülür:

| Təminatın kreditə nisbəti | Risk kateqoriyası | |
|---|---|---|
| | Ortariskli | Aşağıriskli |
| Aşağı | 75%-dək | 70%-dək |
| Orta | 70%-dək | 65%-dək |
| Yuxarı | 65%-dək | 60%-dək |

7.2. Fondun kredit reytinqi modelinin nəticələrinə görə "yüksəkriskli" kateqoriyaya aid olan kreditlərə zəmanət verilmir.

7.3. Zəmanət məbləği bu Qaydanın 7.1-ci bəndində müəyyən olunmuş zəmanətin kreditə nisbəti nəzərə alınmaqla müvəkkil bankın müraciəti əsasında təyin edilir. Zəmanətin qüvvədə olduğu müddətdə zəmanətin kreditə nisbəti, müvəkkil bankın müraciəti əsasında, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 noyabr tarixli 1691 nömrəli fərmanı ilə təsdiq edilmiş "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nda müəyyən edilmiş həddə qədər azaldıla bilər. Bu zaman zəmanətə görə illik komissiya dəyişdirilmir.

7.4. Təminatın kreditə nisbəti kateqoriyalarının (aşağı, yuxarı və orta) hədlərini Fondun İdarə Heyəti müəyyən edir və ona ən azı ildə bir dəfə olmaqla yenidən baxılır.

7.5. İllik komissiyanın həcmini Fondun Himayəçilik Şurası tərəfindən təsdiq olunmuş müvafiq qaydalara əsasən Fondun İdarə Heyəti müəyyən edir.";

1.2.4. 8.2.3-cü yarımbəndin birinci abzasından "səlahiyyətli orqanının" sözləri çıxarılsın;

1.2.5. 8.4-cü bənddə "90%-indən" sözləri "Fondun İdarə Heyəti tərəfindən müəyyən edilən müvafiq həddindən" sözləri ilə əvəz edilsin;

1.2.6. 8.8-ci bənd aşağıdakı redaksiyada verilsin:

"8.8. Fond risklərin idarə edilməsi sisteminin effektivliyini mütəmadi olaraq qiymətləndirir və onun təkmilləşdirilməsi ilə bağlı tədbirlər görür.";

1.2.7. 9.1-ci bəndə "Müvəkkil banklar" sözlərindən sonra "Elektron hökumət" portalında olan "Elektron ipoteka və kredit zəmanət" sistemi (bundan sonra - elektron sistem) vasitəsilə" sözləri əlavə edilsin;

1.2.8. 9.1.5-ci yarımbənd ləğv edilsin və 9.1.4-cü yarımbəndin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin;

1.2.9. 9.2-ci bənddən ", 9.1.5-ci yarımbəndində nəzərdə tutulan məlumatlara dair hesabatlar isə rüblük əsasda" sözləri çıxarılsın;

1.2.10. 9.3-cü bənddən "dövri" sözü çıxarılsın;

1.2.11. aşağıdakı məzmunda 10-cu hissə əlavə edilsin:

**"10. Keçid müddəa**

Elektron sistem fəaliyyətə başlayanadək bu Qaydanın 9.1-ci bəndində elektron sistem vasitəsilə təqdim edilməsi nəzərdə tutulmuş hesabatlar yazılı formada təqdim edilməlidir.";

1.3. həmin fərmanla təsdiq edilmiş "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə görə subsidiya verilməsi Qaydası" üzrə:

1.3.1. 2.1-ci bənddə "ödənilmiş" sözü "ödənilməli olan" sözləri ilə əvəz edilsin;

1.3.2. 4.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"4.1. Fondun Himayəçilik Şurası hər bir müvəkkil bank üzrə faiz subsidiyasının maksimum limitinin müəyyənləşdirilməsi qaydasını təsdiq edir.";

1.3.3. 4.2-ci bəndə "prosedurlara uyğun olaraq" sözlərindən sonra "Fondun İdarə Heyəti tərəfindən" sözləri əlavə edilsin;

1.3.4. 5.1-ci bəndə "müvəkkil bank" sözlərindən sonra "Elektron hökumət" portalında olan "Elektron ipoteka və kredit zəmanət" sistemi (bundan sonra - elektron sistem) vasitəsilə" sözləri əlavə edilsin;

1.3.5. 5.1.1-ci yarımbəndə "müvəkkil banka" sözlərindən sonra "elektron sistem vasitəsilə" sözləri əlavə edilsin;

1.3.6. 5.2-ci bəndə "müvəkkil bankın" sözlərindən sonra "elektron sistem vasitəsilə" sözləri əlavə edilsin;

1.3.7. 5.4-cü bəndə "borcalanın" sözündən sonra "elektron sistem vasitəsilə" sözləri əlavə edilsin;

1.3.8. 5.6-cı bənd aşağıdakı redaksiyada verilsin:

"5.6. Fond faiz subsidiyasının verilməsinə və onun həcminə dair müvafiq qərar qəbul edir və bu qərar elektron sistemdə yerləşdirilir. Aşağıdakı hallarda faiz subsidiyasının verilməsindən imtina olunur:

5.6.1. ödənilməli olan faiz subsidiyasının məbləği müvəkkil bank üçün müəyyən edilmiş faiz subsidiyası limitinin istifadə edilməmiş hissəsindən çox olduqda;

5.6.2. faiz subsidiyasının verilməsi üçün müraciət olunan kredit üzrə zəmanət verilməsindən imtina edildikdə;

5.6.3. faiz subsidiyasının verilməsi üçün müraciət bu Qaydanın 3-cü hissəsində müəyyən olunmuş hallara uyğun olmadıqda.";

1.3.9. 6.1-ci bəndin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"6.1. Müvəkkil bank hər ayın 5-dək hesablanmış faizlərin faktiki ödənilməsinə dair hesabatı və faiz subsidiyasının ödənilməsinə dair müraciəti elektron sistem vasitəsilə Fonda təqdim edir.";

1.3.10. 6.2.1-ci və 6.2.2-ci yarımbəndlərdən "borcalana" sözü çıxarılsın;

1.3.11. 6.4-cü bənd ləğv edilsin;

1.3.12. 7.1.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"7.1.1. faiz subsidiyasının ödənilməsinə dair müvəkkil bankın elektron sistem vasitəsilə Fonda müraciət tarixinə 1 iş günü qalanadək borcalanın müvəkkil bankda olan hesabı üzərində məhkəmənin qərarı ilə, habelə qanunla müəyyənləşdirilmiş və ya bankla borcalan arasında müqavilədə nəzərdə tutulmuş hallarda pul vəsaitinin silinməsinə dair müvafiq sərəncam olduqda - həmin borc tam məbləğdə ödənilənədək (öhdəlik yerinə yetirilənədək);";

1.3.13. 7.1.2-ci yarımbənddə "rübün sonuna" sözləri "faiz subsidiyasının ödənilməsinə dair müvəkkil bankın elektron sistem vasitəsilə Fonda müraciət tarixinə 1 iş günü qalanadək" sözləri ilə əvəz edilsin;

1.3.14. 7.2-ci bənddən "borcalana" sözü çıxarılsın və "müvəkkil banka" sözləri "müvəkkil bankın hesabına" sözləri ilə əvəz edilsin;

1.3.15. 7.3.1-ci yarımbənddə "borcalanın" sözündən sonra "və müvəkkil bankın" sözləri əlavə edilsin;

1.3.16. 7.3.5-ci yarımbənd ləğv edilsin və 7.3.4-cü yarımbəndin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin;

1.3.17. 7.4-cü bəndə "bu barədə" sözlərindən sonra "elektron sistem vasitəsilə" sözləri əlavə edilsin;

1.3.18. aşağıdakı məzmunda 9-cu hissə əlavə edilsin:

**"9. Keçid müddəa**

Elektron sistem fəaliyyətə başlayanadək bu Qaydanın 5.1-ci, 5.2-ci, 5.4-cü, 5.6-cı, 6.1-ci və 7.4-cü bəndlərində və 5.1.1-ci, 7.1.1-ci və 7.1.2-ci yarımbəndlərində elektron sistem vasitəsilə edilməsi nəzərdə tutulmuş əməliyyatlar yazılı formada həyata keçirilməlidir.".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu bu fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirləri həyata keçirsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 may 2018-ci il*

# "Azərbaycan Respublikasında ipoteka kreditləşməsinin bəzi məsələləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasında ipoteka kreditləşməsinin bəzi məsələləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 6, maddə 1036; 2017, N 4, maddə 526, N 8, maddə 1521) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 5-7-ci hissələr ləğv edilsin;

1.2. həmin fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası" üzrə:

1.2.1. 1-ci hissədə "habelə" sözündən sonra "ipoteka kreditinin restrukturizasiyası və" sözləri əlavə edilsin;

1.2.2. 3.1.4-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.1.4. kredit, üzərində mülkiyyət hüququ dövlət qeydiyyatına və ya qabaqcadan qeydiyyata alınmış yaşayış sahəsinin, o cümlədən Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq barəsində təminat qeydi aparılmış tikintisi başa çatmayan binanın yerləşdiyi torpaq sahəsində tərkib hissələrin bağlı olduğu payın alınmasına verilməlidir. Fondun İdarə Heyəti ipoteka kreditləri üzrə risklərin idarə edilməsi, ipoteka ilə yüklü edilən yaşayış sahələrinin likvidliyinin təmin olunması məqsədilə yaşayış sahəsinin ilkin və ya təkrar bazarda alınmasından asılı olaraq yaşayış sahəsinə dair (tikildiyi il, layihəsi, istismar vəziyyəti, yerləşmə yeri və s.) əlavə tələbləri və bu Qaydanın 3.1.6-cı və 3.1.7-ci yarımbəndləri nəzərə alınmaqla, kreditin məbləği və kredit üzrə illik faiz dərəcələrinə dair şərtləri müəyyən edir;";

1.2.3. 3.1.7-ci yarımbənddə "faiz dərəcələri" sözləri "faiz dərəcələrinin yuxarı həddi" sözləri ilə əvəz edilsin;

1.2.4. 3.1.10-cu yarımbəndin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və həmin yarımbəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu tələb ipoteka kreditinin məbləğinin kreditin verildiyi tarixə ipoteka ilə yüklü edilən ilkin bazardakı yaşayış sahəsinin qiymətinin 60 faizindən az olduğu hallara şamil edilmir;";

1.2.5. 4.8-ci bəndin ikinci cümləsi üçüncü cümlə hesab edilsin və bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 1 may tarixli 29 nömrəli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu tərəfindən ipoteka kreditləri üzrə təminat verilməsi Qaydası"na müvafiq olaraq ipoteka krediti almaq istəyən şəxs ipoteka krediti üzrə təminat alınması üçün müraciət etdikdə, kreditin verilməsinə dair qərar təminatla bağlı Fondun qərarının müvəkkil banka bildirilməsindən sonra qəbul edilir.";

1.2.6. 4.8-ci bəndin üçüncü cümləsində "Həmin" sözü "Kreditin verilməsinə dair" sözləri ilə əvəz edilsin;

1.2.7. aşağıdakı məzmunda 6-1-ci hissə əlavə edilsin:

**"6-1. İpoteka kreditinin restrukturizasiyası**

6-1.1. İqtisadi və (və ya) hüquqi şəraitin dəyişməsi, habelə borcalanın maliyyə çətinliyinin yaranması səbəbindən borc öhdəliyinin icrasını təmin etmək məqsədilə yenidən maliyyələşdirilmiş ipoteka krediti üzrə borcalan kredit müqaviləsinin şərtlərinin dəyişdirilməsi (kreditin restrukturizasiyası) üçün müvəkkil banka elektron sistem vasitəsilə müraciət edə bilər.

6-1.2. Müvəkkil bank 3 iş günü müddətində borcalanın ipoteka krediti üzrə öhdəliyinin restrukturizasiyası haqqında müraciətini elektron sistem vasitəsilə əldə olunan, elektron sistem vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda isə borcalanın təqdim etdiyi sənədlər əsasında yoxlayır və müraciətin bu Qaydanın 6-1-ci hissəsinə uyğun olduğunu müəyyənləşdirdikdə ipoteka kreditinin restrukturizasiya edilməsi barədə Fonda müraciət edir.

6-1.3. Fond müraciət daxil olduğu tarixdən 10 iş günü müddətində borcalanın müraciəti ilə bağlı ipoteka kreditinin restrukturizasiyası barədə razılıq və ya əsaslandırılmış imtina haqqında qərar qəbul edir. Həmin qərar qəbul edildiyi gün, borcalana və müvəkkil banka bildirilməklə, elektron sistemdə yerləşdirilir.

6-1.4. Fond tərəfindən ipoteka kreditinin restrukturizasiyasına razılıq barədə qərar elektron sistemdə yerləşdirildiyi tarixdən 5 iş günü müddətində kreditin restrukturizasiyasının rəsmiləşdirilməsi həyata keçirilir.

6-1.5. İpoteka kreditinin restrukturizasiyası aşağıdakı formalarda həyata keçirilə bilər:

6-1.5.1. kredit məbləğindən çox olmamaq şərtilə kredit üzrə hesablanmış faizlərin kapitallaşdırılaraq əsas borcun məbləğinə əlavə olunması;

6-1.5.2. bu Qaydanın kreditin maksimum müddətinə dair tələbi nəzərə alınmaqla kreditin müddətinin uzadılması;

6-1.5.3. müvəkkil bankın razılığı ilə kredit üzrə faiz dərəcəsinin bankın xidmət haqqısı hesabına azaldılması;

6-1.5.4. ipoteka krediti üzrə ödənişlərə 1 ildən çox olmayan müddətə fasilə verilməsi.

6-1.6. Restrukturizasiya formaları birlikdə və ya ayrılıqda tətbiq edilə bilər. Restrukturizasiya kreditin qüvvədə olduğu müddət ərzində ən çoxu 3 dəfə həyata keçirilə bilər və bu restrukturizasiyalar arasındakı dövr minimum 1 il olmalıdır.

6-1.7. Aşağıdakı hallarda Fond tərəfindən ipoteka kreditinin restrukturizasiyasından imtina edilir:

6-1.7.1. borcalanın maliyyə vəziyyətinin pisləşməsi və digər maliyyə çətinliyi yaradan hallarla üzləşməsini təsdiq edən sənədlər təqdim edilmədikdə və ya təqdim edilmiş sənədlərdə göstərilən məlumatlar öz təsdiqini tapmadıqda;

6-1.7.2. restrukturizasiya üçün müraciət olunan kredit bu Qaydanın 6-1.8-ci yarımbəndinə əsasən Fond tərəfindən müəyyən olunan tələblərə cavab vermədikdə.

6-1.8. İpoteka kreditinin restrukturizasiyasına dair sənədlərin siyahısı və digər tələblər Fondun İdarə Heyəti tərəfindən müəyyən olunur.".

2. Müəyyən edilsin ki, barəsində təminat qeydi aparılmış tikintisi başa çatmayan binanın yerləşdiyi torpaq sahəsində tərkib hissələrin bağlı olduğu payın alınmasına görə kreditin verilməsi 2018-ci il iyulun 1-dən tətbiq edilir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

5. Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu bu fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 may 2018-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 609 nömrəli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

"Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 609 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, N 3, maddə 175; 2000, N 8 (III kitab), maddə 615; 2001, N 10, maddə 640, N 12, maddələr 754, 755; 2003, N 10, maddələr 546, 568, 571, 585; 2004, N 12, maddə 1005; 2005, N 2, maddə 69, N 3, maddə 170, N 7, maddə 592, N 8, maddə 720, N 12, maddələr 1104, 1112; 2006, N 9, maddə 743; 2007, N 3, maddə 234, N 8, maddə 766; 2008, N 6, maddə 498, N 9, maddə 798, N 11, maddə 969; 2009, N 2, maddə 70, N 4, maddə 226, N 10, maddələr 776, 779; 2010, N 4, maddə 296, N 5, maddə 389; 2013, N 9, maddə 1056; 2014, N 4, maddə 364, N 5, maddə 477, N 7, maddə 805, N 9, maddə 1027; 2016, N 11, maddə 1817; 2017, N 2, maddə 177, N 8, maddə 1521) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları"nın 14.9-cu bəndində "Vergilər Nazirliyinə," sözlərindən sonra "Qida Təhlükəsizliyi Agentliyinə," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 may 2018-ci il*

# "Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında "bir pəncərə" prinsipinin tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 11 noyabr tarixli 12 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. "Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında "bir pəncərə" prinsipinin tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 11 noyabr tarixli 12 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, N 11, maddə 968; 2009, N 2, maddə 68; 2017, N 8, maddə 1521) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3-cü hissədən ", sərhəddə həmin mallar üzərində baytarlıq, fitosanitar, sanitariya nəzarətini" sözləri çıxarılsın;

1.2. 4.2-ci bənddə "müvafiq ərazi dövlət baytarlıq müfəttişinə" sözləri "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin müvafiq regional bölməsinə" sözləri ilə əvəz edilsin;

1.3. 6-cı hissədə "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin yanında Dövlət Baytarlıq və Dövlət Fitosanitar Nəzarəti xidmətləri" sözləri "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi" sözləri ilə əvəz edilsin.

2. Bu fərman 2018-ci il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 may 2018-ci il*

# "Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

"Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, N 9, maddə 793; 2014, N 5, maddə 477, N 9, maddə 1027, N 10, maddə 1194; 2016, N 8, maddə 1384; 2017, N 3, maddə 384, N 8, maddə 1521) 28.3-cü bəndində "Azərbaycan Respublikasının Vergilər Nazirliyi" sözlərindən sonra ", Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 may 2018-ci il*

# "Üzümçülük və şərabçılıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 29 yanvar tarixli 667 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. "Üzümçülük və şərabçılıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 29 yanvar tarixli 667 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, N 1, maddə 50; 2009, N 4, maddə 226; 2014, N 10, maddə 1208; 2017, N 1, maddə 50) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2-ci hissənin üçüncü abzasında "7.3-cü" sözlərindən sonra "(üzümlüklərin salınması, üzüm əkini materiallarının yetişdirilməsi, habelə əmtəəlik üzüm istehsalı texnologiyaları üzrə normativ sənədlərə əməl olunmasına, o cümlədən əkin materiallarının sort təmizliyinə, sortluq və əkin keyfiyyətinə münasibətdə)" sözləri əlavə edilsin və həmin abzasda ",14.8-ci və 25.2-ci" sözləri "və 14.8-ci" sözləri ilə əvəz edilsin;

1.2. 2-ci hissənin doqquzuncu abzası ləğv edilsin və səkkizinci abzası aşağıdakı redaksiyada verilsin:

"həmin qanunun 7.3-cü maddəsində (fitosanitar vəziyyətinə münasibətdə), 22.1-ci və 27.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi həyata keçirir.".

2. Bu fərman 2018-ci il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 may 2018-ci il*

# "2018-2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü bəndini rəhbər tutaraq, ölkədə şərabçılığın inkişaf etdirilməsi, bu sahənin gəlirliliyinin və ixracat potensialının artırılması məqsədi ilə **qərara alıram:**

1. "2018-2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamın 1-ci hissəsi ilə təsdiq edilmiş Dövlət Proqramının icrasını təmin etmək üçün aidiyyəti mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə birlikdə zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu sərəncamın 1-ci hissəsi ilə təsdiq edilmiş Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə birlikdə əlaqələndirsin və icranın gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 may 2018-ci il*

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 3 may tarixli sərəncamı ilə təsdiq edilmişdir

# 2018-2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı

### 1. Giriş

Azərbaycan iqtisadiyyatının səmərəliliyinin artırılması və rəqabət qabiliyyətinin yüksəldilməsi çərçivəsində qeyri-neft sektorunun inkişafının təmin edilməsi ölkənin əsas iqtisadi prioritetlərindəndir. Görülmüş məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanda qeyri-neft sektorunun gücləndirilməsi üçün əlverişli şərait yaradılmış, o cümlədən iqtisadiyyatın şaxələndirilməsi istiqamətində ənənəvi kənd təsərrüfatı sahələrinin dirçəldilməsinə xüsusi əhəmiyyət verilmişdir. Ölkənin əlverişli torpaq-iqlim şəraiti, mövcud işçi qüvvəsi, emal sənayesi müəssisələrinin xammala tələbatının yerli istehsal hesabına ödənilməsi imkanları, regionda geniş ixrac bazarlarının mövcudluğu və böyük ixrac potensialının olması aqrar sahənin daha da təkmilləşdirilməsini zəruri etmişdir.

Aqrar-sənaye kompleksinin ən rentabelli və ən qədim sahələrindən biri də şərabçılıqdır. Şərabçılıq tarixən ölkə iqtisadiyyatının inkişafına mühüm töhfə vermiş və aparıcı sahələrdən biri olmuşdur. Azərbaycan şərabları gözəl, təkrarolunmaz ətrinə və əla keyfiyyətinə görə şöhrət qazanmışdır. Statistik məlumatlar göstərir ki, keçən əsrin 80-ci illərində respublikada 210 şərab zavodu və şərabçılıq məntəqələri sistemində 151 mindən artıq fəhlə və mütəxəssis işləyir, 56 adda şərab, 10 adda konyak, 4 adda şampan şərabı və digər məhsullar istehsal edilirdi.

İqtisadi əhəmiyyəti ilə yanaşı, şərab və şərabçılıq məhsullarının müalicəvi faydaları da məlumdur. Üzüm şirəsinin turşuluğu mədə şirəsinin turşuluğuna yaxın olduğundan üzüm şərabları şərabla müalicədə - enoterapiyada perspektivlidir.

Şərab və şərabçılıq məhsullarının sadalanan iqtisadi və sosial əhəmiyyəti nəzərə alınaraq, ölkədə şərabçılığın yeni inkişaf mərhələsinə keçirilməsi qarşıda duran əsas hədəflərdən biridir. Bu baxımdan sözügedən sahədə həyata keçirilən dəstək tədbirləri ilə yanaşı, şərab istehsalçılarının da müəyyən məsuliyyət daşıması zəruridir. İstehsal olunan məhsullar dünya bazarında rəqabətqabiliyyətli və qiymətinə görə münasib olmalıdır. Şərab və şərabçılıq məhsullarının keyfiyyəti üzüm sortlarının texnoloji xüsusiyyətlərindən və keyfiyyətindən birbaşa asılıdır. Odur ki, üzümçülük təsərrüfatları yaradılarkən texniki üzüm sortları düzgün seçilməlidir. Bölgənin torpaq-iqlim şəraitini nəzərə almaqla, sortlar bölgələr və mikrobölgələr üzrə düzgün yerləşdirilməli və sortlara diferensial aqrotexniki qulluq tətbiq edilməlidir.

Dünyada keyfiyyətli texniki üzüm sortlarının əkilib-becərildiyi ərazilərdən biri də Azərbaycandır. Azərbaycan "Bayanşirə", "Mədrəsə", "Şirvanşahı", "Xindoqnı", "Həməşərə", "Mələyi", "Xərci", "Qara aldərə", "Dəvəgözü" və s. kimi yüksəkkeyfiyyətli yerli (aborigen) texniki üzüm sortları ilə məşhurdur.

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə respublikada üzümçülük və şərabçılıq sahəsinin inkişafını dəstəkləmək və tənzimləmək məqsədilə 1970-ci ildə Dövlət Üzümçülük və Şərabçılıq Komitəsi yaradılmışdır. Azərbaycanda bu sahənin elmi əsaslarla inkişafını təmin etmək üçün Azərbaycan SSR Nazirlər Sovetinin 1976-cı il 12 avqust tarixli 269 nömrəli sərəncamı ilə Elmi Tədqiqat Üzümçülük və Şərabçılıq İnstitutu, həmçinin şərabçılıq sahəsində çalışacaq mühəndis-texnoloq, mühəndis-mexanik kadrlarının hazırlanması məqsədilə 1981-ci ildə Azərbaycan Texnologiya Universiteti təsis edilmişdir.

Ölkədə şərabçılığın davamlı inkişafının təmin edilməsi, o cümlədən bu sahəyə dövlət dəstəyinin gücləndirilməsi, potensial imkanlardan səmərəli istifadə edilməsi, həmçinin şərab istehsalına və ixracına marağın artırılması məqsədilə "Üzümçülük və şərabçılıq haqqında" Azərbaycan Respublikasının Qanununa, habelə "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nə uyğun olaraq, "2018-2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı" hazırlanmışdır.

### 2. Şərabçılıq sahəsində mövcud vəziyyət

*2.1. Dünyada mövcud vəziyyət*

46 ölkənin, o cümlədən Azərbaycanın da üzv olduğu Beynəlxalq Üzümçülük və Şərabçılıq Təşkilatının (OİV) məlumatına görə, dünyada hər il 2,7 milyard dekalitrdən artıq üzüm şərabı istehsal edilir. Ən çox şərab istehsal edən ölkələr İtaliya, Fransa, İspaniya, ABŞ, Avstraliya, Argentina, Çin, CAR, Çili, Almaniya və Portuqaliyadır. Son dövrdə şərab istehsalında 1-2% civarında azalma müşahidə edilir. Beynəlxalq tədqiqatların əksəriyyətində bunun səbəbi kimi dünyada baş verən kəskin iqlim dəyişiklikləri göstərilir.

Dünya üzrə şərab və şərabçılıq məhsullarının ixracı təqribən 1 milyard dekalitr təşkil edir. Ən çox məhsul ixrac edən ölkələr isə İspaniya, İtaliya, Fransa, Çili, Avstraliya, CAR, ABŞ, Almaniya, Portuqaliya, Argentina, Yeni Zelandiya və Moldova hesab edilir. Eyni zamanda, son onillikdə Almaniya, Böyük Britaniya, ABŞ, Fransa, Çin, Kanada, Rusiya, Niderland, Belçika, Yaponiya, İsveç və İsveçrə yüksək idxal həcmləri ilə seçilmişdir.

Aparılan təhlillər göstərir ki, son illərdə şərabın orta qiyməti, mənşə ölkəsindən asılı olaraq, kifayət qədər fərqlidir. Belə ki, dünyanın əsas şərab ixracatçısı olan Fransadan ixrac edilmiş 1 ton şərabın (HS 2204) orta FOB qiyməti təqribən 6,3 min ABŞ dolları, İtaliyadan - 3 min ABŞ dolları, İspaniyadan - 1,3 min ABŞ dolları, Çilidən - 2 min ABŞ dolları, Avstraliyadan - 1,7 min ABŞ dolları, ABŞ-dan - 4,1 min ABŞ dolları, habelə Gürcüstandan - 3 min ABŞ dolları, Moldovadan - 0,8 min ABŞ dolları, Türkiyədən - 2,4 min ABŞ dolları, Rusiyadan - 1,1 min ABŞ dolları, Belarusdan - 1,9 min ABŞ dolları və Qazaxıstandan - 3,2 min ABŞ dolları olduğu halda, Azərbaycandan ixracda bu göstərici 1,2 min ABŞ dolları təşkil etmişdir.

*2.2. Azərbaycanda mövcud vəziyyət*

Müstəqillik əldə edildikdən və ulu öndər Heydər Əliyev xalqın təkidi ilə yenidən hakimiyyətə gəldikdən sonra Azərbaycanda üzümçülüyün daha sürətli inkişafı üçün əlverişli şərait yaradılmış və bu istiqamətdə müvafiq tədbirlərin həyata keçirilməsinə başlanılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 dekabr tarixli 1890 nömrəli sərəncamı ilə təsdiq edilmiş "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı"nda respublikada üzümün və onun emal məhsullarının istehsalının artırılması, ölkə əhalisinin təzə və keyfiyyətli üzümə tələbatının daha dolğun ödənilməsi, şərabçılıq və üzüm emalı müəssisələrinin xammal təminatının yaxşılaşdırılması nəzərdə tutulmuşdur.

Hazırda üzümçülüyün və şərabçılığın inkişaf etdirilməsi ilə bağlı müvafiq normativ hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində işlər davam etdirilir, kənd təsərrüfatı, o cümlədən üzümçülük müəssisələri ilə tədarük, emal və şərabçılıq müəssisələri arasında kooperasiyanın təkmilləşdirilməsi məsələləri "Kənd təsərrüfatı kooperasiyası haqqında" Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli 270-VQ nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 18 iyul tarixli 996 nömrəli Fərmanında təsbit edilmişdir.

Şərabçılıq sahəsində əlverişli bazar mühitinin yaradılması və bu sahədə sahibkarlıq fəaliyyətinin stimullaşdırılması məqsədilə "Lisenziyalaşdırma sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 dekabr tarixli 713 nömrəli Fərmanı ilə şərab və şərabçılıq məhsullarının istehsalına, idxalına və satışına xüsusi icazə (lisenziya) alınması tələbi ləğv edilmişdir.

Daxili bazarın, o cümlədən üzümçülük və şərabçılıq məhsullarının xarici təsirlərdən qorunmasının hüquqi bazasını müəyyənləşdirən "Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında" Azərbaycan Respublikasının Qanunu 2016-cı ildə qüvvəyə minmişdir.

2016-cı ildə Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) dəstəyi ilə şərab və şərabçılıq məhsulları istehsalçıları və ixracatçıları arasında fəaliyyətin əlaqələndirilməsi məqsədilə Azərbaycan Şərab İstehsalçıları və İxracatçıları Assosiasiyası yaradılmışdır.

Üzümçülük və şərabçılıq sahəsində elmi təminatın və kadr potensialının gücləndirilməsi üçün mütəxəssis hazırlığı davam etdirilir, müvafiq təhsil proqramları hazırlanır və nəşr olunur. Həmçinin Elmi Tədqiqat Üzümçülük və Şərabçılıq İnstitutunda yeni üzüm sortlarının yaradılması, aqrotexniki və aqrokimyəvi tədbirlərin, xəstəlik və ziyanvericilərə qarşı mübarizə tədbirlərinin səmərəliliyinin yüksəldilməsi istiqamətində tədqiqat işləri aparılır.

Kənd təsərrüfatı məhsulları istehsalçıları üçün son illərdə yaradılmış əlverişli şərait, onlara müvafiq dəstəyin gücləndirilməsi, o cümlədən müəyyən edilmiş güzəştlər və subsidiyalar, bu sahədə fəaliyyət göstərən hüquqi və fiziki şəxslərin 2019-cu il yanvarın 1-dək torpaq vergisi istisna olmaqla bütün növ vergilərdən azad edilməsi ölkədə üzümçülüyün və şərabçılığın inkişafına təkan vermişdir.

Eyni zamanda, "Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 mart tarixli 811 nömrəli Fərmanına uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin qəbul etdiyi 2016-cı il 6 oktyabr tarixli 401 nömrəli qərara əsasən, ixrac olunan şərab və şərabçılıq məhsullarının qlobal rəqabət qabiliyyətinin artırılması, ixracatçıların dəstəklənməsi məqsədilə ixrac dəyərinin 6%-i miqdarında ixrac təşviqinin ödənilməsinə başlanılmışdır.

Bununla yanaşı, ölkədə investisiya fəaliyyətinin genişləndirilməsi, biznes mühitinin daha da yaxşılaşdırılması, sənaye istehsalının artırılması və daxili istehsalın dəstəklənməsi məqsədilə "İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 18 yanvar tarixli 745 nömrəli Fərmanına uyğun olaraq investisiya təşviqi sənədi almış şərab istehsalçıları Azərbaycan Respublikasının Vergi Məcəlləsi və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, 7 il müddətində qazandıqları mənfəətin 50%-nə görə mənfəət vergisini, həmçinin bu müddət ərzində idxal etdiyi texnika, texnoloji avadanlıq və qurğulara görə ƏDV və gömrük rüsumunu, eləcə də əmlak vergisini və mülkiyyətində və ya istifadəsində olan müvafiq torpaqlara görə torpaq vergisini ödəməkdən azaddırlar.

Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanda şərab və şərabçılıq məhsullarının istehsalı 2017-ci ildə 1 milyon dekalitri ötmüşdür ki, onun da 375 min dekalitri ixrac edilmişdir. Belə ki, ölkəmizdən şərab məhsulları, əsasən, Rusiyaya (338 min dekalitr) və Çinə (27 min dekalitr) göndərilmişdir.

Aparılan təhlillər göstərir ki, istehsalın həcmi ölkədə fəaliyyət göstərən şərabçılıq müəssisələrinin faktiki potensialından dəfələrlə azdır. Mövcud vəziyyətə ilk növbədə şərabın əsas xammalını təşkil edən üzümün maya dəyərinin yüksək olması təsir edir. Bu sahədə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə verilən subsidiya məbləğinin kompensasiya payı isə son qiymətlərin formalaşdırılmasında hər zaman yüksək deyildir.

Azərbaycan Respublikasının mülkiyyəti hesab edilən əmtəə nişanlarının müəyyənləşdirilməsi və üzüm bağlarının növünə (süfrə və texniki), sortuna ("Mədrəsə", "Kaberne" və s.) və coğrafiyasına uyğun olaraq inventarizasiyası lazımi səviyyədə təşkil edilməmişdir. Eyni zamanda, ölkədə üzüm tinglərinə olan ehtiyacın daxili imkanlar hesabına ödənilməsi işi gücləndirilməlidir. Əvvəllər Üzümçülük və Şərabçılıq Elmi Tədqiqat İnstitutu daxilində müvafiq məntəqələr fəaliyyət göstərsə də, hazırda onların əsaslı bərpasına ehtiyac vardır.

Maliyyə resurslarının çatışmazlığı və şərab istehsalçılarının zəruri maliyyə mənbələrinə çıxışının lazımi səviyyədə olmaması da şərab istehsalı müəssisələrinin potensialının maksimum səviyyədə reallaşdırılmasına imkan vermir.

Digər tərəfdən, ölkədə istehsal edilən şərab növlərinin sayı kifayət qədər çox olsa da, onların brendləşdirilməsi istiqamətində görülən işlər lazımi səviyyədə deyildir. Bu sahədə mütərəqqi beynəlxalq təcrübəni öyrənməklə milli şərab brendlərinin formalaşdırılması və onların qlobal arenada təbliği artıq müasir dövrün tələbidir.

Son illərdə dünya bazarında aşağı keyfiyyətli şərab məhsullarının həcminin artması səbəbindən, bu cür məhsullardan daxili bazarın və ölkə əhalisinin sağlamlığının qorunması vacib məsələlərdən biridir.

Eyni zamanda, Rusiya Federasiyasının Dağıstan Respublikası ilə Azərbaycan Respublikasının dövlət sərhədindən keçiddə avtomobil aksiz postunun olmaması, eləcə də şərab və şərabçılıq məhsullarını daşıyan xüsusi vaqon (sistern) parkının, həmçinin yerli şərab şüşələrinin və markalarının, şərabçılıq üzrə milli normativ texniki sənədlərin (DÖST, AZS milli standartları) müasir tələblərə tam şəkildə cavab verməməsi kimi problemlər şərab məhsullarının ölkədən ixracını məhdudlaşdırır.

Ümumiyyətlə, ölkədə istehsal olunan şərab və şərabçılıq məhsullarının daxili tələbatdan artıq olması, həmin məhsulların xarici bazarlara çıxarılması ilə bağlı bəzi problemlər bir sıra hallarda müəssisələri istehsal edilmiş şərabçılıq məhsullarını konyak spirti istehsalına yönəltməyə məcbur edir.

"2018-2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı" bu sahədə mövcud problemlərin həllinə, ölkədə müvafiq istiqamətdə aparılan işlərin daha da sürətləndirilməsinə və şərabçılığın gələcək inkişafına töhfə verəcəkdir.

### 3. Dövlət Proqramının məqsədi və vəzifələri

3.1. Dövlət Proqramının məqsədi şərab və şərabçılıq məhsullarına tələbatın ortamüddətli perspektivdə yerli ehtiyac və ixracat imkanları nəzərə alınmaqla ödənilməsi, şərab istehsalı müəssisələrinin fəaliyyətinin genişləndirilməsi və müasir texnologiyalar əsasında qurulması, xammal təminatının yaxşılaşdırılması, şərabçılıq məhsullarının ixracının artırılması və kənd əhalisinin məşğulluq səviyyəsinin yüksəldilməsi üçün ölkədə üzümçülüyün və şərabçılığın inkişafını stimullaşdırmaqdan ibarətdir.

3.2. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin icrası tələb olunur:

3.2.1. şərab və şərabçılıq məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsi;

3.2.2. şərab istehsalı və ixracının artırılması;

3.2.3. ixrac bazarlarının diversifikasiyası;

3.2.4. şərab istehsalı ilə məşğul olan təsərrüfat subyektlərinə səmərəli iqtisadi dəstək mexanizminin formalaşdırılması;

3.2.5. şərab istehsalı infrastrukturunda geriləmənin aradan qaldırılması və milli standartların beynəlxalq tələblərə uyğunlaşdırılması;

3.2.6. şərabçılıq sahəsində mütəxəssislərin bilik və bacarıqlarının beynəlxalq təcrübəyə uyğun artırılması;

3.2.7. istehlak bazarında və idxalda keyfiyyətsiz məhsullara qarşı mübarizənin gücləndirilməsi.

### 4. Şərabçılığın inkişafının əsas istiqamətləri

4.0. Azərbaycanda şərabçılığın inkişafı sahəsində qarşıya qoyulmuş məqsəd və vəzifələr aşağıdakı istiqamətlərdə müvafiq tədbirlərin həyata keçirilməsini nəzərdə tutur:

4.0.1. şərabçılığın inkişafı üzrə institusional tədbirlərin həyata keçirilməsi;

4.0.2. şərab istehsalının infrastruktur təminatının yaxşılaşdırılması;

4.0.3. şərabçılıq sahəsində elmi və kadr potensialının daha da gücləndirilməsi;

4.0.4. şərab istehsalı potensialının artırılmasına dövlət dəstəyi;

4.0.5. daxili bazarda şərab satışının dəstəklənməsi və keyfiyyətə nəzarətin gücləndirilməsi;

4.0.6. şərab və şərabçılıq məhsulları ixracının təşviqi və dəstəklənməsi.

### 5. Dövlət Proqramının maliyyələşmə mənbələri

5.0. Dövlət Proqramı üzrə tədbirlərin icrasının aşağıdakı mənbələr hesabına maliyyələşdirilməsi nəzərdə tutulur:

5.0.1. dövlət büdcəsi;

5.0.2. büdcədənkənar fondlar;

5.0.3. Sahibkarlığa Kömək Milli Fondunun, "Azərbaycan İnvestisiya Şirkəti" ASC-nin, Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidmətinin və "Azərbaycan İpoteka və Kredit Zəmanət Fondu" ASC-nin vəsaitləri;

5.0.4. yerli və xarici investisiyalar;

5.0.5. qanunvericiliklə qadağan olunmayan digər mənbələr.

### 6. Dövlət Proqramının icrasından gözlənilən nəticələr

6.0. "2018-2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı"nın həyata keçirilməsindən aşağıdakı nəticələrin əldə olunacağı gözlənilir:

6.0.1. Azərbaycanda şərabçılıq ənənələri bərpa olunacaq;

6.0.2. şərabçılıq müəssisələrinin istehsal potensialından maksimum səviyyədə istifadə etməklə ölkədə şərab ixracı 2025-ci ilədək 5 dəfə artırılacaq;

6.0.3. şərab və şərabçılıq məhsullarının rəqabət qabiliyyəti yüksəldiləcək;

6.0.4. şərabçılıq üzrə milli normativ texniki sənədlər (DÖST, AZS milli standartları) təkmilləşdiriləcək;

6.0.5. şərab və şərabçılıq məhsullarının qablaşdırılması üçün köməkçi vasitələrin ölkədə istehsalı dəstəklənəcək;

6.0.6. şərabçılıq sahəsində fəaliyyət göstərən mütəxəssislərin və marketoloqların bilik və bacarıqları yüksəldiləcək;

6.0.7. şərab və şərabçılıq məhsulları üçün nəzərdə tutulan aksiz markaları digər alkoqollu içkilərin aksiz markalarından fərqlənəcəkdir.

### 7. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı

| N | Tədbirin adı | İcraçılar | İcra müddəti |
|---|---|---|---|
| **1. Şərabçılığın inkişafı üçün institusional tədbirlər** | | | |
| 1.1. | Üzüm, şərab və şərabçılıq məhsulları, həmçinin qablaşdırma vasitələri istehsal edən müəssisələr arasında kooperasiyanın dəstəklənməsi | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2018-2025 |
| 1.2. | Şərabçılıq sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Ədliyyə Nazirliyi, Qida Təhlükəsizliyi Agentliyi | 2018-2020 |
| 1.3. | Şərabçılığa dair milli normativ texniki sənədlərin (DÖST, AZS milli standartları) beynəlxalq standartların tələblərinə uyğunlaşdırılması | Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Xarici İşlər Nazirliyi, Qida Təhlükəsizliyi Agentliyi | 2018-2022 |
| 1.4. | Şərab İstehsalçıları və İxracatçıları Assosiasiyasının potensialının gücləndirilməsinə dəstək verilməsi | İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Şərab İstehsalçıları və İxracatçıları Assosiasiyası | 2018-2019 |
| 1.5. | Şərabçılıq məhsulları üzrə milli brendlərin yaradılması və müvafiq qaydada qeydiyyatının təmin edilməsi | Kənd Təsərrüfatı Nazirliyi, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi, Əqli Mülkiyyət Agentliyi | 2018-2025 |
| 1.6. | Şərab turizminin inkişaf etdirilməsi | Dövlət Turizm Agentliyi, İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2018-2025 |
| 1.7. | Azərbaycan Respublikasının mülkiyyəti hesab edilən əmtəə nişanlarının müəyyənləşdirilməsi və əmtəə nişanlarının reyestrinin formalaşdırılması | Əqli Mülkiyyət Agentliyi, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi, Kənd Təsərrüfatı Nazirliyi | 2018-2020 |
| **2. Şərab və şərabçılıq məhsulları istehsalının infrastruktur təminatının yaxşılaşdırılması** | | | |
| 2.1. | Yerli və xarici texniki üzüm sortlarının artırılması üçün Üzümçülük və Şərabçılıq Elmi Tədqiqat İnstitutunun yüksək məhsuldar tinglik təsərrüfatlarının bərpası | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi | 2018-2019 |
| 2.2. | Şərabçılıqla məşğul olan regionların mikrozonalara ayrılması və tanıdılması | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, yerli icra hakimiyyəti orqanları | 2018-2025 |
| 2.3. | Üzümlərin növünə, sortuna və coğrafiyasına görə üzüm bağlarının inventarizasiyasının aparılması | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, Dövlət Statistika Komitəsi, yerli icra hakimiyyəti orqanları | 2018-2020 |
| 2.4. | Şərab və şərabçılıq məhsullarını daşıyan xüsusi vaqon (sistern) parkının yenilənməsi | "Azərbaycan Dəmir Yolları" QSC, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi | 2018-2025 |
| 2.5. | İstehsal sahələrinin müasir texnoloji tələblərə uyğunlaşdırılması layihələrinin həyata keçirilməsi | İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi | 2018-2025 |
| **3. Şərabçılıq sahəsində elmi və kadr potensialının gücləndirilməsi** | | | |
| 3.1. | İdarəedici heyət və satış mütəxəssisləri üçün təkmilləşdirmə kurslarının təşkili | İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi | 2018-2025 |
| 3.2. | Şərabçılıq sahəsində ali və orta ixtisaslı kadr hazırlığının təkmilləşdirilməsi | Təhsil Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi | 2018-2025 |
| 3.3. | Mərkəzi Dequstasiya Komissiyasının fəaliyyətinin müasir təcrübəyə uyğun təşkili | Kənd Təsərrüfatı Nazirliyi, Şərab İstehsalçıları və İxracatçıları Assosiasiyası | 2018-2019 |
| 3.4. | Şərabçılıq sahəsi üzrə innovativ texnologiyaların öyrənilməsi və tətbiqi məqsədilə xarici ölkələrin qabaqcıl elm mərkəzləri ilə əməkdaşlığın genişləndirilməsi | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi | 2018-2025 |
| **4. Şərab istehsalı potensialının artırılmasına dövlət dəstəyi** | | | |
| 4.1. | Üzüm bağlarının hər hektarına görə gübrə və pestisid üçün ödənilən subsidiya həcminin qiymətləndirilməsi | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi | 2020 |
| 4.2. | Şərabçılıq sahəsinə yönəldilən güzəştli kreditlərin həcminin artırılması | İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Maliyyə Nazirliyi, Maliyyə Bazarlarına Nəzarət Palatası, Mərkəzi Bank | 2018-2025 |
| 4.3. | Şərab şüşələri istehsalının beynəlxalq standartlara cavab verməsini təmin etmək məqsədilə şərab şüşələri istehsal edən müəssisələrin dəstəklənməsi | İqtisadiyyat Nazirliyi, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi, Kənd Təsərrüfatı Nazirliyi | 2018-2025 |
| 4.4. | Şərab və şərabçılıq məhsullarının qablaşdırılmasında istifadə edilən etiket, tıxac, qapaq və tara istehsalının dəstəklənməsi | İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Maliyyə Nazirliyi | 2018-2025 |
| **5. Daxili bazarda şərab satışının dəstəklənməsi və keyfiyyətə nəzarətin gücləndirilməsi** | | | |
| 5.1. | Daxili bazarda təşviqat tədbirlərinin (şərab festivallarının keçirilməsi, məlumat vasitələrinin hazırlanması və hədəf seqment arasında yayılması, respublika səviyyəli konfrans və sərgilərin təşkili və s.) davam etdirilməsi, eləcə də əhatə dairəsinin və sayının artırılması | İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Xarici İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi | 2018-2025 |
| 5.2. | Aksiz markalarının hər növ içkiyə görə fərqli təsvirdə hazırlanması və qablaşma həcminin aksiz markasında göstərilməsi | Nazirlər Kabineti, Maliyyə Nazirliyi, Maliyyə Bazarlarına Nəzarət Palatası, Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi, İqtisadiyyat Nazirliyi | 2018-2019 |
| 5.3. | Saxta aksiz markalarından istifadəyə qarşı mübarizənin gücləndirilməsi | Dövlət Gömrük Komitəsi, Maliyyə Nazirliyi, Vergilər Nazirliyi, Maliyyə Bazarlarına Nəzarət Palatası, İqtisadiyyat Nazirliyi | 2018-2025 |
| 5.4. | İstehsalda, istehlak bazarında və idxalda şərab və şərabçılıq məhsullarının keyfiyyətinə nəzarətin təkmilləşdirilməsi | Qida Təhlükəsizliyi Agentliyi, Dövlət Gömrük Komitəsi, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi | 2018-2025 |
| **6. Şərab ixracının dəstəklənməsi və təşviqi** | | | |
| 6.1. | Şərab ixracına dövlət dəstəyinin əhatə dairəsinin və həcminin artırılması imkanlarının qiymətləndirilməsi | İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Maliyyə Nazirliyi, Maliyyə Bazarlarına Nəzarət Palatası, Mərkəzi Bank | 2018-2025 |
| 6.2. | İxrac üzrə ixtisaslaşmış yerli və xarici şirkətlərlə iş birliyinin yaradılması | İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Xarici İşlər Nazirliyi | 2018-2025 |
| 6.3. | Şərabçılıq üzrə beynəlxalq əhəmiyyətli təşviqat tədbirlərinin (sərgi, yarmarka, konfrans və digər) davam etdirilməsi | İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Xarici İşlər Nazirliyi | 2018-2025 |
| 6.4. | Rusiya Federasiyası ilə Azərbaycan Respublikasının dövlət sərhədindən keçiddə avtomobil aksiz postunun yaradılması ilə bağlı Rusiya Federasiyasının aidiyyəti dövlət qurumları ilə danışıqlar aparılması | Dövlət Gömrük Komitəsi, İqtisadiyyat Nazirliyi, Xarici İşlər Nazirliyi | 2018-2019 |
| 6.5. | Beynəlxalq Üzümçülük və Şərabçılıq Təşkilatı ilə əməkdaşlığın genişləndirilməsi | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Xarici İşlər Nazirliyi | 2018-2025 |

# Akademik Rəfiqə Əliyevanın qəbirüstü abidə kompleksinin açılış mərasimi keçirilib





Görkəmli kimyaçı alim, Bakı Dövlət Universitetinin ekoloji kimya və ətraf mühitin mühafizəsi elmi-tədqiqat laboratoriyasının yaradıcısı, əməkdar elm xadimi, “Şöhrət” ordenli Rəfiqə Əliyevanın vəfatından bir il ötür.

AZƏRTAC xəbər verir ki, mayın 5-də Fəxri xiyabanda görkəmli alimin qəbirüstü abidə kompleksinin açılış mərasimi keçirilib. Tədbirdə mərhumun ailə üzvləri, dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, ictimaiyyət nümayəndələri iştirak ediblər. Məzarın önünə Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın adından əklil qoyulub.

Tədbir iştirakçıları Rəfiqə Əliyevanın xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.



### Azərbaycanda analitik kimya sahəsində ilk qadın akademik

Mərasimi açan Bakı Dövlət Universitetinin (BDU) rektoru akademik Abel Məhərrəmov ömrünün böyük hissəsini BDU-da ixtisaslı kadrların hazırlanmasına sərf edən Rəfiqə Əliyevanın Azərbaycan kimya elminin inkişafındakı müstəsna xidmətlərindən bəhs edib. Bildirib ki, görkəmli alim ekoloji kimya və ətraf mühitin mühafizəsi elmi-tədqiqat laboratoriyasının yaradıcısı və rəhbəri kimi məhsuldar elmi-pedaqoji fəaliyyət göstərib. Analitik kimya sahəsində ilk qadın akademik olan Rəfiqə Əliyeva elmi məktəb formalaşdırıb, bu məktəbin yetirmələri kimya elminə öz töhfələrini verirlər. “Gözəl müəllim idi, tələbələrinə analıq qayğısı göstərirdi. Ehtiyacı olan tələbənin əlindən tutaraq universitet rəhbərliyinin yanına gətirər, ona yataqxanada yer ayrılması, təqaüd verilməsi üçün müraciət edərdi. Tələbələr onun qrupuna düşməyə çalışardılar. Biz Rəfiqə xanımın 70 və 80 illik yubileylərini keçirmək istəyəndə, bununla razılaşmadı. Yalnız vəfatından sonra biz onun 85 illik yubileyini qeyd edə bildik. Ekoloji kimya və ətraf mühitin mühafizəsi elmi-tədqiqat laboratoriyasının önündə onun barelyefi açıldı, adına təqaüd təsis edildi, elmi yaradıcılığına həsr edilən beynəlxalq konfrans keçirildi”, - deyə akademik Abel Məhərrəmov diqqətə çatdırıb.

Qeyd edilib ki, Rəfiqə Əliyeva 1957-ci ildən etibarən Azərbaycan Dövlət Universitetində, 1958-1960-cı illərdə isə Azərbaycan Elmlər Akademiyasının Kimya Problemləri İnstitutunda kiçik elmi işçi kimi çalışıb. 1960-1963-cü illərdə universitetin kimya fakültəsinin aspiranturasında təhsil alan Rəfiqə Əliyeva 1964-cü ildən ömrünün sonuna qədər universitetin analitik kimya kafedrasında işləyib və burada assistent, baş müəllim, dosent, professor vəzifələrini tutub.

O, 1970-ci ildə namizədlik, 1999-cu ildə doktorluq dissertasiyalarını müdafiə edib və həmin ildə professor adına layiq görülüb. 2007-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2014-cü ildə isə həqiqi üzvü seçilib. 450-dən artıq elmi əsərin, 25 dərslik və dərs vəsaitinin, 20 patentin müəllifidir. Alimin rəhbərliyi ilə 20-dən çox fəlsəfə və elmlər doktorları yetişib.

Akademik Abel Məhərrəmov deyib: “Rəfiqə xanım böyük müəllim, alim olmaqla yanaşı, cəmiyyətdə gedən keçid dövrü proseslərinə fədakarlıqla sinə gərdi. Dünyaya gələn insan bir gün də bu dünyadan köçür, ancaq onun gördüyü işlər və yaratdıqları qalır. Rəfiqə xanımın əsərləri tələbələri və ailəsidir. Onun ailə üzvləri Azərbaycan cəmiyyətində özlərini təsdiqləyiblər”.

Tədbirdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova, Azərbaycan Respublikası Prezidenti Katibliyinin rəisi - Prezidentin köməkçisi Dilarə Seyidzadə, Milli Məclisin deputatları Elmira Axundova və Rafael Hüseynov, Milli Nüvə Tədqiqatları Mərkəzinin sədri, akademik Adil Qəribov, əməkdar memar Rasim Əliyev, tanınmış heykəltəraş, xalq rəssamı Natiq Əliyev çıxış edərək akademik Rəfiqə Əliyevanı dəyərli alim, xeyirxah insan kimi səciyyələndirib, onunla bağlı xatirələrini bölüşüblər.

### Rəfiqə xanım cəmiyyət üçün layiqli övladlar böyüdən ana və qayğıkeş nənə idi

“Rəfiqə xanımdan söz düşəndə xatirələrimizdə son dərəcə mədəni, sadə, mərd insan canlanır. Gözəl ana, tanınmış ictimai xadim, pedaqoq, alim və ən əsası əsl Azərbaycan xanımı - Rəfiqə xanımın həyatı bir çox qadınlara örnəkdir. Müasir Azərbaycan qadın hərəkatının tanınmış simalarından biri olan Rəfiqə Əliyeva “Dünya Azərbaycan Qadınları Birliyi”nin fəxri sədri seçilmişdi. O, komitəmizin tədbirlərində də hər zaman fəal iştirak edər, öz dəyərli təkliflərini, məsləhətlərini verərdi.

Rəfiqə xanım böyük alim, ictimai xadim olmaqla yanaşı, cəmiyyət üçün layiqli övladlar böyüdən ana və qayğıkeş nənə idi. O öz həyatı və fəaliyyəti ilə sübut etdi ki, xanımlar həm elmlə məşğul ola bilər, həm də sağlam ailə qura və layiqli övladlar yetişdirə bilərlər. Artıq bir ildir ki, Rəfiqə xanım aramızda yoxdur. Amma buna baxmayaraq, o, həmişə hər birimizin xatirindədir. Əgər insan xatırlanırsa, deməli, yaşayır”, - deyə Hicran Hüseynova qeyd edib.

Görkəmli alim Rəfiqə Əliyevanın buraya toplaşanların hər birinin həyatında böyük yer tutduğunu qeyd edən Dilarə Seyidzadə deyib: “Klassiklərin birindən soruşanda ki, şəxsiyyətdən hansı cəhətləri gözləmək olar, o, cavabında deyib: cəhət birdir - şəxsiyyətin davranışı və əməlləri. Rəfiqə xanım hər yerdə eyni şəkildə idi, insanlara eyni gözlə baxardı, çünki ürəyi təmiz idi, əməlləri təmiz idi. Seçdiyi ixtisasına çox böyük məhəbbət və ehtiramla yanaşırdı. Görünür, uşaqlıqdan o böyük ailədə tərbiyə aldığı vaxtlardan bilirdi ki, onun insanlara, hər bir azərbaycanlıya xeyri dəyməlidir. Ən böyük xeyir isə təhsil və bilikdir. Bilik olan yerdə böyük məhəbbət olur. İnsan hər bir işə, addıma məhəbbətlə yanaşmalıdır. Biz onu Rəfiqə xanımda gördük. Biz daim Rəfiqə xanımı yad edirik. O, daim bizim yanımızdadır. Daxilimizdə onunla danışırıq. Onun xatirəsi daim yaşayacaq və əziz tutulacaq. Elə bu abidə də Rəfiqə xanımın qəlbinin incəliyini, dərin zəkasını, insanlara məhəbbətini, elm fədaisi olduğunu əks etdirir”.

Yazıçı-publisist, əməkdar jurnalist, Milli Məclisin deputatı Elmira Axundova Rəfiqə Əliyevanın qeyri-adi dərəcədə təvazökar insan olmasından söz açıb: “Mən Heydər Əliyev haqqında kitab üzərində işləyəndə Rəfiqə xanımdan cavanlıq illərindən danışmasını xahiş etmişdim. Deyirdi ki, “nə danışım, o, yaşca məndən qat-qat böyük idi, utanıram, necə danışım”. Birtəhər razılıq aldıq və çox gözəl xatirələrini mənimlə bölüşdü. Bu xatirələr kitabımın yaraşığı oldu. Rəfiqə xanım çox mətin insan idi, böyük iradəsi var idi. Mən böyük dost itirdim. Biz onunla təskinlik tapırıq ki, bu böyük alimin işi, tələbələri, ailəsi yaşayacaq”.

### Azərbaycan qadınına, Azərbaycan aliminə ucaldılan gözəl abidə

Milli Məclisin Mədəniyyət komitəsinin sədri, akademik Rafael Hüseynov deyib: “Bu gün təkcə anım günü deyil. Bu gün böyük mədəniyyət hadisəsi baş verir. Bu ucalan yalnız qəbirüstü abidə deyil, Azərbaycan mədəniyyətinin, heykəltəraşlığının bir incisi, Azərbaycan qadınına, Azərbaycan aliminə ucaldılan gözəl bir abidədir. Rəfiqə xanım Azərbaycanın tarixində analitik kimya sahəsində ilk akademik kimi qalır. Onun elm tarixinə atdığı imzanı heç kim təkrarlaya bilməyəcək. Rəfiqə Əliyeva AMEA-nın həqiqi üzvlüyünə 2014-cü ildə seçilmişdi, lakin bu, keçən əsrin 70, 80, 90-cı illərində də baş verə bilərdi. Rəfiqə xanım Heydər Əliyevin bacısı idi. O, təvazökar olmasaydı, buna nail ola bilərdi. Ömrünün böyük bir hissəsini Bakı Dövlət Universitetinə həsr etməsi də onun işinə, peşəsinə sadiqliyindən xəbər verir”.

Sonda mərhumun ailəsi adından çıxış edən qızları - BDU-nun ekoloji kimya kafedrasının müdiri, professor Sevinc Hacıyeva və Azərbaycanın əməkdar incəsənət xadimi Fəxriyyə Xələfova mərasim iştirakçılarına minnətdarlıqlarını bildiriblər.

“Buraya gələnlərə baxdıqca, Rəfiqə xanımın onlarla ayrı-ayrılıqda təması yadıma düşür. Bu insanların hər birinin qəlbində Rəfiqə xanımın öz abidəsi var. Avraam Linkolndan oxuduğu kitabların ən gözəlinin hansı olduğunu soruşanda o, cavab vermişdi ki, anamdır. Bu fikri Rəfiqə xanıma da şamil edə bilərik. O, bizim üçün ən gözəl kitabdır. O, bizim həyatımızın ən əsas müəllimidir”, - deyə Fəxriyyə Xələfova qeyd edib.

Qeyd edək ki, qəbirüstü abidə kompleksini xalq rəssamı, heykəltəraş Natiq Əliyev və əməkdar rəssam, memar Şamil Buksayev hazırlayıblar. Akademik Rəfiqə Əliyevanın heykəli özünəməxsus süjetə və kompozisiyaya malikdir. Bu mənada, kompleks həm də maarifçilik missiyasını həyata keçirir və abidə ansamblı kimi təqdim olunur. Rəfiqə xanımın heykəli vasitəsilə yaradılan obrazı xarakterik portret cizgilərini, üzündəki dərin düşüncəni əks etdirir. Bu heykəldə Rəfiqə xanımın bütün cizgiləri çox təbii şəkildə yaradılmışdır. Hətta onun əksər hallarda geyindiyi akademik mantiyası, əlindəki kitabı, yaxasındakı jabo, gözlərinin ifadəsində xəyala dalması tam portretini canlandırmağa uğurla xidmət edir. Rəfiqə xanımın qranitdən hazırlanmış heykəlində obrazın ən zəruri xarakterik cizgiləri az qala güzgüdə olduğu kimi çox dəqiq və canlı şəkildə ifadə olunub. Heykəldə lirizmin və bədii detalların zənginliyinin də özünəməxsus yeri var.

Akademik Rəfiqə Əliyevanın abidə kompleksi məşhur Avropa memarlıq üslubu olan Barokko incəsənət növü ilə Şərq memarlığının sintezinin təzahürüdür.

# “Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası” mövzusunda I beynəlxalq konfrans yekunlaşıb

Azərbaycan Dillər Universitetinin (ADU) Yeni Azərbaycan Partiyası və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin dəstəyi ilə keçirdiyi, ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr edilən “Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası” mövzusunda I beynəlxalq elmi konfrans başa çatıb.

Mayın 5-də ADU-da konfransın bağlanış mərasimi keçirilib. Tədbirdə Türkiyə, Gürcüstan, İtaliya, Çin, Rusiya, Belarus, Ukrayna və Almaniyadan ümumilikdə 48 xarici qonaq iştirak edib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə konfrans iştirakçıları ulu öndər Heydər Əliyevin universitetin foyesindəki büstü önünə tər güllər qoyub, ümummilli liderin 95 illiyi ilə əlaqədar ADU-nun həyətində müxtəlif növ dekorativ çiçəklər əkiblər.

Tədbir Azərbaycanın Dövlət himninin səslənməsi ilə başlanıb.

ADU-nun rektoru akademik Kamal Abdullayev konfransın işi və beynəlxalq tədbir çərçivəsində görülən işlər barədə məlumat verib. Bildirilib ki, konfransın keçirilməsinin məqsədi ümummilli lider Heydər Əliyevin Azərbaycan multikulturalizmi sahəsində gördüyü işləri təbliğ etməkdir. Tədbir, həmçinin universitetlər, mütəxəssis və tələbələr arasındakı əlaqələrin möhkəmlənməsinə kömək göstərmək məqsədi daşıyıb.

Qeyd edilib ki, ümummilli lider Heydər Əliyevin nəcib siyasətinin daha dərindən öyrənilməsi məqsədilə keçirilən konfransın Azərbaycan, Türkiyə, Almaniya, İtaliya, Serbiya, Rusiya, Çin, Ukrayna, Belarus və Gürcüstan universitetlərində təşkil olunan bölmə iclasları çox yüksək səviyyədə keçib. On ölkənin 14 universitetində təşkil olunan bölmə iclaslarında xarici və yerli alimlərin müxtəlif mövzularda məruzələri dinlənilib.

Diqqətə çatdırılıb ki, konfransın bağlanış mərasimində xarici ölkə universitetlərindən əllidən çox nümayəndə iştirak edir. Bu beynəlxalq tədbir ulu öndərin xatirəsinə hörmət əlaməti olmaqla yanaşı, eyni zamanda, universitetin xarici əlaqələrinin dərinləşməsinə imkan yaradıb. Belə ki, Serbiyanın Belqrad Universitetində keçirilən bölmə iclası zamanı Azərbaycan Dili və Mədəniyyəti Mərkəzinin açılışı olub.

ADU-nun rektoru bildirib ki, müasir dövrdə ulu öndərin siyasəti dərindən öyrənilir. O deyib: “Bu gün Azərbaycan çox sədaqətli, etibarlı və ləyaqətli siyasi yolla irəliləyir. Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, Azərbaycanın siyasəti, iqtisadiyyatı, mənəviyyatı da bir çox ölkələrdən, yaxın və uzaq qonşularımızdan fərqli olaraq Azərbaycan xalqının və dövlətinin əlindədir. Buna etimad, sədaqət hamımızın ümdə borcudur. Bunun əsasını da ümummilli lider Heydər Əliyev qoyub”.

Konfransın mənəvi dəyərinin çox yüksək olduğunu söyləyən K.Abdullayev tədbirin təşkilinə dəstək göstərən Yeni Azərbaycan Partiyasına və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinə təşəkkürünü bildirib.

Sonra beynəlxalq konfransın müxtəlif ölkələrdə keçirilən bölmə iclaslarından bəhs edən videoçarx göstərilib.

Mədəniyyət naziri Əbülfəs Qarayev ulu öndərin multikulturalizm və tolerantlıq ideologiyasının xarici ölkələrin müxtəlif ali məktəblərində tədris və təbliğ olunmasını uğurlu addım kimi dəyərləndirib. Vurğulanıb ki, multikulturalizm və tolerantlıq xalqımızın genetik fonunda illər, əsrlər boyu yaşayıb.

Nazir müasir gəncliyin bu ideologiyaya elmi əsaslarla yiyələnməsini və onun dünyanın müxtəlif universitetlərində elm kimi tədris və təhlil olunmasını Azərbaycanın həmin siyasətə hər zaman sadiq qalmasının əyani sübutu olduğunu söyləyib. Bu il “Bakı Prosesi”nin on illiyinin qeyd olunacağını diqqətə çatdıran nazir dünyada “Bakı Prosesi” və Ümumdünya Mədəniyyətlərarası Dialoq forumlarına qlobal platforma kimi geniş yer verildiyini söyləyib. Bildirilib ki, “Bakı Prosesi” bütün diplomatik sənədlərdə Azərbaycanın multikulturalizm ideologiyasının nümunəsi kimi qəbul olunur. Ulu öndər Heydər Əliyevin multikulturalizm, tolerantlıq və mədəniyyətlərarası dialoq ideologiyası artıq yeni müstəviyə daxil olaraq müasir formada uğurla davam etdirilir. Ə.Qarayev Azərbaycan Prezidentinin təşəbbüsü olan “Bakı Prosesi”nin artıq beynəlxalq hərəkata çevrilməsinin həm dövlətimizin bu sahədə davamlı və dayanıqlı siyasətinin, həm də beynəlxalq tərəfdaşların, UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, BMT-nin Dünya Turizm, Dünya Ərzaq və Kənd Təsərrüfatı təşkilatlarının, Avropa Şurası və ISESCO-nun əməkdaşlığının bəhrəsi olduğunu vurğulayıb.

Sonra “Bakı Prosesi”nin fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov ümummilli lider Heydər Əliyevin multikulturalizm və tolerantlıq ideologiyasının öyrənilməsi və təbliği baxımından konfransın əhəmiyyətini qeyd edib, gələcəkdə beynəlxalq tədbirin mütəmadi keçiriləcəyinə və coğrafiyasının genişləndiriləcəyinə əminliyini bildirib. Qeyd edilib ki, bu cür tədbirlər təkcə praktik əhəmiyyət daşımır, həmçinin ali təhsil müəssisələri arasında əməkdaşlığın qurulmasına və müxtəlif layihələrin həyata keçirilməsinə zəmin yaradır.

Yeni Azərbaycan Partiyasının (YAP) icra katibinin müavini, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ulu öndərin anadan olmasının 95 illiyinə həsr edilən möhtəşəm tədbirin uğurla başa çatdığını söyləyib. Bildirilib ki, bir ay ərzində konfrans işini dünyanın müxtəlif universitetlərində də uğurla davam etdirib.

M.Qurbanlı deyib: “Konfrans ümummilli liderin multikulturalizm və tolerantlıq siyasəti ilə bağlı olmaqla yanaşı, Azərbaycanın multikulturalizm və tolerantlıq dəyərlərini dünyaya çatdırmaq, ölkəmizi tanıtmaq istiqamətində mühüm addım idi. Bu forum məntiqi olaraq “Bakı Prosesi”nin davamı hesab edilə bilər. Prezident İlham Əliyev ümummilli liderin tolerantlıq və multikulturalizm siyasətini uğurla davam etdirir. Hazırda dünyada multikultural və tolerant dəyərlərin təbliğat və təşviqatına ehtiyac var. Əmin-amanlığın bərqərar edilməsi üçün xalqlar, millətlər arasında həmrəyliyin olması, tolerantlığın, multikultural dəyərlərin geniş təşviqatı vacibdir. Ümid edirəm ki, konfrans gələcəkdə Azərbaycan ilə yanaşı, başqa ölkələrdə də keçiriləcək”.

Ural Federal Universiteti Humanitar İnstitutunun direktoru professor Elvira Sımanyuk, Türkiyənin Atatürk Universitetinin rektoru professor Ömər Çomaklı, Ərciyəs Universitetinin nümayəndəsi Erdem Talat Hakan, Rusiyanın A.Puşkin adına Dövlət Rus Dili İnstitutunun prorektoru Yelena Koltakova, Kassino Cənubi Latsio Universitetinin professoru Alesandro Fiqus, Moskva Dövlət Linqvistik Universitetinin şöbə müdiri Vladimir Konev, Moskva Şəhər Pedaqoji Universitetinin Samara filialı direktorunun elmi işlər üzrə müavini professor Yuliya Quseva, Çin Sosial Elmlər Akademiyasının İnformasiya İnstitutunun direktoru Şuhua Çjan, Minsk Dövlət Linqvistik Universitetinin prorektoru professor Vladimir Paşkeviç, Auqsburq Universitetinin professoru Klaus Volf, ADU-nun tədris işləri üzrə prorektoru professor Əfqan Abdullayev və digər çıxış edənlər ulu öndərə həsr olunan mötəbər konfransın bölmə iclasları ilə bağlı hesabat veriblər. Bildirilib ki, çox yüksək səviyyədə keçirilən bölmə iclaslarında ümummilli liderin multikultural və tolerant siyasəti ilə bağlı iştirakçılara geniş məlumat verilib, məruzələr dinlənilib. Vurğulanıb ki, bu cür tədbirlərin keçirilməsi faydalı əməkdaşlığa, mövcud təcrübələrin paylaşılmasına böyük töhfə verir. Qonaqlar ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərindən söz açıb, ulu öndərin bu ölkələrə tarixi səfərlərini xatırladıblar.

Sonra tələbələrin hazırladıqları, ümummilli lider Heydər Əliyevə həsr edilən bədii proqram nümayiş olunub. Tələbələr ulu öndərin ən çox sevdiyi mahnıları - “Alagöz”, “Küçələrə su səpmişəm” və s. ifa ediblər.

# SDU-da iqtisadi təhlükəsizlik mövzusunda beynəlxalq elmi konfrans olub

Sumqayıt Dövlət Universitetində “İqtisadi təhlükəsizlik: mövcud vəziyyət və perspektivlər” mövzusunda beynəlxalq elmi konfrans keçirilib.



Konfransı universitetin rektoru professor Elxan Hüseynov açaraq SDU-nun yaranma tarixi, onun fəaliyyət istiqamətləri, həyata keçirdiyi beynəlxalq proqram və layihələr barədə məlumat verib. Bildirilib ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyi bu gün müstəqil Azərbaycan Respublikasında dövlət, eləcə də beynəlxalq və türk dünyası səviyyələrində qeyd edilir. Bu tarixi gün Azərbaycan xalqının həyatına böyük və əlamətdar hadisə kimi daxil olmuşdur. Şərqdə ilk demokratik dövlət quruluşunu yaratmış Azərbaycan Xalq Cümhuriyyəti istiqlaliyyətimizi elan edərək xalqımızın müstəqillik əzmini nümayiş etdirmişdir.

E.Hüseynov bildirib ki, müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyevin misilsiz idarəçilik qabiliyyəti, gərgin əməyi nəticəsində əldə olunmuş nailiyyətlər sonrakı illərdə ölkə iqtisadiyyatının davamlı və dinamik inkişafı üçün möhkəm zəmin yaratdı. 1994-cü il sentyabrın 20-də “Əsrin müqaviləsi” kimi daxil olan neft müqaviləsinin imzalanması Azərbaycanın bugününə və gələcəyinə olan inamı nümayiş etdirdi. “Əsrin müqaviləsi” uzaq gələcəyə hesablanmış sazişdir. Son illər Prezident İlham Əliyevin düşünülmüş, çevik və qətiyyətli iqtisadi siyasəti sayəsində qazanılmış uğurlar daha da möhkəmləndirilib, ölkəmiz iqtisadi sahədə keçid dövrünü uğurla başa çatdırıb. Davamlı və dinamik inkişafı özündə ehtiva edən özünəməxsus milli inkişaf modeli ilə tanınan Azərbaycan hazırda inkişafının keyfiyyətcə yeni mərhələsini yaşayır və yeni-yeni uğurlara imza atır.

Konfransın plenar iclasının sonunda Özbəkistan Respublikasının Daşkənd Maliyyə İnstitutu və Sumqayıt Dövlət Universiteti arasında təhsil və elmi tədqiqat sahəsi üzrə əməkdaşlıq müqaviləsi imzalanıb.

“İqtisadi təhlükəsizlik: mövcud vəziyyət və perspektivlər” mövzusunda keçirilən beynəlxalq elmi konfrans öz işini bölmə iclaslarında davam etdirib.

Konfransda Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri akademik Ziyad Səmədzadə, Milli Məclisin deputatı, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov, Bakı Biznes Universitetinin rektoru professor İbad Abbasov, İqtisadi və Sosial İnkişaf Mərkəzinin İdarə Heyətinin sədri dosent Vüqar Bayramov, Azərbaycan Dövlət İqtisad Universitetinin elm şöbəsinin müdiri, iqtisad elmləri doktoru, professor Zahid Məmmədov, o cümlədən, Rusiya, Türkiyə, Qazaxıstan, Özbəkistan və digər ölkələrin aparıcı universitetlərinin iqtisadçı alimləri iştirak ediblər.

***Akif ƏLİYEV,***
***“Azərbaycan”***

# Beynəlxalq Şahmat Festivalında 5-ci tura yekun vurulub



Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş “Naxçıvan-2018” Beynəlxalq Şahmat Festivalının beşinci turunda “A” qrupunda mübarizə aparan və hazırda turnir cədvəlinə liderlik edən qazaxıstanlı beynəlxalq usta Pak Yevgeni ukraynalı qrossmeyster Vitali Bernardskiylə qarşılaşıb. Görüş heçheçə başa çatıb.

AZƏRTAC xəbər verir ki, digər görüşlərdə azərbaycanlı qrossmeyster, turnirin ən reytinqli şahmatçılarından olan Eltac Səfərli Hollandiya təmsilçisi Serqey Tviyakovla, qrossmeyster Nicat Məmmədov İspaniya təmsilçisi qrossmeyster Oleq Korneyevlə, israilli qrossmeyster İlya Smirin almaniyalı qrossmeyster İqor Xenkinlə, qrossmeyster Qədir Hüseynov iranlı beynəlxalq usta Əlirza Firuzca ilə xallarını yarı bölüblər. Qrossmeyster Fərid Abbasov isə ukraynalı qrossmeyster Anton Korobova məğlub olub.

Hazırda turnir cədvəlinə 4 xalla qazaxıstanlı beynəlxalq usta Pak Yevgeni başçılıq edir. Onu üç xal yarımla 13 zəka sahibi izləyir.

Beynəlxalq Şahmat Festivalının “B” qrupunda Samir Davidov Şahin Hüseynov üzərində qələbə qazanmaqla xallarının sayını 5-ə çatdırıb. Təbriz İdrisov iranlı həmkarı Cəfər Xamisi ilə, Rasim Əliyev isə Elvin Bayramovla xallarını yarı bölüb. Fariz Əhmədov Eldar Musayev üzərində qələbə qazanıb.

Beləliklə, bu qrupda liderliyə yüksələn Samir Davidovu dörd xal yarımla iki şahmatçı izləyir.

“C” qrupunun liderləri olan Firəngiz Tarverdiyeva Niyazi Qafarovla xallarını yarı bölüb. Digər oyunlarda Zahid Allahverdiyev Xumar Məhərrəmovadan, Leyla Quliyeva isə Əhmədağa Həşimovdan üstün olublar. Əli Züqanovun Ömər Qədirli üzərində qələbə qazanaraq xallarının sayını 5-ə çatdırması onu qrup liderliyinə yüksəldib. Turnir cədvəlində onu dörd xal yarımla beş şahmatçı izləyir.



# İQTİSADİYYAT

# Kapital qoyuluşu iqtisadi inkişafın güzgüsüdür



Dünya siyasətindəki indiki qeyri-müəyyənlik iqtisadiyyata da mənfi təsir göstərir. Xüsusilə siyasi mübarizənin hədəfi iqtisadi maraqlar olduqda belə hal daha kəskin xarakter alır. Bu gün Amerika-Çin, Çin-Avropa, Amerika, Avropa İttifaqı-Rusiya arasında gedən ticarət mübarizəsinin nə ilə nəticələnəcəyi barədə mütəxəssislər belə, dəqiq fikir bildirməyə çətinlik çəkirlər. Sözsüz ki, belə vəziyyət kapital qoyuluşunda da bir durğunluq yaradır.

Bütün bunların fonunda isə Azərbaycanda həyata keçirilən islahatlar xarici investorlarda bizə olan inamı və marağı azaltmır. Bu da səbəbsiz deyil. Belə ki, Azərbaycanda xarici sərmayənin qorunması üçün mükəmməl qanunvericilik bazası yaradılıb, biznesin inkişafı üçün əlverişli mühit formalaşıb.

Prezident İlham Əliyev ölkəyə kapital qoyuluşunun əhəmiyyətini vurğulayaraq demişdir: "Ölkəmizə 230 milyard dollardan çox sərmayə qoyulub. Ölkəmizdə çox gözəl investisiya iqlimi vardır. Xarici və yerli sərmayə ölkəmizə bundan sonra da qoyulacaqdır. Davos Ümumdünya İqtisadi Forumu Azərbaycanı rəqabətqabiliyyətliliyinə görə 35-ci yerə layiq görübdür. İnkişafda olan ölkələr arasında inklüziv inkişaf indeksinə görə biz üçüncü yerdəyik. Yəni, bu göstəricilər özlüyündə hər şeyi açıq-aydın bildirir, onu göstərir ki, iqtisadi sahədə əldə edilmiş uğurlar, nailiyyətlər tarixi nailiyyətlərdir... Biz son illərdə ölkə daxilində nəqliyyat infrastrukturu ilə çox ciddi məşğul olmuşuq. Demək olar ki, nəqliyyat infrastrukturuna çox böyük investisiya qoyulubdur. Biz yeddi aeroport tikmişik, onlardan altısı beynəlxalq statusa malikdir. O aeroportlar indi işləyir, xaricdən gələn turistlərin sayır artır. Ələtdə Xəzər dənizində ən böyük yeni ticarət limanı tikilir, yaxın gələcəkdə istifadəyə veriləcəkdir. Dəmir yolu infrastrukturu yeniləşir. Azərbaycan Xəzər dənizində ən böyük donanmaya malikdir. Burada da biz liderliyi möhkəmləndiririk. Gəmiqayırma zavodunun tikintisi artıq xaricdən gəmilərin alınmasına ehtiyac qalmadığını göstərir".

Son dövrlər sənaye parklarının və sənaye zonalarının yaradılmasına da külli miqdarda investisiya yatırılır. Təkcə keçən ilin sonunda Sumqayıt Kimya Sənaye Parkında 4 müəssisənin açılışı olub, 3 müəssisənin təməli qoyulub. Bu zavodların tikintisinə ümumilikdə 2 milyard dollara yaxın vəsait yatırılıb. Qoyulacaq ümumi investisiyanın həcmi 2,8 milyard dollar olacaq. Bu qədər xarici və yerli sərmayənin təkcə bir sənaye parkına cəlb edilməsi investisiya təşviqi siyasətinin həyata keçirilməsi nəticəsidir.

Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, cari ilin yanvar-mart aylarında xarici müəssisə və təşkilatlar tərəfindən əsas kapitala 1 milyard 386,5 milyon manat vəsait yönəldilib. Xarici ölkə və beynəlxalq təşkilatların vəsaitləri hesabına əsas kapitala yönəldilən vəsaitin 1 milyard 139,6 milyon manatı Birləşmiş Krallıq, Türkiyə, İsveçrə, Malayziya, Çexiya, Yaponiya, ABŞ, Rusiya və İran sərmayədarlarına məxsusdur.

Hesabat dövründə ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 2 milyard 869,2 milyon manat vəsait yönəldilib. İstifadə olunan vəsaitin çox hissəsi istehsal obyektlərinin, qalanı xidmət obyektlərinin və yaşayış evlərinin tikintisinə sərf edilib.

Ölkədə sahibkarlıq sinfinin formalaşması kapital qoyuluşunda da özünü büruzə verir. Belə ki, birinci rübdə yatırılan ümumi sərmayənin 57,2 faizi qeyri-dövlət sektoruna məxsusdur. Bu fakt həm də onu göstərir ki, hazırda sahibkarlar iqtisadiyyata kapital qoyuluşunda ön mövqeyə keçiblər.

Onu da qeyd edək ki, ümumilikdə daxili mənbələrdən əsas kapitala yatırılan vəsaitin dəyəri ümumi sərmayənin 51,7 faizini təşkil edir. Əsas kapitala yönəldilən sərmayədə müəssisə və təşkilatların vəsaitləri 1 milyard 732,2 milyon, bank kreditləri 392 milyon, büdcə vəsaitləri 556,9 milyon, büdcədənkənar fondların vəsaitləri 17 milyon, əhalinin şəxsi vəsaitləri 156,3 milyon, digər vəsaitlər 14,8 milyon manatdır.

Bütün bu vəsaitlər hesabına yanvar-mart aylarında paytaxtda "Yasamal-1", "Qobu" və 120 saylı elektrik yarımstansiyaları, Bakı Şəhər Statistika İdarəsinin inzibati binası, "Bona Dea" Beynəlxalq Hospitalı, Mingəçevir Sənaye Parkında iplik istehsalı üzrə 2 müəssisə, Neftçala Sənaye Məhəlləsində "Xəzər" Avtomobil Zavodu, Naxçıvan Muxtar Respublikasında 442 şagirdlik 2 ümumtəhsil məktəb binası və ambulatoriya-poliklinika istifadəyə verilib. Bu müəssisələrin təsnifatından aydın görünür ki, istehsal, infrastruktur və sosial obyektlərin tikintisi paralel həyata keçirilir. Dövlətin həyata keçirdiyi iqtisadi siyasətin əsas məqsədi də budur.

Bir sıra sosial layihələrin həyata keçirilməsində dövlət vəsaitindən də istifadə edilir. Cari ildə məcburi köçkünlər üçün ən azı 4 min ailə - 20 min köçkünün yeni evlərə, mənzillərə köçürülməsi nəzərdə tutulub. Xatırladaq ki, ötən il 12 min köçkün ailəsi mənzillə təmin edilib. İlin sonuna kimi isə onların ümumi sayı 285-290 min nəfərə çatacaq.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*






# Gürcüstan və Azərbaycan "Bir kəmər - bir yol" təşəbbüsü çərçivəsində sərhəd məntəqəsi tikməyi planlaşdırırlar

Gürcüstan və Azərbaycan "Bir kəmər - bir yol" təşəbbüsü çərçivəsində ilk birgə sərhəd məntəqəsini yaratmağı planlaşdırırlar. Bunu Gürcüstanın maliyyə naziri Mamuka Baxtadze Asiya İnkişaf Bankının Direktorlar Şurasının mayın 3-dən 6-dək Manilada keçirilən 51-ci ənənəvi görüşündəki çıxışında bəyan edib.



M.Baxtadze deyib: "Gürcüstan Asiya İnkişaf Bankının maneəsiz ticarətə dair konsepsiyasını tam dəstəkləyir. Məhz bu səbəbdən biz Azərbaycanla birlikdə ilk birgə sərhəd məntəqəsinin tikintisi imkanını nəzərdən keçiririk". Amma nazir yeni layihənin təfərrüatlarını açıqlamayıb.

M.Baxtadzenin sözlərinə görə, Yeni İpək Yolu layihəsində iştirak etmək üçün Gürcüstan daha çox maliyyə resursu cəlb etməlidir. 2013-cü ildə Çin yeni iqtisadi inkişaf strategiyasını - infrastrukturun yaradılmasına və Avrasiya ölkələri arasında qarşılıqlı əlaqələrin qurulmasına yönəldilən "Bir kəmər- bir yol" strategiyasını elan edib. Bu strategiya inkişafın iki mühüm istiqamətini - İpək Yolu İqtisadi Kəmərini və Dəniz İpək Yolunu nəzərdə tutur. Söhbət güzəştli şərtlərlə Şərqdən Qərbə birbaşa yükdaşımaları üçün ticarət dəhlizinin yaradılmasından gedir.

# Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin Azərbaycan hissəsində daşınmış yüklərin həcmi açıqlanıb



Cari ilin yanvar-mart aylarında Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin Azərbaycan hissəsində daşınmış yüklərin həcmi 12 milyon 765,2 min ton, yük dövriyyəsi isə 2 milyard 745,8 milyon ton-kilometr olub.

Dövlət Statistika Komitəsindən bildirilib ki, yüklərin 7 milyon 951,2 min tonu və ya 62,3 faizi avtomobil nəqliyyatı, 2 milyon 939,2 min tonu və ya 23 faizi dəmir yolu nəqliyyatı, 1 milyon 874,8 min tonu və ya 14,7 faizi dəniz nəqliyyatı ilə daşınıb.

Dəhliz vasitəsilə daşınmış yüklərin 20,3 faizini və ya 2 milyon 586 min tonunu tranzit yüklər təşkil edib.

# TAP qaz boru kəməri layihəsi üzrə işlərin 70 faizi tamamlanıb



Azərbaycan təbii qazını Avropaya daşıyacaq Transadriatik (TAP) Qaz Boru Kəməri layihəsi üzrə işlərin - mühəndis, təchizat və tikinti işləri də daxil olmaqla ümumilikdə 70 faizi yekunlaşıb. Bu barədə boru kəmərinin operatoru olan TAP AG şirkəti məlumat yayıb. Bildirilir ki, TAP 2020-ci ildə Azərbaycan təbii qazını Avropaya nəql etməyə hazır olacaq.

Xatırladaq ki, cari ilin əvvəlində Avropa İnvestisiya Bankının İdarə Heyəti Yunanıstan, Albaniya və Adriatik dənizindən keçərək İtaliyanın təbii qaz şəbəkəsinə qoşulmaq üçün Cənubi İtaliya sahillərinə çıxan TAP boru kəməri üçün 1,5 milyard avro məbləğində maliyyələşdirməni təsdiqləyib. Bank bildirir ki, layihə "Cənub qaz dəhlizi"nin bir hissəsidir və Avropa İttifaqının enerji siyasəti çərçivəsində strateji cəhətdən əhəmiyyətli bir komponent kimi Avropa Şurası, Avropa Komissiyası və Avropa Parlamenti tərəfindən müəyyən edilən təşəbbüsdür.

Qeyd edək ki, boru kəmərinin 765 kilometrlik Yunanıstan və Albaniya hissəsinin 610 kilometrində borular torpağa basdırılıb. Bununla TAP-ın Yunanıstan və Albaniya marşrutunun 80 faizi tamamlanıb. Həmin hissədə torpaq örtüyünün 52 faizi əvvəlki vəziyyətinə gətirilib. Boruların 87 faizi - 670 kilometr boru qaynaq olunub. TAP-ın 215 kilometrlik Albaniya hissəsində isə 150 kilometr boru xəndəyə endirilib.

İndiyədək "Cənub qaz dəhlizi"nə daxil olan layihələrdə "Cənub qaz dəhlizi" QSC-nin mülkiyyətində olan iştirak paylarının maliyyələşdirilməsinə 9 milyard dollar investisiya qoyulub. Bu vəsaitin 0,7 milyard dolları TAP layihəsinə xərclənib.

Boru kəmərinin Adriatik dənizindən keçəcək 105 kilometrlik hissəsinin tikintisini həyata keçirəcək İtaliyanın "Saipem S.p.A" şirkəti hazırda mikrotunel sahələrində çalışır. Burada müvəqqəti yol və sahə hazırlığı tamamlanıb. TAP-ın podratçısı hazırda mikrotunelin tikintisini həyata keçirmək üçün çuxurun qazılması işlərini görür. TAP-ın keçdiyi 3 ölkədə işçilər 61,5 milyon kilometr yol qət edib və 22,5 milyon nəfər-saat iş görülüb. Layihə qrafikə uyğun icra edilir və TAP 2020-ci ilədək Azərbaycanın "Şahdəniz" yatağından ilk qazı almağa hazır olacaq.

Xatırladaq ki, TAP Avropa İttifaqı üçün prioritet enerji layihələrindən olan "Cənub qaz dəhlizi"nin bir seqmentini təşkil edir. Boru kəmərinin təməli 2016-cı il mayın 17-də Yunanıstanın Saloniki şəhərində qoyulub. Layihənin ümumi dəyəri 4,5 milyard avrodur. Buraya 2009-cu ildən bəri davam edən dizayn və mühəndislik işləri də daxildir. "Şahdəniz" konsorsiumu ilk qaz satışını 2018-ci ildə Türkiyəyə və Gürcüstana həyata keçirəcək. Avropaya ilk qazın verilməsi isə bundan təxminən 1 il sonra - 2020-ci ilin əvvəllərində planlaşdırılır.

Boru kəmərinin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olan ilkin layihəsi üzrə biri Yunanıstanın şərqində - Kipoidə, digəri isə Albaniyanın qərbində - Fierdə olmaqla, ümumilikdə iki kompressor stansiyasının tikintisi qrafikə uyğun davam edir. Kompressor stansiyaları ilə yanaşı, həmçinin Albaniyanın şərqində Bilisht regionuna yaxın ərazidə bir ölçmə stansiyasının inşası aparılır. Kompressor və ölçmə stansiyalarının tikintisi təxminən iki il müddətində başa çatdırılacaq. Bundan sonra isə ilkin istismara hazırlıq və tam istismara verilmə üzrə yoxlamalar keçiriləcək. Boru kəmərinin dəniz hissəsi isə 2018-2019-cu illərdə inşa ediləcək.

*"Azərbaycan"*



# «Cənub qaz dəhlizi»nin ehtiyat mənbəyi

## Yaxın aylarda "Şahdəniz-2"dən hasilata başlanacaq

Avropanın enerji xəritəsini dəyişdirən, Azərbaycandan İtaliyayadək 3500 kilometr məsafə qət edən "Cənub qaz dəhlizi"nin (CQD) ehtiyat mənbəyi Xəzərin qoynundakı "Şahdəniz" yatağıdır. CQD layihəsinin həyata keçirilməsində 7 ölkə, onlarca şirkət və qaz alıcısı iştirak edir. Yaxın aylarda layihənin 4 seqmentindən 3-ü istifadəyə veriləcək və dəhlizə "Şahdəniz"in işlənməsinin ikinci mərhələsi çərçivəsində çıxarılan ilk qaz vurulacaq.

"Şahdəniz-1"dən 12 ilə yaxındır qaz və kondensat hasil olunur. "Şahdəniz" qazı Cənubi Qafqaz Boru Kəməri (CQBK) vasitəsilə Azərbaycana və Gürcüstana çatdırılır. Gürcüstan-Türkiyə sərhədində CQBK-ya birləşdirilən əlavə borular qazı Ərzurumadək nəql edir. Odur ki, başlanğıcını Səngəçal terminalından götürən bu xətt bütövlükdə Bakı-Tbilisi-Ərzurum kəməri adlanır.

"Şahdəniz"in kondensatı isə Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinə vurulur. "Şahdəniz" yatağı sahildən təxminən 75 kilometr cənubda yerləşir. Yatağın kəşfiyyatı, işlənməsi və Hasilatın Pay Bölgüsü Sazişi (HPBS) 1996-cı ildə imzalanıb. Saziş Milli Məclis tərəfindən ratifikasiya edilib və həmin il oktyabrın 17-də qüvvəyə minib. Növbəti ildə yataqda üçölçülü seysmik tədqiqatlar aparılıb. 1999-cu ilin iyun ayında burada birinci kəşfiyyat quyusunun qazılması tamamlanıb. Elə həmin il bu yatağın kəşf olunduğu tarix hesab edilir. Ümumiyyətlə, 1997-2001-ci illər ərzində yataqda qazılmış kəşfiyyat-qiymətləndirmə quyuları burada dünya səviyyəli qaz-kondensat yatağının olduğunu təsdiqləyib.

"Şahdəniz" dünyadakı ən nəhəng karbohidrogen yataqlarından biridir. Onun ehtiyatları 1,2 trilyon kubmetr qaz və 240 milyon tondan çox kondensat həcmində qiymətləndirilir.

Keçən il "Şahdəniz-1"dən 10,2 milyard standart kubmetr qaz və 2,4 milyon ton kondensat hasil edilib. Hazırda "Şahdəniz" qurğularının hasilat gücü gündə 30 milyon, ildə təxminən 10,9 milyard standart kubmetrdir. 2007-ci ildən bu il aprelin 1-dək "Şahdəniz" yatağı üzrə əldə olunan gəlirlər 2506 milyon ABŞ dolları təşkil edib.

2013-cü ilin dekabr ayında "Şahdəniz-2"nin işlənməsi üçün də yekun investisiya qərarı verilib. Bundan iki il əvvəl "Şahdəniz" konsorsiumu ikinci mərhələ çərçivəsində Türkiyəyə qazın satılması üçün BOTAŞ şirkəti ilə sazişlər imzalayıb. 2013-cü ilin sentyabr ayında qazın Avropadakı istehlakı üçün 9 şirkətlə belə sazişlərə imza atılıb. Bu sazişlər 25 illik müddəti əhatə edir.

Layihənin Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya və İtaliyada milyonlarla istehlakçıya ildə 16 milyard kubmetr qaz təmin etməsi nəzərdə tutulub. Bu həcmin 6 milyard kubmetri Türkiyəyə nəql ediləcək, 10 milyard kubmetri Avropadakı alıcılara çatdırılacaq.

"Şahdəniz-2"nin ilk qazının nəqli 2018-ci ildə Gürcüstan və Türkiyə üçün nəzərdə tutulur. Avropaya qaz təchizatı 2020-ci ilə gözlənilir.

Ötən müddət ərzində görülmüş işlər "Şahdəniz-2" layihəsinin uğurla irəlilədiyini göstərir. Ölkədəki bütün tikinti-quraşdırma və istehsalat sahələrində - həm dənizdə, həm də quruda, o cümlədən Səngəçal terminalında, Bakı yaxınlığındakı ATA ("AMEK-Tekfen-Azfen") sahəsində, Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda (BDÖZ) irimiqyaslı işlər aparılıb.

"Şahdəniz-2"nin ərazisində quraşdırılmış və bir-birinə körpü vasitəsilə birləşdirilmiş hər iki platforma ilk qaz hasilatı üçün, demək olar, hazırdır. 2017-ci ilin mart ayında platformalardan birinin - Yaşayış Blokları və Texnoloji Təchizat Platformasının dayaq bloku BDÖZ-dən dənizdə quraşdırılmaq üçün yola salındı. Qurğu qısa müddətdə Xəzərdə, "Şahdəniz-2" müqavilə sahəsində uğurla quraşdırıldı.

İyunun əvvəlində həmin platformanın üst modulları da dənizə göndərildi. Prezident İlham Əliyevin qurğunun yola salınması mərasimində iştirak etməsi bu hadisənin əhəmiyyətini bir daha təsdiqlədi.

Üst modulların tikinti işləri tamamlandıqdan sonra onlar "STB-1" barjına yüklənərək ATA-nın yanalma körpüsündəki yükləmə çərçivəsinə qaldırılmışdı. Qurğunun vahid bir konstruksiya kimi daşınması, dayaq blokunun üzərinə yerləşdirilməsi, montajı və quraşdırılması işləri dəqiq planlaşdırılmışdı və bu işlər bir neçə gün ərzində başa çatdırıldı.

Üst modullar Bibiheybətdəki "Azfen" tikinti-quraşdırma sahəsində ATA konsorsiumu tərəfindən inşa edilib. Konstruksiyanın çəkisi 12400 tona yaxındır, uzunluğu 100, eni 60 metrə çatır. Qurğunun yaşayış bloku 100 nəfər üçün nəzərdə tutulub. Burada işçilər üçün yaşayış otaqları, ofis və idman zalları yaradılıb.

Keçən il sentyabr ayının 15-də "Şahdəniz-2" üçün tikilən ikincisi - Hasilat və Dikborular Platformasının da üst modulları daimi yerində quraşdırıldı. Xatırladaq ki, bu qurğunun dayaq bloku BDÖZ-də tikilmiş və 2016-cı ilin sentyabrında Xəzərdəki daimi yerində quraşdırılmışdı.

Bakı Gəmiqayırma Zavodunda inşa edilmiş "Xankəndi" gəmisinin istifadəyə verilməsi "Şahdəniz"in salnaməsində mühüm yer tutur. "Xankəndi" sualtı tikinti gəmisi 11 il "Şahdəniz" yatağında işləyəcək.

Səngəçal terminalında "Şahdəniz-2" üçün nəzərdə tutulan genişləndirmə işləri başa çatıb. İlk qazı qəbul etmək üçün yeni qurğular istismara, demək olar ki, hazırdır.

*Flora SADIQLI,*
*"Azərbaycan"*




Aparılan iqtisadi islahatların qeyri-neft sektorunun inkişafını sürətləndirməsi məlum faktdır. Xüsusilə, son illər aqrar sahəyə göstərilən dövlət qayğısı məhsul istehsalını artırmış, kənd əhalisinin məşğulluğunu təmin etmiş, ölkədə ərzaqla təminatı yerli istehsal hesabına qaydaya salmışdır. İndi kəndlinin problemi yoxdur. Ya ona məxsus pay torpağını əkib-becərir, ya da fermer təsərrüfatında çalışmaqla dolanışığını təmin edir.



# Göygöl bölgədə ikinci sənaye mərkəzinə çevrilir

*Rayonda 21 sənaye müəssisəsi fəaliyyət göstərir*





Əsasən dağlıq ərazidə yerləşən Göygöl rayonunun iqtisadiyyatında aqrar sektor üstünlük təşkil edir. Odur ki, əhali ən çox kənd təsərrüfatı sahələrində cəmləşib. Bu sahədə uğurlar da az deyil. Təkcə cari ilin birinci rübündə keçən ilin müvafiq dövrü ilə müqayisədə 2 milyon 561,4 min manatlıq çox kənd təsərrüfatı məhsulları istehsal edilmişdir.

Heyvandarlıq sahəsində də yüksək göstəricilərə nail olunur. Son məlumata görə, qaramalın sayı 20,4 minə, davarlar 167,3 minə çatmışdır. Ötən ilin müvafiq dövrü ilə müqayisədə süd istehsalı 5,2, ət istehsalı 473,7 ton olmuşdur. Həmişə olduğu kimi, bu sahədə çalışan təsərrüfat sahibləri dövlətin göstərdiyi diqqət və qayğıdan kənarda qalmamışlar. Belə ki, heyvandarlıq sahəsində çalışan hüquqi və fiziki şəxslərə son 4 ildə 50 faiz güzəştlə 174 baş cins mal-qara satılmışdır. Heyvanların cins tərkibinin yaxşılaşdırılması istiqamətində də xeyli iş görülmüşdür. Təkcə bu ilin üç ayında süni mayalanma yolu ilə 113 baş bala alınmışdır. Bundan əlavə, keçən il yanacaq və motor yağlarına, buğda əkininə, toxum istehsalına və mineral gübrələrə görə 2741 nəfərə 1 milyon 129,1 min manat subsidiya verilmisdir. Eyni zamanda, rayonda kənd təsərrüfatı təyinatlı torpaqlardan, xüsusilə də pay torpaqlarından təyinatı üzrə səmərəli istifadə olunmasına nəzarət gücləndirilmişdir.

Son illər Göygöldə ənənəvi kənd təsərrüfatı bitkilərinin istehsalına da diqqət xeyli artmışdır. Şəkər çuğundur sahələrinin həcmi genişləndirilərək 365 hektara çatdırılmışdır.

Rayonda sənaye də inkişaf edir. Hazırda Göygöldə 21 sənaye müəssisəsi fəaliyyət göstərir. Cari ilin 3 ayında bu müəssisələrdə 5 milyon 126,1 min manatlıq məhsul istehsal edilmişdir. Göygöl Şərab Zavodu yenə də öndə gedir. Zavodda istehsal edilən şərab məhsulları dünyanın 10-dan çox ölkəsinə ixrac olunur.

Rayonda həmçinin istehsal və xidmət sahələrinin genişləndirilməsi, sosial obyektlərin tikilməsi, abadlıq və quruculuq işlərinin aparılması istiqamətində həyata keçirilən tədbirlər də davam etmişdir. Artıq çoxmənzilli 8 binada təmir işlərinə başlanmışdır. Qızılqaya qəsəbəsində bir binanın dam örtüyündə və iki binanın fasad hissəsində təmir işləri aparılır. Göygöl-Aşıqlı-Toğanalı və Çaylı-Pənahlılar-Dozular avtomobil yolları yenidən qurulur. Təbii qazla təminata gəldikdə, Kərəmli, Şəhriyar, Qızılca, Yeni Qızılca kəndlərinə qaz xətləri çəkilmiş, qaz - tənzimləyici 30 qutu və 302 siyirtmə əsaslı təmir edilmiş, istismarda olan xətlərinin korroziyaya uğramaması üçün tədbirlər görülmüşdür. Əhalinin içməli su təminatının yaxşılaşdırılması məqsədilə magistral su kəmərində və su mənbəyində təmizləmə işləri aparılmış, şəhər daxilində və Xanlar qəsəbəsində köhnə borular yeniləri ilə əvəz edilmişdir.

Hazırda rayonda 3 klub, müxtəlif idman növü üzrə 267 bölmə fəaliyyət göstərir. Bölmələrdə 3486 gənc məşğul olur. Bu il rayonda 7 yerli, 16 respublika əhəmiyyətli idman tədbiri keçirilmişdir. Göygöllü idmançılar mötəbər yarışlarda fəxri pillənin yüksək yerlərinə çıxmışlar. Bakı şəhərində taekvondo üzrə keçirilən respublika birinciliyində Göygöl şəhər sakini Elvarə Cəlilova 1-ci, Elxan Yusibov 2-ci, Jalə Kazımova 3-cü yeri tutmuşlar. Şəmkir rayonunda oğlanlar arasında keçirilən həndbol üzrə zona yarışlarında isə Göygöl komandası 2-ci yerə layiq görülmüşdür.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

# İnvestorlar üçün azad iqtisadi zona

İsmayıllı rayonunda icrası davam etdiriləcək və yeni start veriləcək layihələr çoxdur və bununla əlaqədar konkret inkişaf planı hazırlanıb, müşavirə və seminarlar keçirilib, konkret hədəflər müəyyən edilib.






Cari il İsmayıllı sənaye məhəlləsində də müəyyən işlərin görülməsi nəzərdə tutulub. Burada investorları cəlb etməklə turizmin, aqrar sektorun, yeni istehsalat müəssisələrinin yaradılması nəticəsində yeni iş yerləri açılacaq. Bu sırada "İsmayıllı" yarımstansiyasının, Quşencə, Aşıqbayramlı, Kürdmaşı və Lahıc qəsəbələrinin elektrik təsərrüfatının yenidən qurulması və müasir tipli SİP kabellərin çəkilməsi, yaşayış məntəqələrində 25 yeni transformatorun quraşdırılması da var. Bu il Lahıc qəsəbəsinin, Qalagah, Soltankənd, Uştal və Ruşan kəndlərinin qazlaşdırılması da nəzərdə tutulur. Hazırda həmin kənd və qəsəbələrdə müvafiq işlər görülür. Quşencə kəndinin bir hissəsi və Zoğallıq kəndinin içməli su ilə təminatını yaxşılaşdırmaq üçün də tədbirlər həyata keçirilir.

Yerli əhəmiyyətli Kürdmaşı-Kəlbənd avtomobil yolunun tikintisi də cari ildə reallaşdırılacaq layihələr sırasındadır.

Bu il İsmayıllı şəhərində üçulduzlu beşmərtəbəli hotelin, Kürdmaşı kəndində "Buta" şirkəti tərəfindən inşa edilən 3000 tonluq soyuducu anbarın, "Azərxalça MMC"nin xalça fabrikinin tikintisi də başa çatdırılacaq. Bu il həmçinin sahibkar və fermerlər tərəfindən 100-dən artıq layihənin icrası nəzərdə tutulur ki, onların reallaşması ilə bölgədə 1500-dən çox yeni iş yeri yaranacaq. Hazırda Kürdmaşı kəndində 12,5 milyon manat dəyəri olan müasir aqropark tikilir. Rayonda balıqyetişdirmə müəssisəsi, tikinti materialları zavodu, kartof cipsi istehsal edən müəssisənin inşası da nəzərdə tutulub. Daha 1000 hektar sahədə fındıq bağlarının salınması, Təzəkənd, Diyallı, Qurbanəfəndi, Topçu, Qalınçaq kəndlərində və İsmayıllı şəhəri ərazilərində 20 hektar sahədə tütün əkilməsi planlaşdırılır. Ötən il 8 min tut tingi əkilib ki, bu da gələcəkdə baramaçılığın inkişafında mühüm rol oynayacaq.

2018-ci ildə istixanaların artırılıb genişləndirilməsi, o cümlədən Topçu, Sumağallı, Aşıqbayramlı, Qarakolluq, Qurbanəfəndi, Talıstan, Diyallı, Qalınçaq, Kürdmaşı kəndi və İsmayıllı şəhəri ərazilərində 60 istixana təsərrüfatının yaradılması gözlənilir. Sənaye üsulu ilə Talıstan və Kürdmaşı kəndlərində 200 hektarda kartof əkiləcək, Quşencə, Kürdmaşı, Cülyan, Gəraybəyli, Aşıqbayramlı, Diyallı kəndlərində 60 hektar sahədə yeni üzüm bağları salınacaq. Lahıc qəsəbəsi, Əhən və Həftəsov kəndlərində arıçılıq təsərrüfatları yaradılacaq. Bunlardan əlavə, 150 hektar sahədə intensiv meyvə bağlarının salınması planlaşdırılıb. Xatırladaq ki, 2017-ci ildə rayonda ümumi məhsul istehsalı faktiki qiymətlərlə 239 milyon 264 min manat olub. Bu da əvvəlki illə müqayisədə 63 milyon 946 min manat çoxdur. Kənd təsərrüfatında 15,5, sənayedə 49, nəqliyyatda 3,5, informasiya və rabitədə 10, ticarətdə 20,6 faiz, tikinti-quraşdırma işlərində 2,1 dəfə artım əldə olunub. Ötən il əsas kapitala investisiya qoyuluşu 85 milyon 275 min 600 manat təşkil edib. Bunun 33 milyon 432 min manatı dövlət mülkiyyəti, 51 milyon 843 min manatı qeyri-dövlət mülkiyyətinə qoyulmuş investisiyadır. Bu göstərici əvvəlki illə müqayisədə 2,3 dəfə çoxdur.

Keçən il rayonda 1071 daimi iş yeri açılıb. İl ərzində Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 20 layihə üzrə 1 milyon 625 min manat məbləğində güzəştli şərtlərlə kredit verilib və 131 yeni iş yeri yaradılıb.

"İsmayıllı Şərab-2" üzüm emalı zavodu ötən il 640 ton üzüm qəbul edib və 700 min şüşə şərab hazırlayıb. Kürdmaşı kəndində fəaliyyət göstərən "İsmayıllı Şərab-1" üzüm emalı zavodu da yenidən qurularaq istifadəyə verilib. Keçən il bu kənddəki aqroparkın birinci mərhələsi çərçivəsində görülən tikinti işləri yekunlaşıb. Ümumi tutumu 2200 ton olan meyvə-tərəvəz soyuducu anbarı isə istismara verilib. Milli su təchizatı və kanalizasiya xidmətləri üzrə 2-ci layihə çərçivəsində təmizləyici qurğu artıq hazırdır.

"Bədo" əlillərin reabilitasiya və bərpa istirahət-sanatoriya mərkəzinin, eləcə də 5 mərtəbəli, 3 ulduzlu yeni hotelin tikintisi isə davam edir.

Bütün bunlar abadlaşan, yeniləşən İsmayıllının uğurlarından və gələcəyə yönəlik layihələrindən xəbər verir. Ona görə də hər bir iş adamı İsmayıllıya gələ və burada iqtisadiyyatın, aqrar sektorun istənilən sahəsinə ürəklə sərmayə qoya bilər. Çünki bunun üçün imkan da var, icra strukturlarının dəstəyi də.

***Əli SƏLİMOV, "Azərbaycan"***

# Dağ rayonunun problemləri həllini tapır

Yardımlının problemləri həmişə olmuşdur. Bu, ilk növbədə, onun relyefi, yolları, iqlim şəraiti ilə bağlıdır. Lakin onun müəyyən üstünlükləri də var. Əsrarəngiz mənzərələri, vüqarlı dağları, təmiz havası, yaşıl meşələri, buz bulaqları, şəlalələri insanın sağlamlığına, zövqünə, ruhuna təsir edir, onda xoş ovqat yaradır. Respublikamızın ərazisindəki məşhur şəlalələrdən biri - Yardımlı şəlaləsi də burada, Masallı-Yardımlı şose yolunun 25-ci kilometrliyindədir.





Cənub bölgəsinə gələn turistlər, qonaqlar təbiətin bu nadir incisinə baş çəkib, ona göz dolusu tamaşa edirlər.

Yazın gəlişi ilə meşələr, yamaclar, talalar yaşıl dona bürünmüşdür. Yarğanların arası ilə Viləş çayı öz ahəngi ilə axıb gedir. Yamaclarda otlayan mal-qara, qoyun-quzu görünür. Yol kənarındakı otlar içərisində dizə çıxan lalələr, gül-çiçəklər xoş təsir bağışlayır. Dağ yamaclarında tikilən yeni yaşayış evlərini gördükcə insanın ürəyi açılır.

Yardımlı şəhərinin girəcəyində, Viləş çayının sahilində inşa edilən bir obyekti xüsusilə qeyd etmək lazımdır. Bu, su anbarıdır. Burada və digər ərazilərdə yığılacaq su rayonun ayrı-ayrı ərazilərində tikilən 50-100 tonluq su anbarlarına vurulacaq, oradan da Yardımlı şəhərinin məhəllələrinə paylanacaq. Su-kanalizasiya layihəsinin icrasını həyata keçirən "Körpü-Bina Tikintisi" şirkətinin inşaatçıları obyekti cari ilin oktyabr ayında istifadəyə verməyi planlaşdırmışlar. Onlar şəhərin ictimai binalarına, yaşayış evlərinə su borularının çəkilişini artıq başa çatdırmışlar. Rayon mərkəzində isə Olimpiya İdman Kompleksi, rayon icra hakimiyyəti üçün yeni bina inşa edilir.

Quruculuq işlərindən danışarkən Cəlilabad-Yardımlı avtomobil yolunun tikintisini xüsusilə vurğulamaq lazımdır. Ölkə rəhbəri İlham Əliyevin 17 sentyabr 2017-ci il tarixli sərəncamı ilə bu yolun tikintisini davam etdirmək üçün əlavə olaraq 3 milyon manat vəsait ayrılmışdır. Hazırda tikintidə işlər öz axarı ilə gedir. Respublika Avtomobil Yolları Dövlət Agentliyinin çox sayda texnikası, işçi qüvvəsi buradadır. Yolun 21 kilometr hissəsində torpaq işləri görülür, suötürücülər qoyulur. Torpaq işləri başa çatdırıldıqdan sonra yola qum-çınqıl örtüyü, sonra 6 metr enində asfalt döşənəcək. Magistralın Cəlilabad rayonu ərazisindən keçən hissəsində asfaltlama işləri başa çatdırılıb. Yol tam hazır olandan sonra yaxınlıqdakı kəndlərə gediş-gəliş rahatlıq və vaxt itkisi baxımından həllini tapacaq.

Regionların sosial-iqtisadi inkişafı dövlət proqramları çərçivəsində Yardımlı da inkişaf etmiş, abadlaşmış, əhalinin sosial rifah halı xeyli yaxşılaşmış, problemlərin həlli istiqamətində ciddi addımlar atılmışdır. Məsələn, rayon mərkəzindən 35 kilometr aralıda yerləşən Arvana kəndinə gedən yol asfaltlanmış, kənd təsərrüfatı sahəsində ehtiyat mənbələrindən istifadəyə, məhsuldarlığın artımına nail olmaq üçün yeni artezian quyusu qazılmışdır. Avaş kəndində müasir tipli məktəb və xəstəxana binası inşa olunmuş, kəndə gedən yol asfaltlaşdırılmışdır. Perimbel kəndinə aparan baş yol yenidən qurulmuş, Gavran kəndində təzə məktəb tikilmişdir. Gavran kəndinə yaxın günlərdə qaz çəkilişinə də başlanacaqdır.

Son bir neçə ildə rayon ərazisində 100 kilometrdən çox avtomobil yolu asfaltlanıb, 10-dan artıq kənd qazlaşdırılıb, 10-dan çox kəndə yeni su xətti çəkilib, artezian quyusu qazılıb, 60-dan çox məktəb tikilib, rayon mərkəzi xəstəxanası əsaslı təmir edilib, təzə kənd xəstəxanaları, həkim məntəqələri, inzibati binalar inşa edilib.

Qeyri-neft sektorunu inkişaf etdirmək, idxaldan asılılığı minimuma endirmək, yeni iş yerləri yaratmaq, daha çox və keyfiyyətli kənd təsərrüfatı məhsulları istehsal etməklə ölkəmizə gələn valyutanın çoxalmasını təmin etmək sahəsində dövlət başçısının qarşıya qoyduğu mühüm vəzifələr Yardımlıda da uğurla həyata keçirilir. Uzun illərdən bəri unudulmuş sahələri dirçəltmək üçün əməli tədbirlər görülür. Belə ki, keçən il 42 hektarda sahədə tütün plantasiyası, 68 hektar fındıq bağı salınmışdır. Hər iki sahənin bu il xeyli genişləndirilməsi nəzərdə tutulmuşdur. Cari ildə 50 hektarda tütün əkiləcəkdir. Rayona "Verciniya" tütün növünün toxumları gətirilmiş və əvəzsiz olaraq fermerlərə, torpaq mülkiyyətçilərinə paylanmış, şitilliklər salınmışdır.

Kartof istehsalına da rayonda maraq artmışdır. Dəmyə şəraitində yetişdirildiyindən Yardımlı kartofu dadlı və ekoloji cəhətdən də çox təmizdir. Elə buna görə də qonşu rayonların və Bakının bazarlarında yaxşı qiymətə satılır. Keçən il rayonda 890 hektar sahədən 7 min 590 ton məhsul əldə olunmuşdur. Yardımlılılar bu il daha çox kartof əkmişlər. Rayonun Alar, Peştəsər, Kürəkçi, Arvana, Avaş, Deman və digər kəndlərində daha çox kartof yetişdirilir.

Cari ilin məhsulu üçün 3 min 418 hektarda dənli bitkilər əkilmişdir. Əkin sahələrinin 3 min 270 hektarı buğda, 148 hektarı arpadır. Yaz-tarla işlərinə 40-a yaxın texnika cəlb edilmişdir. Yazlıq əkinlər, əsasən, kartof, noxud, sarımsaq, mərcidir.

Heydər Əliyev Fondunun Regional İnkişaf Birliyi tərəfindən rayonda intensiv bağların və bostançılıq təsərrüfatlarının yaradılması da nəzərdə tutulmuşdur. Bu məqsədlə Ərus və Gavran kəndlərində 1,5 hektar sahədə üzüm tingi əkilmişdir.

Rayonda heyvandarlıq da inkişaf etdirilir. Cari ilin birinci rübündə qaramalın, davarların sayı xeyli artmışdır. Ət istehsalı 651,8 ton, süd istehsalı 469 ton, yumurta istehsalı 1 milyon 893 min ədəd olmuşdur. Qaramalın cins tərkibinin yaxşılaşdırılması üçün aparılmış süni mayalanma nəticəsində 27 baş buzov alınmışdır. Hər baş buzov üçün fermerlərə 100 manat subsidiya ödəniləcəkdir.

***Seyran CAVADOV, "Azərbaycan"***

Ölkəmizdə həyata keçirilən islahatlar əldə olunan nailiyyətlərin sayını artırır. İqtisadiyyat şaxələnir, qeyri-neft sektoru inkişaf edir. Həyata keçirilən layihələr regionlarda sosial infrastrukturun müasir standartlara uyğun yenidən qurulmasını təmin edir. Bu imkanlardan maksimum istifadə edilməsi sayəsində bölgələrin siması dəyişir, yeni açılmış müəssisələr hesabına həm işsizlik ləğv edilir, həm də sosial problemlər aradan qalxır.



# Şəhər və qəsəbələrdə abadlıq, kəndlərdə yaz-tarla işlərinin qızğın çağıdır

İqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edən Goranboyda son illər qazanılan uğurlar imkan verir ki, rayonun infrastrukturunda başlanan yenidənqurma işləri bundan sonra da davam etdirilsin. İndi Goranboyun hansı bölgəsinə yolu düşən olsa, aparılan abadlıq və quruculuq işlərinin şahidinə çevrilər. Küçə və prospektlərdə, yaşayış məhəllələrində görülən işlər rayonun simasını dəyişməklə yanaşı, istər sakinlərdə, istərsə də rayona gələn qonaqlarda xoş ovqat yaradır.

Bir sözlə, əvvəlki illərdə olduğu kimi, yenidənqurma işləri cari ildə də davam edir. Hazırda dövlət başçısının sərəncamı ilə ayrılmış vəsait hesabına mərkəzi rayon xəstəxanası üçün yeni binanın, Olimpiya İdman Kompleksinin tikintisi sürətlə aparılır. Rayonda sahəsi 750 kvadratmetr olan Bayraq muzeyi və xalça sexi də tikilir. Bu günlərdə isə Ailə və Uşaqlara Dəstək Mərkəzinin tikintisinə başlanacaq.

Yol infrastrukturu da yenilənir. Son 8 ildə rayonda 130 kilometrdən artıq yol yenidən tikilmişdir ki, bu da rayonda mövcud olan kəndarası yolların 82 faizi deməkdir. Dəlimməmmədli-Muzdurlar-Qırıqlı avtomobil yolunun tikintisi başa çatmaq üzrədir. Dəlimməmmədli-Quşçular-Fəxralı-Alpout-Qurbanzadə avtomobil yolunun tikintisi isə davam edir.

Rayon ərazisində çoxmənzilli 28 yaşayış binası var. Həmin binaların 11-ində 2016-cı ildə, 12-sində isə keçən il təmir işləri başa çatdırılmışdır. Hazırda Goran qəsəbəsində 3 binanın fasad hissəsi suvaqlanır. Yaxın günlərdə 20-dək kommunal evlərin dam örtüklərinin yenilənməsi işlərinə başlanacaq. Bundan başqa, rayon mərkəzində 3 binanın yenidən tikilməsi üçün hazırlıq işlər görülür.

Rayonun kənd və qəsəbələrində də abadlıq-quruculuq işləri aparılır. Ümumilikdə keçən il və bu ilin ötən dövrü ərzində AZKİL təşkilatı ilə birlikdə 12 layihə həyata keçirilmişdir. Bu layihələrin 6-sı yol təmiri, 5-i icmanın abadlaşdırılması, 1-i isə suvarma sistemlərinin təmiri ilə bağlıdır. 5 kənddə 53,5 kilometr kəndarası yollar, Ağamalıoğlu-Baxçakürd-Dəyirmanlar yolu yenidən qurulmuş, 6 avtobus dayanacağı quraşdırılmışdır. Bəşirli, Qırıqlı, Xoylu, Muzdurlar və Nadirkənd qəbiristanlıqlarının ətrafına hasar çəkilmiş, ərazidə abadlıq işləri aparılmış, su xətti çəkilmiş, bulaqlar tikilmişdir.

Keçən il rayonda açılmış ictimai iş yerlərində 524 nəfər aztəminatlı rayon sakini işlə təmin edilmişdir. Onlardan 76 nəfəri kommunal sahədə, 16 nəfəri isə çoxmənzilli yaşayış binalarının təmirində çalışır. Cari ildə bu istiqamətdə daha 335 yeni ictimai iş yeri açılacağı gözlənilir.

Göranboyun aqrar sahədə də nailiyyətləri çoxdur. Pambıqçılıq, tütünçülük, baramaçılıq və digər sahələrin inkişafı ilə bağlı tədbirlər görülür. Goranboy və Samux rayonlarının inzibati ərazilərində yerləşən "Boz dağ" massivində yaradılan Goranboy Aqroparkının fəaliyyətə başlaması üçün tədbirlər həyata keçirilir. Artıq əraziyə Şəmkir maşın kanalından 12,1 kilometr su xətti çəkilmiş, su anbarları inşa edilmiş, müasir suvarma qurğuları yaradılmış, 14 kilometr yüksək gərginlikli elektrik xətti çəkilmiş, transformator quraşdırılmışdır. Ərazidə meyvə bağları da salınmışdır. Yaxın gələcəkdə burada taxıl, şəkər çuğunduru və bəzi texniki bitkilərin əkilməsi, emal müəssisələri və soyuducu anbarların inşası nəzərdə tutulub. Aqroparkda 500 nəfər üçün yeni iş yeri açılacağı gözlənilir. Hazırda aqroparkın tikintisində 100 nəfər çalışır.

Goranboy sudan korluq çəkən rayonlar sırasındadır. Odur ki, mövcud su ehtiyatlarından səmərəli istifadəyə ciddi nəzarət olunur. Keçən il Şəmkir maşın kanalı vasitəsilə Dəlimməmmədli şəhəri ərazisinə suvarma suyu verilmiş, kanalın üstündə yerləşən 8 kənddə su təminatı qaydaya salınmışdır. Bu il kanalın Nadirkənd kəndinədək 7 kilometr hissəsinin istifadəyə verilməsi nəzərdə tutulur. Bundan başqa, 16 yaşayış məntəqəsində 19 subartezian quyusu qazılacaq. Həyata keçiriləcək bu tədbirlər fermerlərin suvarma suyu ilə təminatını qismən də olsa həll edəcək.

Goranboyda istixanalara maraq böyükdür. Hazırda rayonda ümumi sahəsi 50 min kvadratmetrdən çox olan 17 istixana fəaliyyət göstərir. Həmin istixanalarda il ərzində 800 tona yaxın faraş məhsul yetişdirilir, bir hissəsi xarici ölkələrə ixrac olunur. Hazırda pomidor yığılır. Hər gün yüz tonlarla pomidor Rusiyaya və digər MDB ölkələrinə göndərilir. Məhsulun göndərilməsində iş adamları "Azexport" portalından istifadə edirlər.

***S.ƏLİYEV, "Azərbaycan"***

# Bakıda "Tahir Salahovun xalça dünyası. Portretlər" adlı sərgi açılıb



Azərbaycan Xalça Muzeyində "Tahir Salahovun xalça dünyası. Portretlər" adlı sərgi açılıb.

Muzeydən AZƏRTAC-a bildirilib ki, sərgi çərçivəsində xalq rəssamı Tahir Salahovun müəllifi olduğu bir neçə rəngkarlıq əsərlərinin əsasında əməkdar rəssam Taryer Bəşirovun texniki layihəsi və rəhbərliyi ilə toxunan xalçaların təqdimatı olub.

Tədbirin ulu öndərin 95 illiyi çərçivəsində keçirildiyini deyən muzeyin direktoru Şirin Məlikova bildirib ki, dünyada ilk dəfə olaraq ən zəngin və güclü xalçaçılıq ənənələrinə malik Xalça Muzeyinin yaranması da Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycanda muzey işinin inkişafında ümummilli liderin xidmətlərini xatırladan Ş.Məlikova, bu gün Xalça Muzeyi və ümumilikdə xalçaçılıq sənətinin Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın daima diqqətində olduğunu söyləyib.

Ş.Məlikova xalq rəssamının əsərlərinin dünyanın nüfuzlu muzeylərində və rəsm qalereyalarında mütəmadi olaraq nümayiş olunduğunu diqqətə çatdırıb. O qeyd edib ki, rəhbəri olduğu muzeyin də ekspozisiyasında görkəmli rəssamın məşhur əsərlərini görmək mümkündür.

"Bu möhtəşəm tablolar xalça sənəti dilinə köçürülmüş yeni əsərlərdir. Artıq bir neçə ildir ki, Tahir Salahov bu sahədə yeni eksperimentlər edir. O, hər zaman yorulmadan yeni üfüqləri kəşf edən yaradıcı şəxsiyyətdir. Xalça da artıq onun yaradıcılığında öz yerini tutmağa başlayır", - deyə muzeyin direktoru vurğulayıb. O, yeni xalçalarını muzeyə təqdim etdiyi üçün Tahir Salahova təşəkkürünü bildirib.

Tədbirdə çıxış edən mədəniyyət naziri Əbülfəs Qarayev sənətkarın yaradıcılığını yüksək qiymətləndirərək onun əsərlərinin dünyanın bütün nüfuzlu muzey və qalereyalarında sərgiləndiyini, eyni zamanda, yeni əsərlərinin böyük marağa səbəb olduğunu vurğulayıb.

Ə.Qarayev ümummilli lider Heydər Əliyevin hər zaman mədəniyyətimizin və milli ənənələrimizin təbliğinə yüksək qiymət verdiyini və bu gün də bu ənənələrin yaşadığını diqqətə çatdırıb.

Xalça Muzeyinin baş rəssamı, əməkdar rəssam Taryer Bəşirov görkəmli rəssamın əsərlərindən ilhamlanaraq yaratdığı xalçaların ərsəyə gəlməsindən, təqdim olunan xalçaların bədii xüsusiyyətlərindən söz açıb. Bildirib ki, buraya ulu öndərin Heydər Əliyev Fondunda saxlanılan portretinin reproduksiyası, Maqsud İbrahimbəyov və Koroğlu portretləri daxildir.

Sonda çıxış edən xalq rəssamı Tahir Salahov hər bir əsərinin yaranma tarixçəsindən danışıb, sərgiyə təqdim olunan xalçaların özünəməxsus keyfiyyətlərindən bəhs edib. Bununla yanaşı, Tahir Salahov ulu öndərin xatirəsini ehtiramla yad edərək onunla bağlı xatirələrini bölüşüb. Xalq rəssamı tədbirin təşkilinə görə nazirliyin və muzeyin rəhbərliyinə minnətdarlığını bildirib.

Sonra tədbir iştirakçıları sərgi ilə tanış olublar.

Sərgidə ümummilli lider Heydər Əliyevin, bəstəkar Fikrət Əmirovun, xalq yazıçısı Maqsud İbrahimbəyovun və xalq qəhrəmanı Koroğlunun portretləri toxunan xalçalar nümayiş olunub.

# Penitensiar Xidmətin əməkdaşları və məhkumlar ağacəkmə aksiyasında iştirak ediblər



Ədliyyə Nazirliyinin Penitensiar Xidməti ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü ilə əlaqədar tabeli qurumlarda və ətraf ərazilərdə genişmiqyaslı abadlıq işləri təşkil edib. Xidmətin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, həyata keçirilmiş kütləvi iməcilik çərçivəsində Penitensiar Xidmətin əməkdaşları və məhkumlar tərəfindən tabe qurumların həyətyanı sahələri təmizlənib, abadlaşma işləri görülüb. Eyni zamanda, ətraf ərazilərdə minlərlə yeni ağac əkilib.

Ətraf mühitin mühafizəsi məqsədilə keçirilən aksiyada ədliyyə nazirinin müavini - Penitensiar Xidmətin rəisi, ədliyyə general-mayoru Ceyhun Həsənov və xidmətin məsul əməkdaşları iştirak ediblər.

# Ermənistan silahlı qüvvələrinin bölmələri iriçaplı pulemyotlardan istifadə etməklə atəşkəs rejimini 87 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 87 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Noyemberyan rayonunun Voskevan, İcevan rayonunun Berkaber kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Aşağı Əskipara, Qızılhacılı kəndlərində, Berd rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Qaralar kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altındakı Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz və Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# Naxışlara dönən ilmələrin sehri

Prezident İlham Əliyevin Xalçaçı Gününün təsis edilməsi haqqında sərəncamından sonra artıq ikinci dəfədir ki, ölkəmizdə bu nadir peşə ustaları may ayının 5-ni peşə bayramı kimi qeyd edirlər. Xalçaçılıq sənəti ilə bağlı ilk tədbir Bakıda 35 il əvvəl - 1983-cü ildə UNESCO-nun himayəsi ilə keçirilmişdir. Sonralar bu qurumun baş qərargahında - Parisdə görkəmli xalçaçı-rəssam Lətif Kərimovun 100 illiyinə həsr edilmiş simpozium keçirilmişdir. Onu da demək lazımdır ki, hələlik ölkəmiz dünyada Xalçaçı Gününü bayram kimi qeyd edən yeganə ölkədir.



1978-ci ildən Londonda nəşr edilən geniş oxucu auditoriyasına malik olan "Halı" jurnalı Azərbaycan xalılarını diqqətdən kənarda qoymamış və hətta onlara xüsusi nömrə də həsr etmişdir. Azərbaycan xalçasının dünyaya çıxışından, getdikcə şöhrətlənməsindən söz düşəndə isə ilk öncə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın uzun illər ərzindəki gərgin əməyini mütləq qeyd etmək lazımdır. Belə ki, məhz onun sayəsində Azərbaycan xalça sənəti bu gün dünya mədəniyyətinin nailiyyətlərindən biri kimi UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmişdir. Artıq ölkəmiz dünyada aparıcı xalçaçılıq mərkəzlərindən biri kimi tanınır və xalçaçılıqla bağlı beynəlxalq tədbirlərə evsahibliyi edir, xalçaçılıq elminin inkişafına yeni töhfələrini verməkdə davam edir. Ölkəmizdə getdikcə sayı artan xalçaçı alimlər dünyanın nüfuzlu tədqiqatçıları ilə yeni münasibətlər qurur, birgə araşdırmalar aparırlar.

Dünyanın 30-dək muzeyində Azərbaycan xalçaçılıq sənətinin ən qədim nümunələri saxlanılır. Artıq Azərbaycan xalçalarına dünyanın ən güclü tədqiqatçıları kitablar həsr edir, onun dünya düzənində təbliği ilə ciddi məşğul olurlar. Bizim xalçaların dizaynı və rəngi, təsviri incəsənətdə və memarlıqda xalça nümunələri və bir sıra başqa mövzular araşdırmaçı alimlərin diqqət mərkəzindədir. Dünyanın aparıcı mütəxəssisləri belə hesab edir ki, Azərbaycan xalçası mahiyyət etibarilə dərin fəlsəfi məzmuna malik olub mədəniyyətimizin, tariximizin, adət və ənənələrimizin, inanclarımızın ayrılmaz bir hissəsini təşkil edir. Həqiqətən də xalılarla toylarımızda mağarlar bəzədilib, dünyasını dəyişəni son mənzilə yola salıb, ən əziz qonağın da şərəfinə yerə ən gözəl xalça sərilib. Anadan olan uşaqların, gəlin köçəcək qızların, dünyaya gələn uşağın adına da xalçalar toxunub. Elçilərin ayağına atmağa, məscidlər və toy mərasimləri üçün fərqli xalçalar toxunardı.

Xalça xalqımızın keçmişi, müasir mədəniyyəti, tarixi ilə bağlı olan, gözəlliyi və mürəkkəbliyi ilə hamının diqqətini cəlb edən xüsusi məhsuldur. Ona görə ki, xalılar dastanlarımızın, nağıllarımızın ayrılmaz hissəsi kimi bizim başqalarından seçilməyimizə kömək edir. Şimal xalqlarının nağıllarında özü açılıb-yığılan süfrə, möcüzəli soba yer alır. Bu nağılların qəhrəmanları açılıb-yığılan sehrli süfrədə yeyib-içir, sobanın üstündə yatırlar. Biz nağıllarımıza naz-nemətlə açılan sehrli süfrələri yox, uçan xalçaları, qaranlıqdan aydınlığa qanadlanan simurq quşunu gətirmişik. Onu da etiraf etmək lazımdır ki, xalçaların uçması ilə bağlı dünyanı dolaşan əfsanələrin sayı-hesabı yoxdur. Bu mövzu indinin özündə belə sevilən, araşdırılan mövzudur. Qədim əfsanələrə isə ən çox Şərq ədəbiyyatında rast gəlinir. Uçan xalçalar "Min bir gecə" kitabından dünyaya qanad alır. Disney qəhrəmanı Ələddinin sehrli xalçası, Qoca Xottabın sehrli nəqliyyatı kimi.

Bütün bunlara baxmayaraq, xalçanı yalnız keçmişin atributu saymaq müasir dizayn və interyer haqqında heç bir anlayışa malik olmamaq deməkdir. Bu gün xalılar həm Şərqdə, həm də Qərb ölkələrində getdikcə dəbə minən dizayn elementi kimi istifadə olunur. Avropanın, digər Qərb dövlətlərinin ən məşhur dizaynerləri əldə toxunan xalılardan interyerin bəzədilməsində istifadə edirlər. Prada, Quççi, Fendi kimi dəb evləri xalça istehsalı ilə məşğuldurlar. Bu o deməkdir ki, xalçanın mövqeyi dünya bazarında güclənir və bu rəqabət getdikcə artır, alıcı uğrunda mübarizə gedir.

Xalça 100 faiz natural məhsul sayılır və onun toxunuşunda, sapların rənglənməsində yalnız təbii komponentlər istifadə olunur. Amma holland üçlüyü We Make Carpets isə sərgilər və muzeylər üçün nədən oldu - makarondan, plastmas qaşıqlardan belə xalı "toxuyur".

Azərbaycan xalçaçıları bu bazarda yerini möhkəmlətmək üçün bilməlidirlər ki, xalçalar dünyada bizdən fərqli olaraq ağla batmayan məqsədlər üçün istifadə edilir. Xalılar böyük konsertlərdə akustika üçün istifadə edilir, həm də saatlarla səhnədə rəqs edən və oxuyan müğənnilərin təhlükəsizliyini təmin edir, onlara özlərini nisbətən rahat, evdəki kimi hiss etməyə imkan yaradır. Elə rok musiqiçiləri var ki, sevimli xalılarını dünya turnelərinə özləri ilə aparırlar.

Xalçaların divara vurulması da dünyada ciddi müzakirə olunan mövzulardandır. Xristianlar belə düşünürlər ki, Şərq üçün xalça xristian üçün divardan asılan ikona qədər müqəddəsdir. Artıq Qərbdə də xalçaların divara vurulması dəbə minir. Bu, ola bilər ki, bir tərəfdən müsəlmanların Qərb ölkələrinə artan mühacirətləri ilə bağlıdır. Amma bundan başqa Qərb dizaynerləri öz avropalı sifarişçilərinə də divarlarındakı rəsm əsərlərini xalça ilə əvəz etməyi təklif edirlər. Bir sıra xarici ölkələrdə kiçik xalçaları mətbəxə, qabyuyanın qarşısına da döşəyir, mətbəxdə yemək stolunun altına da xalça salırlar.

Xalçalar qədimdə şahların, dini liderlərin və varlı adamların ayaqları altına mərasimlərdə döşənərdi. Amerikalı şoumen ilk dəfə 1922-ci ildə "Robin Qud" filminin premyerasında xalça döşəmişdi. O zamandan xalça "ulduz" dünyasında bütün film mərasimlərinin ayrılmaz hissəsidir. Xalçalar həmçinin teatr və filmlərdə də istifadə olunur.

Bütün bunlar o deməkdir ki, dünyanın xalça bazarını ələ keçirməkdən ötrü hələ Qərb xalçaçılarının rəqabəti qızışır. Lakin bizim xalçalarda naxışların gözəlliyi, ilmələrin sıxlığı, rəsmlərin ecazkarlığı Avropanın ən tələbkar alıcısının belə qəlbini asanlıqla fəth etmək gücünə qadirdir. Ona görə ki, avropalıya nisbətən xalça bizim üçün min dəfə müqəddəsdir. Bütün bunlar belə qənaətə gəlməyə imkan verir ki, bizim xalçalar öz əsrarəngiz gözəlliyi ilə dünyanı heyrətə salmaq, alıcıların qəlbini naxışların sehri ilə fəth etmək gücünə qadirdir.

Yaponlarda foto və video, ispanlarda geyim, almanlarda texnika və maşınlar, ingilislərdə bağ avadanlığı, ABŞ-da şoular qüsursuzdur. Hər bir xalq nəyin vurğunudursa, onu da irəli aparmaq gücünə qadirdir. Xalçaya gəldikdə isə, bizim rəqiblərimiz qat-qat zəifdir.

Bu gün Azərbaycan xalçaları Şərq xalçaçılıq sənətinin ən möhtəşəm və məşhur qollarından biridir. Bizim xalça məmulatlarının geniş heyrətamiz çeşidləri mövcuddur: məfrəş, xurcun, heybə, taxtüstü, yəhərüstü, duz torbası, çul, örkən, çömçədan, yun corablar, pərdələr. Xovsuz məişət xalçalarına çətən, həsir, palaz, kilim, ladı, zili, vərni, sumax və s. aiddir. Xovlu xalçalara isə yerə döşənən və divardan asılan xalçalar, gəbələr, dəst xalı-gəbələr aiddir. Süjetli xalçalar da Azərbaycan xalçaçılıq məktəbinin ayrı bir qoludur. Regionlarda müxtəlif xalçaçılıq məktəbləri mövcuddur. Xalçaçılıq sənət sahəsi kimi həm coğrafi mövqeyinə, həm də naxış, kompozisiya, rəng həlli və texniki xüsusiyyətlərinə, istehsalına görə şərti olaraq 7 xalçaçılıq məktəbinə bölünür: Quba, Abşeron, Şirvan, Gəncə, Qazax, Qarabağ və Təbriz xalçaçılıq məktəbləri. Bu məktəblərin hamısı bir-birindən fərqlənir.

Prezident İlham Əliyev xalçaçılığın xalqımızın ən qədim sənət növü kimi geniş təbliğ edildiyini vurğulayır və bu istiqamətdə görülən işləri belə qiymətləndirir: "Azərxalça" yaradılıbdır, 13 şəhərdə yeni xalça kombinatları yaradılır. Onlardan birinin açılışında mən özüm olmuşam - Füzuli rayonunda. Qalan xalça fabrikləri bu il istifadəyə veriləcək. Bu, minlərlə iş yerinin yaradılması deməkdir və bu, bizim gözəl ixrac potensialımızdır". Bu həm də o deməkdir ki, Azərbaycan xalçaçıları dünya bazarında rəqabətə qoşulmağa hazırdır və qələbələrinə də əmindirlər. Əmindirlər ona görə ki, onların arxasında Azərbaycan dövlətinin maddi və mənəvi dayağı durur.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Ermənistanda hakimiyyət böhranı: N.Paşinyan baş nazir ola biləcəkmi?

*İşğalçı ölkə yeni vətəndaş müharibəsi astanasındadır*

Ermənistanda son proseslər qarşıdakı günlər ərzində bu ölkədə ictimai-siyasi vəziyyətin hələ də gərgin məcrada inkişaf edəcəyini göstərir. Yayılan məlumatlardan, verilən rəsmi açıqlamalardan belə bəlli olur ki, hakimiyyətdə yer alan qüvvələr mayın 8-də ölkədə yeni baş nazirin seçilməsinə mane olmayacaqlar.

Xatırladaq ki, mayın 1-də Ermənistan parlamentində keçirilən baş nazir seçkiləri nəticəsiz başa çatıb. Baş nazirliyə yeganə namizəd olan "Yelk" fraksiyasının lideri Nikol Paşinyan lazım olan 53 səsi toplaya bilməyib. Bundan sonra Paşinyanın liderliyi altında kütləvi aksiyalara yenidən start verilib. Etirazçılar hakim Respublika Partiyasının tamamilə istefa verməsi tələbi ilə çıxış ediblər.



## Ermənistan iflic vəziyyətə düşüb

Ümummilli tətilin başlanması ilə Ermənistan iflic vəziyyətə düşüb. Bundan sonra hakim partiya geri addım atıb. Respublika Partiyasının parlament fraksiyasının başçısı Vaqram Baqdasaryan bildirib ki, onlar yeni baş nazirin seçilməsinə qarşı çıxmayacaqlar: "Ermənistanın hakim Respublika Partiyası baş nazir vəzifəsinə öz namizədini irəli sürməyəcək, ancaq əmin edir ki, ikinci turda hökumət başçısı seçiləcək. Ermənistan mayın 8-də baş nazirə malik olacaq. Ermənistanın Respublika Partiyası bu posta öz namizədini irəli sürməyəcək və parlamentin üçdəbirinin irəli sürdüyü namizədi dəstəkləyəcək". O, həmçinin Ermənistanda etiraz aksiyalarının iştirakçılarını yolları və magistralları bloklamağa son qoymağa çağırıb.

Ermənistan parlamentinin spikeri Ara Babloyan da eyni mövqedən çıxış edərək bildirib ki, Ermənistanda növbəti baş nazir seçkiləri 8 may tarixinə təyin edilib: "Ermənistan parlamentinin reqlamenti haqqında" qanunun 140-cı maddəsinin 3-cü müddəasına uyğun olaraq, baş nazir seçkiləri mayın 8-də saat 12:00-da parlamentin xüsusi iclasında keçiriləcək".

## Paşinyan mitinqlərin müvəqqəti dayandırıldığını bildirdi

Baş verənlərlə bağlı baş nazir səlahiyyətlərini icra edən Karen Karapetyan da öz mövqeyini açıqlayıb. O bildirib ki, Ermənistanın baş nazirini yalnız parlamentdə seçmək olar: "Bütün siyasi qüvvələrə iradə, qətiyyət və çeviklik nümayiş etdirmək, danışıqlar masasına əyləşmək barədə çağırış edirəm. Nə qədər çətin görünsə də, biz hamımız siyasi böhranı aradan qaldırmaq üçün sivil və praktik həllərin lazım olduğunu anlayırıq. Baş naziri konstitusiya yolu ilə yalnız parlamentdə seçmək olar. Nəzəriyyə və təcrübədə digər həll yolu yoxdur. Əminəm ki, ümumi qüvvə ilə bizim ölkəmiz bu sınağın öhdəsindən gələcək".

Bütün bunlardan sonra Nikol Paşinyan Yerevan və digər şəhərlərdə mayın 3-də keçirilməli olan mitinqin ləğv edildiyini bildirib. Onun sözlərinə görə, hazırkı məqamda baş nazirliyə namizəd irəli sürmək üçün deputatlardan üçdəbirinin imzası lazımdır: "Mən "Çiçəklənən Ermənistan" Partiyasının lideri Tsarukyanla görüşdüm, "Daşnaksütyun" fraksiyasının rəhbəri Rüstəmyanla müzakirə apardım. Yenidən baş nazirliyə namizədliyimi irəli sürürəm".

Paşinyan onu da deyib ki, bundan əvvəl Respublika Partiyası parlamentdə müzakirə ilə 3 hədəf seçmişdi: "Respublika Partiyası ümid edirdi ki, mayın 1-də parlamentdə olan sual-cavablarda nəsə baş verəcək və xalq fikrini dəyişəcək. Bu plan baş tutmadı. Onlar ümid edirdilər ki, seçki baş tutmayandan sonra insanlar qəzəblənəcək və onlar provokasiya təşkil edə biləcəklər. Bu da alınmadı. Respublika Partiyası xalqın məyus olacağını və bu səbəbdən aksiya iştirakçılarının sayının azalacağını da hesablayırdı. Bu da baş vermədi, əksinə, yeni aksiya müqayisəyəgəlməz oldu. Ölkədə bircə dənə açıq yol qalmadı".

## Hakimiyyət ordunu tədricən küçələrə çıxarır

Parlament fraksiyaları olan "Yelk", "Daşnaksütyun" və "Tsarukyan" bloku Paşinyanın baş nazir vəzifəsinə namizədliyini irəli sürüb. Belə gözləmək olar ki, Paşinyan mayın 8-də baş nazir vəzifəsini tutacaq.

Amma məlumatlar da yayılır ki, hakim düşərgə həmin vaxta qədər Paşinyana qarşı daha sərt addımlar atmağı düşünür. Məsələn, artıq Ermənistan hakimiyyəti ordunu tədricən küçələrə çıxarır. Paytaxt yaxınlığında yerləşən ordunun xüsusi təyinatlı dəstələri hazır vəziyyətə gətirilib. Son məlumata görə, Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ bölgəsində yerləşdirilmiş erməni hərbi birləşmələrinin bir hissəsi də Yerevana doğru yola çıxıb.

Azərbaycanın işğal olunmuş ərazilərində yerləşən 538-ci motoatıcı briqada və 18-ci motoatıcı diviziyanın bölmələri Kəlbəcər-Vardenis-Sevan-Yerevan və Cəbrayıl-Gorus-Vedi-Yerevan marşrutları üzrə Ermənistan istiqamətində hərəkətə başlayıb.

Ehtimallara görə, parlamentin yeni iclasında Nikol Paşinyanın seçilməsinə mane olmağı düşünən Respublika Partiyası Ermənistanı bürüyəcək yeni etiraz aksiyalarını yatırmaq üçün gücə əl atacaq.

## "Respublika Partiyası xalq arasında nüfuzunu tamam itirib"

Erməni politoloq Ovannes İgidyan bunun dəhşətli nəticələrə gətirib çıxaracağını bildirir: "Respublika Partiyası xalq arasında nüfuzunu tamam itirib. Bu partiya səsverməsi ilə partiya olmadığını və orada öz maraqları naminə böyük nəzarət altında toplandığını göstərdi. Bu, bir növ, alternativ fikrin olmadığı köhnəlmiş kommunist partiyasıdır. Ermənistanda bütün xalq, hətta pul alaraq seçkidə Respublika Partiyasına səs verən insanlar belə ayağa qalxıb və müxalif lideri baş nazir görmək istəyir. Bununla Respublika Partiyasının 800 min səs topladığı barədə əfsanə partladı. Bu balon da eynən respublikaçı Karen Avaqyanın oddan təhlükəli qazla dolu balonlarının partladığı kimi partladı. Hesab etmirəm ki, Respublika Partiyasının 58 deputat üzvü arasında öz ağlı ilə hərəkət edən və hər hansı bir şey barədə düşünə bilən heç olmasa bir nəfər var. Onlara millət vəkili olmayan bir nəfər rəhbərlik edir. Hərçənd artıq rəhbərlərin 2 nəfər olması da istisna deyil. Söhbət Serj Sarkisyan və Robert Koçaryandan gedir. İndi onlar qərar qəbul edirlər. Ancaq Respublika Partiyası hazırda Ermənistanda qurban masasına nəyin qoyulduğunu aydınlaşdırmaq üçün ağlını itirib. Hesab edirəm ki, Respublika Partiyasının rejissorları öz növbəsində parlamentin buraxılması və təyin olunmuş vaxt ərzində öz resurslarından istifadə edərək yenidən parlamentə daxil olmaq üçün revanş şəklində vaxtı gecikdirəcəklərini düşünürlər".

O qeyd edib ki, bu ssenari keçməyəcək, xalq heç bir halda buna imkan verməyəcək: "Ancaq çox təəssüf ki, Ermənistan bu prosesin ədalətli həll ehtimalının olduğunu bütün dünyaya göstərmək şansını itirdi. Həmin 58 millət vəkili beynəlxalq arenada erməni xalqının çətin vəziyyətdə məntiqli qərar qəbul edə bilmədiyi təəssüratını yaradaraq Ermənistanı rüsvay etdi".

İndilikdə isə Respublika Partiyasının mayın 9-na yeni hazırlıqlar görməsi Ermənistanda vətəndaş qarşıdurmasını istisna etmir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Faşizm üzərində qələbədə azərbaycanlıların xüsusi rəşadəti olub

## *Bu münasibətlə DSX-nin Sahil Mühafizəsində keçirilən tədbirdə həmin illərə yenidən işıq salınıb*





Dövlət Sərhəd Xidmətinin bütün hərbi hissə və bölmələrində faşizm üzərində qələbənin 73-cü ildönümünə həsr olunmuş silsilə tədbirlər keçirilir. Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsində keçirilən tədbirdə Müharibə, Əmək və Silahlı Qüvvələrin Veteranlar Şurasının üzvləri, Qarabağ müharibəsi veteranları və digər şəxslər iştirak etmişlər.

DSX-dən verilən məlumata görə, tədbirdə çıxış edənlər faşizm üzərində qələbənin əldə edilməsinə Azərbaycan xalqının çox böyük töhfələr verməsini, 1941-1945-ci illərdə Azərbaycandan 700 min nəfərdən çox insanın müharibədə iştirak etməsini, onların 300 min nəfərinin döyüşlərdə həlak olmasını, göstərdikləri igidliyə görə 123 nəfər həmyerlimizin Sovet İttifaqı Qəhrəmanı adına və 170 min nəferinin müxtəlif orden və medallara layiq görülməsini qeyd edərək azərbaycanlılardan ibarət milli diviziyaların Qafqazdan Berlinədək keçdiyi şanlı döyüş yolundan, arxa cəbhədə çalışan insanların rəşadətindən, müharibənin qələbə ilə başa çatmasında Bakı neftinin misilsiz rolundan ətraflı danışmışlar. Respublikamızda faşizm üzərində qələbənin hər il qeyd olunması, veteranlara göstərilən diqqət və qayğının təməlinin ulu öndər Heydər Əliyev tərəfindən qoyulduğu, bu ənənənin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi xüsusi vurğulanmışdır.

Çıxışlar zamanı tezliklə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müdrik rəhbərliyi və Ali Baş Komandanlığı altında Silahlı Qüvvələrimiz tərəfindən erməni faşistlərinə layiqli cavab veriləcəyinə, dövlətimizin ərazi bütövlüyünün təmin olunacağına və həmin ərazilərdə dövlət sərhədinin mühafizəsinin Azərbaycanın dövlət bayrağı altında təşkil ediləcəyinə əminlik ifadə olunmuşdur.

Tədbirdə çıxış edən Qarabağ müharibəsi veteranları Azərbaycan əsgərinin göstərdiyi qəhrəmanlıqlardan ətraflı danışmış, müharibə xatirələrini bölüşmüşlər. Veteranların gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması istiqamətində gördükləri işlərin mühüm əhəmiyyət kəsb etdiyi, xalqımızın Böyük Vətən müharibəsi illərində göstərdiyi qəhrəmanlıq və rəşadətin gələcək nəsillərə örnək olduğu bildirilmişdir.

Tədbirdə iştirak edən veteranlara hədiyyələr təqdim olunmuş və xatirə şəkili çəkilmişdir. Sonda Böyük Vətən müharibəsinə həsr olunmuş sənədli film nümayiş etdirilmişdir.

*"Azərbaycan"*


# Azərbaycan Respublikası Təhsil Nazirliyinin 4 saylı ərazi maliyyə hesablaşma mərkəzi

## açıq tenderə dəvət edir

**Tender 1 LOT üzrə keçirilir**

**LOT 1** - Yanacağın (odunun) satın alınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Oğuz şəhəri, Xətai küç., 29 ünvanından ala bilərlər (əlaqələndirici şəxs: Mayıl Kərimov, telefon (070) 610 24 99).

**İştirak haqqı:**
**LOT 1 - 50 manat**

**Hesab: AZ66AİİB32051019446800201168**
**VÖEN 6600067641**
**Bank: "Kapital Bank" ASC-nin Oğuz filialı**
**Kodu: 200684**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T: BİK AİİBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
4. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
8. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
9. *İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satın almaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 06.06.2018-ci il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 06.06.2018-ci il saat17:00-a qədər Oğuz şəhəri, Xətai küç.,29 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 07.06.2018-ci il saat 11:00-da Oğuz şəhəri, Xətai küç.,29 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***


# Unudulmazlar

**Xeyirxah əməlləri və dəyərli əsərləri ilə tarixin yaddaşında, nəsillərin qəlbində yaşayan unudulmaz şəxsiyyətlərdən biri də 190 il bundan öncə - 1828-ci ildə Qarabağda, Kəbirli mahalının Kəhrizli kəndində dünyaya göz açmış Əhməd bəy Cavanşirdir. Əvvəl hərbçi, sonralar isə şair və tarixçi kimi tanınan Əhməd bəy Cavanşir Qarabağ xanlığının qurucusu Pənahəli xan Cavanşirin nəticəsidir.**



## Hərbçi, şair və tarixçi

İlk təhsilini kənddə molla yanında alan Əhməd bəy rus dilində də yazıb-oxumağa həvəs göstərmişdi.1843-cü ildə Mehdiqulu xan Cavanşirin xahişi ilə çar I Nikolay Əhməd bəyi Peterburqa çağırtdırır, dövlət hesabına Pavlov kadet korpusuna qəbul etdirir.

O vaxtlar Pavlov məktəbinə yalnız zadəgan uşaqlarını qəbul edirdilər. Böyük ehtiramla Pavlov məktəbinin tələbəsi olan Əhməd bəy burada rus dilini mükəmməl öyrənir. Bu təhsil ocağını 1848-ci ildə müvəffəqiyyətlə bitirir və Qusar alayına təyinat alır. 1853-cü ildə Krım müharibəsi başlandı. O zaman 2000 nəfərə qədər azərbaycanlı, o sıradan Qasım bəy Zakirin oğlu Nəcəfqulu bəy və qardaşı oğlu İsgəndər bəy də könüllü olaraq Qafqaz cəbhəsində rus əsgərləri ilə çiyin-çiyinə döyüşürdü. Döyüş səngərlərində həmyerliləri ilə yaxından tanış olan Əhməd bəy Cavanşir 1854-cü ilə qədər burada hərbi xidmətdə olur. Döyüşlərdə göstərdiyi şücaətə görə ordenlə təltif edilir və ona ştabs-rotmistr (qərargah kapitanı) rütbəsi verilir.

Təəssüf ki, Əhməd bəyə orduda uzun müddət xidmət etmək nəsib olmur. Çünki o, 1850-ci ildə Əli bəy Sultanovla iştirak etdiyi dueldə qolundan yaralandığı üçün 1854-cü ildə hərbi qulluqdan tamamilə azad edilir. Bundan sonra o, anadan olduğu Kəhrizliyə gələrək təsərrüfat işləri ilə məşğul olur. O vaxt çar hökuməti vəsait sərf etmədən yerlərdə suvarma işlərini yaxşılaşdırmağa və beləliklə də, çoxlu xammal əldə etməyə çalışırdı. Qafqaz canişinliyi idarəsi Mil düzündəki suvarma işlərini qaydaya salmaq üçün buraya bir neçə dəfə xüsusi komissiya göndərmişdi. Bu komissiyaların hesablamalarına görə, nəzərdə tutulan işlər küllü miqdarda vəsait tələb etdiyindən qəti tədbir görə bilmədilər. Hətta bundan sonra yerli bəylərin Gavur arxını "...arx və arxın sututar bütün torpaqlarını 99 il onların istifadəsində" qalması şərtilə bərpa etmək istəkləri də nəticə vermədi.

XIX əsrin 60-cı illərinin sonunda Əhməd bəy Vərəndə sahəsinin murovu vəzifəsinə təyin edilir. O, bu zaman həm də taxıl yerlərini suvarmaq üçün Arazdan su çəkilməsi işilə məşğul olur. Zərgər, Dilağarda, Yağləvənd və Şahsevən camaatının köməyi ilə hökumətdən yardım istəmədən 1866-cı ildə 8 verst uzunluğunda arx qazdırır və onu Mil düzündəki qədim Gavur arxı ilə birləşdirmək kimi çətin problemi həll edir.

Bu xoş xəbəri Qafqaz canişinliyi ilə yanaşı, Peterburqda əyləşən çar məmurlarınacan hamı məmnunluqla qarşılayır. Hətta çar hökuməti Əhməd bəyin təcrübə və təşəbbüsünə dəstək nümayiş etdirərək göstərilən kanalı yenidən bərpa etmək üçün daha bir təşəbbüs göstərir və bu məqsədlə 1879-cu ildə Peterburqdan göndərilən xüsusi komissiya Əhməd bəyin iştirakı ilə Mil düzünü yenidən nəzərdən keçirib, diqqətlə yoxlayır...

Komissiya Əhməd bəyin və mühəndis Bexmanın fikri ilə razılaşaraq Gavur arxını bərpa etməyi qərara alır. Bu məqsədlə 1881-ci ildə plan layihəsi hazırlanır, lakin bu layihə əvvəlki layihələrin taleyindən fərqlənməyərək kağız üzərində qalır. Buna baxmayaraq, Əhməd bəy ruhdan düşmür, el-oba ağsaqqalları və kənd camaatı ilə söhbətlərində həmişə "Su ruzi-bərəkət, bolluq, xoş güzərandır" deyərək camaatın su problemini aradan qaldırmaq məqsədilə öz mülkündə kəhrizlər qazdırır, əkinçiliyin inkişafında əlavə suvarma mənbələri yaradırdı. Su təsərrüfatı sahəsində böyük təcrübəyə malik Əhməd bəyin Araz çayından çəkdirdiyi arxla yanaşı, öz mülkündə qazdırdığı kəhrizlər Avropanın müxtəlif ərazilərində suvarma sahəsində çalışan mütəxəssislərin nəzər-diqqətini cəlb etmişdi. 1883-cü ildə Əhməd bəyin qonağı olmuş almaniyalı mühəndis Veys fon-Veyssenqof xatirələrində yazır ki, "Qarabağ mülkədarı Əhməd bəy Cavanşir uzun illər apardığı müşahidələrin nəticələri və qazandığı təcrübə ilə məni tanış edərək qazdırdığı kəhrizlərlə ətraflı tanış olmağa imkan yaratdı".

Əhməd bəy Cavanşir kimsəsizlərə qayğısı, əkinçilərə əl tutması, yoxsul təbəqənin müdafiəsində qətiyyətinə və qanunpərəstliyinə görə seçilirdi, ictimai rəydə böyük nüfuz sahibi idi. XIX əsrin 70-ci illərində Əhməd bəy hakim sinif nümayəndələrindən kimin həqiqətən bəy təbəqəsinə mənsub olduğunu müəyyən etmək məqsədilə yaradılmış Şuşa bəy komissiyasının tərkibinə daxil olur. O zaman bəy və ağaların əksəriyyəti vergi və mükəlləfiyyətlərdən azad olmaq üçün saxta sənədlər (xan fərmanları, təliqələr və s.) düzəldərək özlərinin bəy təbəqəsinə mənsub olduqlarını sübut etməyə çalışırdılar. Əhməd bəy belələrini ifşa etməkdən çəkinmirdi, saxtakarlığa qarşı ciddi müqavimət göstərirdi. Onun bu prinsipiallığı komissiya üzvlərindən bəzilərinin narazılığına səbəb olurdu. Ona görə də Firudin bəy Köçərlinin yazdığı kimi, Əhməd bəyin düşmənləri müxtəlif bəhanələrlə onu həbs etdirirlər.

Həbsxana həyatı da görən Əhməd bəy azadlığa buraxıldıqdan sonra ömrünün son günlərinədək Kəhrizli kəndində yaşayır, tarix və ədəbiyyata aid kitablar mütaliə edir, müxtəlif əsərlər yazır və tərcümə ilə məşğul olur. Tədqiqatçıların fikrincə, Əhməd bəy Cavanşiri yaddaşlarda yaşadan bir tərəfdən xeyriyyəçiliyi və milli təəssübkeşliyidirsə, digər tərəfdən onun bu gün də müasir səslənən dəyərli əsərləridir. Onun müəllifi olduğu "Asari-Əhməd bəy Cavanşir" adlı şeirlər, "Türk zərb-məsəllər məcmuəsi" adlı folklor nümunələri, "1747-ci ildən 1805-ci ilə qədər Qarabağ xanlığının siyasi vəziyyətinə dair" adlı tarix kitabları Azərbaycan ədəbiyyatında və tarixində xüsusi əhəmiyyətə malikdir.

Əhməd bəy Cavanşirin 1884-cü ildə Tiflisdə rus dilində qələmə aldığı "1747-1805-ci illərdə Qarabağ xanlığının siyasi vəziyyətinə dair" əsəri digər salnamələr içərisində özünəməxsus yer tutur. Bu əsərin fərqli cəhətlərindən biri də ondan ibarətdir ki, müəllif əsərdə Kürəkçay müqaviləsinə də xüsusi diqqət yetirmiş, Qarabağın siyasi tarixini ardıcıllıqla gündəmə gətirmiş, maraq kəsb edən hadisələrin şərh və izahını vermişdir. Bu tarixi salnaməni vərəqləyəndə XVIII əsrdə və XIX əsrin əvvəllərində nəinki Qarabağda, bütövlükdə Cənubi Qafqazda baş vermiş mürəkkəb ictimai-siyasi proseslərə obyektiv yanaşmanın şahidi oluruq. Bir sıra qaranlıq mətləblərə aydınlıq gətirilməsilə ermənilərin canfəşanlıqla dünyaya yaydıqları məkrli yalanları puça çıxarmaq üçün qiymətli məlumatlarla rastlaşırıq. Bu məlumatlardan o da aydın olur ki, Qarabağ xanlığı qədimdən Azərbaycanda feodal dövlət kimi yaranmış və bu şəkildə də Rusiya imperiyasının tərkibinə qatılmışdır. 14 may 1805-ci il tarixli Kürəkçay müqaviləsinə Sisyanovla birlikdə Qarabağ xanı İbrahimxəlil xan Cavanşir də qol çəkmişdir. Bütün bunlar xalqımızın tarixi, məişəti, təsərrüfatı, ozamankı həyat tərzinin bir sıra mühüm sahələrinə işıq salır, XVIII əsrin ikinci yarısında Qarabağda gedən taleyüklü tarixi proseslərin obyektiv mənzərəsini yaratmağa imkan verir.

Tarixi şəxsiyyət Əhməd bəy Cavanşir Mülkicahan xanımla ailə qurmuş, sayılıb-seçilən ailə sahibi olmuşdur. Onların Aslan bəy, Məhəmməd bəy adlı oğulları, Həmidə adlı qızları vardı. 1873-cü ildə indiki Ağcabədi rayonunun Kəhrizli kəndində dünyaya göz açan Həmidə xanım Əhməd bəy qızı ailə təhsili almış, Azərbaycan və rus dillərini mükəmməl öyrənmişdi.

Əhməd bəyin qızı Həmidə xanım məşhur Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadənin həyat yoldaşı idi. O, ölkəmizin ilk maarifçi xanımlarından biri olmuşdur. Atası Əhməd bəy Cavanşir, Mirzə Cəlil və M.Ə.Sabir haqqında xatirələr yazmış, Azərbaycan yazıçılarının əsərlərini, o cümlədən həyat yoldaşı Cəlil Məmmədquluzadənin bir sıra hekayələrini ruscaya tərcümə etmişdir. Həmidə xanım ədəbiyyatçı-folklorşünas kimi də fəaliyyət göstərmiş, Azərbaycan xalq ədəbiyyatı nümunələrinin, tarixi şəxsiyyətlər haqda rəvayətlərin toplanılması sahəsində mühüm işlər görmüşdür.

Əhməd bəy Cavanşir 1903-cü il yanvarın 9-da 75 yaşında dünyasını dəyişmiş, öz vəsiyyətinə görə doğulduğu Kəhrizli kənd qəbiristanlığında doğmalarının yanında dəfn edilmişdir. Unudulmaz şair və tarixçi Əhməd bəy Cavanşirin 190 illik yubileyi anadan olduğu qədim Qarabağ torpağında, eləcə də respublikamızın bütün bölgələrində ədəbi ictimaiyyət tərəfindən qeyd edilir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Türkiyənin İzmir şəhərində Bakı Parkının açılışı olub




**Türkiyənin İzmir şəhərinin Narlıdərə rayonu ərazisində Bakı Parkının açılışı olub.**

AZƏRTAC xəbər verir ki, bu münasibətlə keçirilən mərasimdə rəsmilər, Azərbaycanı və Türkiyəni təmsil edən tanınmış şəxslər, habelə yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Əvvəlcə Azərbaycanın və Türkiyənin Dövlət himnləri səsləndirilib.

Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahim, İzmir Böyükşəhər Bələdiyyəsinin sədri Əziz Kocaoğlu, Narlıdərə rayon bələdiyyəsinin sədri Əbdül Batur, İzmirdə fəaliyyət göstərən Azərbaycan Qardaşlıq və Əməkdaşlıq Dərnəyinin sədri Asif Qurbanlı çıxış edərək Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərindən danışıblar. Diqqətə çatdırılıb ki, Bakı Parkının açılışı qardaş Türkiyə xalqının Azərbaycana və paytaxtımıza olan tükənməz sevgisinin təzahürüdür.

Sonra Azərbaycan əsilli şair Tuğrul Keskin Azərbaycan və Bakı haqqında şeirlər söyləyib.

Yerli sakinlər bayramsayağı bəzədilmiş Bakı Parkının açılışını rəğbətlə qarşılayıblar.

# Beynəlxalq aləm

## HADİSƏLƏR, FAKTLAR

### ABŞ-da "Volkswagen"in keçmiş başçısının həbsinə order verildi



Amerika hökuməti Almaniyanın "Volkswagen" avtmobil konserninin keçmiş başçısı Martin Vinterkornun həbsinə order vermişdir. ABŞ-ın Ədliyyə Nazirliyi hesab edir ki, Vinterkorn əvvəlki kimi mühakimədən gizlənir. Bu barədə "Alman dalğası" radiostansiyası xəbər verir.

Konsernin eks-başçısı "dizel qalmaqalı" çərçivəsində ABŞ hökumətini və amerikalı müştəriləri aldatmaq məqsədilə "Volkswagen"in digər rəhbərləri və əməkdaşları ilə birgə sövdələşmədə ittiham olunur. Rəsmi ittiham mayın 3-də Vinterkorna Miçiqan ştatının prokurorluğu tərəfindən təqdim edilmişdir.

Almaniya Ədliyyə Nazirliyinin məlumatına görə, 70 yaşlı Vinerkorn ölkə ərazisində olduğu müddətdə ABŞ-a təhvil verilməyəcək.

### Vaşinqtonda Donald Trampla Muç Çje İnin görüşü keçiriləcək



Mayın 22-də Ağ evdə ABŞ və Cənubi Koreya prezidentlərinin görüşü keçiriləcək. Bu barədə Ağ evin nümayəndəsi Sara Sanders məlumat vermişdir.

Bildirilir ki, Donald Trampla Mun Çje İnin görüşündə Koreya yarımadasındakı vəziyyət müzakirə olunacaq. Bundan əlavə, görüş zamanı Trampın KXDR başçısı Kim Çen İnlə planlaşdırılan danışıqların mövzusuna toxunulacaq.

Srağagün Ağ evin başçısı bildirmişdir ki, Şimali Koreya lideri ilə görüşün yeri və tarixi artıq müəyyənləşdirilmişdir və yaxın vaxtlarda bu barədə açıqlama veriləcək.

### Kanadada güclü qasırğa baş verdi



Kanadanın Ontario əyalətində baş vermiş güclü qasırğa nəticəsində azı 2 nəfər həlak olmuş, 3 nəfər xəsarət almışdır. Bu barədə CTV telekanalı xəbər verir. Bundan əlavə, təbii fəlakət nəticəsində 200 minədək ev işıqsız qalmışdır.

Bildirilir ki, Toronto beynəlxalq hava limanı işini davam etdirsə də, bir çox reyslər gecikir.

"İnterfaks" agentliyinin xəbərinə görə, bəzi yerlərdə küləyin sürəti saatda 110 kilometrə çatmışdır. Yaxın saatlarda qasırğanın zəifləyəcəyi gözlənilir.

### "Hitrou"da 50 timsah müsadirə edildi

Dünən Londonun "Hitrou" hava limanında mühafizə xidməti daşınma şərtləri pozulduğuna görə 50 timsahı müsadirə etmişdir. Bu barədə BBC xəbər verir.

Bir yaşlı sürünənlər Britaniyaya Malayziyadan gətirilmişdir. Konteynerlərdəki sıxıntılı şəraitə görə heyvanlar özlərini narahat hiss etmişlər.

Sərhəd xidmətinin nümayəndəsi bildirmişdir ki, timsahların daşınma şəraitinə lazımi diqqət yetirilməmişdir. Uçuş zamanı heyvanlardan biri tələf olmuşdur. Sağ qalan 49 timsah geri qaytarılacaq. Hazırda onlara heyvanların müdafiəsi ilə məşğul olan beynəlxalq təşkilatın nümayəndələri qulluq edirlər.

### Çində pensiyaçıların avtobusu çaya düşdü



Dünən Çinin cənubunda sərnişin avtobusu aşaraq çaya düşmüşdür. Nəticədə 8 nəfər həlak olmuşdur. "Sinxua" agentliyinin xəbərinə görə, qəza zamanı 1 nəfər itkin düşmüşdür.

Bildirilir ki, hadisə Şantou qəsəbəsi yaxınlığında baş vermişdir. Sərnişinlərin hamısı ahıl adamlar imiş.

TASS agentliyinin xəbərinə görə, qəza yerində xilasedicilər işləyir.


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti


**ALLAH RƏHMƏT ELƏSİN!**

"Azerlotereya" ASC-nin kollektivi İqtisadiyyat Nazirliyi İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun direktoru Vilayət Vəliyeva əzizi

**ELMAN ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8776
Sifariş 1288